Azərbaycan Respublikasının Prezidenti yanında
Elmin İnkişafı Fondunun qrant layihəsi
çərçivəsində nəşr olunmuşdur

**Urxan Ələkbərov, Rəcəb Rəhimli,
Ziyafət Həbibova, Murtəza Həsənov**

# İNSAN POTENSİALINA ƏSASLANAN SOSİAL MÜƏSSİSƏLƏR AZƏRBAYCANDA DAVAMLI İNNOVATİV İNKİŞAF TEXNOLOGİYASI KİMİ

**BAKI – ELMİN İNKİŞAFI FONDU – 2018**

*Elmi redaktor:*
**Akif Əlizadə**
*AMEA-nın həqiqi üzvü*

*Rəyçilər:*
**Elman Nəsirov**
*siyasi elmlər doktoru, professor*
**Qorxmaz İmanov**
*iqtisad elmlər doktoru, professor*

**U.K.Ələkbərov, R.Z.Rəhimli, Z.Z.Həbibova, M.İ.Həsənov. İnsan potensialına əsaslanan sosial müəssisələr Azərbaycanda davamlı innovativ inkişaf texnologiyası kimi.** – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2018. – 184 səh.

Davamlı inkişaf hədəflərinə həm innovativ proseslər, həm də sosial məsuliyyət qaydalarını qəbul və tətbiq edən sosial müəssisələr yolu ilə töhfə vermək olar. İnsan inkişafına əsaslanan sosial müəssisələrin yaradılması və idarə olunması, bu sahədə yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə, ölkənin iqtisadi, sosial və ekoloji təhlükəsizliyinin təmin olunması, davamlı inkişaf məqsədlərinin həyata keçirilməsində mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda sosial müəssisələrin yaradılması, onlar üçün əlverişli investisiya mühiti formalaşdırmaq yolu ilə icmaların iqtisadi inkişafına yardım etmək, sosial müəssisələrin tətbiqinin ölkə ərazisindəki icmaların inkişafına yardım edə biləcək mexanizm kimi işlənilib hazırlanması olduqca vacib məqamdır.

Monoqrafiya ölkədə sosial müəssisələrin inkişaf etdirilməsinə, sosial təşəbbüskarlıq sahəsində bilik və bacarıqların artırılmasına, icma səviyyəsində əhalinin sosial tələbatlarının daha dolğun ödənilməsi və davamlı ikişaf üçün əlverişli mühitin formalaşdırılması prosesində sosial müəssisələrin rolunun və onların fəaliyyətinin səmərəliliyinin artırılmasına, o cümlədən sosial müəssisələrin yaradılması ilə bağlı normativ-hüquqi bazanın təkmilləşdirilməsinə kömək edəcək və bu sahədə çalışan müvafiq idarəetmə orqanlarının işçiləri, dövlət qulluqçuları, elmi işçilər, müxtəlif ixtisaslar üzrə təhsil alan tələbə, magistr və doktorantlar üçün faydalı olacaqdır.

**Monoqrafiya Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun qrant layihəsi çərçivəsində çap olunmuşdur: Qrant № EİF-2013-9(15)-46/41/5**

**Bu əsər 13 mart 2014-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyində qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında 7981 nömrəli Şəhadətnamə (qeydiyyat nömrəsi: 04/C-7466-14) verilmişdir.**

**ISBN: 978-9952-516-17-3**

© Azərbaycan Respublikasının Prezidenti
yanında Elmin İnkişafı Fondu, 2018
© U.K. Ələkbərov, R.Z. Rəhimli, Z.Z. Həbibova, M.İ. Həsənov, 2018

# MÜNDƏRİCAT

**GİRİŞ** .......... **5**

**I fəsil. SOSİAL MÜƏSSİSƏLƏRİN FƏALİYYƏTİNİN TƏNZİMLƏNMƏSİ SAHƏSİNDƏ VƏZİYYƏTİN MÜQAYİSƏLİ TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ** .......... **13**

1.1. Davamlı inkişafın idarə edilməsində sosial müəssisələrin rolu .......... 13
1.2. İcma səviyyəsində sosial müəssisələrdən istifadə metodları .......... 29
1.3. İnkişaf etmiş ölkələrdə və MDB dövlətlərində sosial müəssisələrin təşkili və fəaliyyəti .......... 58

**II fəsil. AZƏRBAYCANDA SOSİAL MÜƏSSİSƏLƏRİN FƏALİYYƏTİ SAHƏSİNDƏ MÖVCUD VƏZİYYƏTİN ANALİTİK TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ** .......... **75**

2.1. Sosial müəssisələr (sosial müəssisə anlayışının məzmunu, təzahür formaları, problem və perspektivləri) .......... 75
2.2. Azərbaycanda sosial müəssisələrin yaranması və inkişafı perspektivləri *(nəzəriyyə və təcrübə)* .......... 86
2.2. Azərbaycanın sosial-iqtisadi inkişafı sosial müəssisələrin yaranmasının zəmini kimi .......... 93

**III fəsil. AZƏRBAYCANIN MÜXTƏLİF BÖLGƏLƏRİNDƏ SOSİAL MÜƏSSİSƏLƏRİN YARADILMASI VƏ İNKİŞAF ETDİRİLMƏSİ POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ, PROBLEMLƏRİN MÜƏYYƏN EDİLMƏSİ** .......... **114**

3.1. Sosial müəssisələrin yaradılması və inkişaf etdirilməsi sahəsində normativ-hüquqi, təşkilati-idarəetmə, iqtisadi əsasların və mövcud problemlərin təhlili .......... 114
3.2. Azərbaycanın bölgələrində sosial inkişaf və sosial müəssisələrin yaradılması perspektivləri .......... 127

3.2.1. Gəncə-Qazax iqtisadi rayonunda sosial inkişaf
və sosial müəssisələrin yaradılması perspektivləri ....................................127
3.2.2. Qax, Zaqatala, Balakən rayonlarında sosial inkişaf
və sosial müəssisələrin yaradılması perspektivləri ....................................145
3.2.3. Lənkəran iqtisadi rayonunda sosial inkişaf
və sosial müəssisələrin yaradılması perspektivləri ....................................151

**NƏTİCƏ VƏ TƏKLİFLƏR ........................................................................ 163**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT ................................................................ 168**

# GİRİŞ

Xalqımızın ümummilli lideri Heydər Əliyevin uzaqgörənliklə müəyyənləşdirdiyi Azərbaycanın iqtisadi inkişaf strategiyası bu gün respublikaya inamla rəhbərlik edən Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu strategiyanın yeni dövrün tələblərinə uyğun əhəmiyyətli dərəcədə zənginləşdirilməsi milli iqtisadiyyatın regional və qlobal sınaqlara dayanıqlığını artırmış, sosial-iqtisadi islahatlarla müəyyən edilmiş məqsədlərə nail olunmasını, o cümlədən həmin siyasətin əsasını təşkil edən əhalinin sosial vəziyyətinin yaxşılaşmasını təmin etmişdir. Bütün sahələrdə əldə olunmuş nailiyyətlər zamanın sınağından uğurla çıxmış, iqtisadiyyatın diversifikasiyası, sosial təşəbbüskarlıq, əhalinin idarəetmə proseslərinə cəlb edilməsi dövlət siyasətinin əsas tərkib hissəsi kimi qəbul edilmiş və xalqımızın layiqli həyat səviyyəsinin təmin edilməsində alternativsiz siyasətin tərkib hissəsi olan yoxsulluğun azaldılması, regionların sosial-iqtisadi inkişafı, əhalinin ərzaqla etibarlı təminatı və ərzaq təhlükəsizliyi ilə bağlı qəbul edilmiş dövlət proqramlarında nəzərdə tutulmuş kompleks tədbirlərin sistemli və vaxtında yerinə yetirilməsi nəticəsində mümkün olmuşdur. Məhz bu islahatların davamı olaraq 2016-cı ildə Azərbaycanda icmaların davamlı inkişafının təmin olunmasının innovativ vasitəsi kimi sosial müəssisələrin təşkili və idarəolunması potensialının tədqiqi və qiymətləndirilməsini nəzərdə tutan «İnsan potensialına əsaslanan sosial müəssisələr Azərbaycanda icmaların davamlı innovativ inkişaf texnologiyası kimi» mövzusunda qrant layihəsi (Qrant № EİF-2013-9(15)-46/41/5) Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən təsdiq edilmiş və yerinə yetirilmişdir.

Məsələnin aktuallığı aşağıda qeyd olunan bir sıra səbəblərlə bağlıdır.

Birincisi, ərazilər müxtəlif olsa da, problemlər eynidir: mədəni və tarixi dəyərlərin qorunması, sosial-iqtisadi inkişaf üçün imkanların yaradılması və onların həyat fəaliyyətinin təhlükəsizliyinin təmin edilməsi, ekoloji tarazlığın saxlanılması, sosial xidmətlərin yaxşılaşdırılması və s. Yuxarıda sadalanan uğurlarla yanaşı, bu gün Azərbaycanda, xüsusilə kənd icmalarında və inzibati mərkəzlərdən uzaqda yerləşən kiçik yaşayış məntəqələrində məşkunlaşmış əhalidə sosial təşəbbüskarlıq fəaliyyətini mükəmməl hesab etmək olmaz. Eyni zamanda yerlərdə əhalinin sosial xidmətlərə çıxış imkanları məhduddur. Bu, hər şeydən əvvəl, yerlərdə sosial təşəbbüskarlığın artırılması üçün faktiki olaraq yeni ideya və modellərin olmaması ilə bağlıdır. Bu baxımdan icmaların davamlı inkişafının təmin olunmasının innovativ vasitəsi kimi sosial müəssisələrin tətbiqinin aktuallığı şübhə doğurmur.

İkincisi, son illərdə yeni iş yerlərinin yaradılması və məşğulluq sahəsində respublikamızda çox böyük uğurlar əldə edilsə də, xüsusilə icma səviyyəsində işsizlik və daha doğrusu icmaların özü-özünü təmini problemi hələ də qalmaqdadır. Bu gün Azərbaycanda yerlərdə xüsusilə gənclər arasında işsizlik problemi mövcuddur ki, bu da sosial vəziyyətə mənfi təsir edir, miqrasiya proseslərini gücləndirir. Bu baxımdan sosial-icma müəssisələrinin yaradılması və inkişaf etdirilməsi yerlərdə gənclərin işsizlik problemlərini səmərəli şəkildə həll etməyə kömək edə bilər, istedadlı və savadlı gənclərin böyük şəhərlərdəki imkanlar naminə öz evlərini tərk etməməsi və öz potensiallarını doğma yerlərində reallaşdırması üçün şərait yaratmış olar.

Üçüncüsü, yerlərdə sosial problemlərin əsas səbəblərindən biri icma səviyyəsində əhalinin gəlirlərinin aşağı səviyyədə olması ilə bağlıdır. Eyni zamanda, yerlərdə əhaliyə sosial xidmətlərin göstərilməsinin dövlət yardımlarına əsaslanan mövcud sistemi yerli potensialdan tam istifadə edilməsinə imkan vermir və bütün dünyada artıq bu təcrübədən imtina edilir. Yalnız dövlət yardımlarına ümid bəsləmək insan-

larda arxayınçılıq və ələbaxımlıq əhval-ruhiyyəsi (psixologiyası) yaradır, əhalinin yaradıcı potensialından səmərəli istifadəyə, istehsal və idarəetmə proseslərində vətəndaşların iştirakının aktivləşdirilməsinə imkan vermir. Vətəndaşlar bu və ya digər layihələrin icrasına cəlb olunduqdan sonra özlərinin ümumi işə töhfələrini hiss edir və əldə etdiklərini qoruyub saxlamağa, daha çox qaygı ilə yanaşmağa başlayırlar. Bu mənada əhalinin aztəminatlı təbəqələrinin/qruplarının, əmək fəaliyyətinə yararlı nümayəndələrinin sosial müəssisələrin köməyi ilə öz biznesini qurmaq və ya imkan və məhdudiyyətlərinə uyğun iş yaratmaqla onların aktiv iqtisadi fəaliyyətə cəlb edilməsi hazırkı dövrdə çox vacib məsələlərdən biridir.

Dördüncüsü, bəlli olduğu kimi, Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində ölkə ərazisinin 20 faizinin işğal altında olması, bir milyona yaxın (ölkə əhalisinin təxminən 13 faizinin) qaçqın və məcburi köçkünün olması ölkənin inkişafını əngəlləyən çox ciddi siyasi, iqtisadi və sosial amil kimi çıxış edir. Qaçqın və məcburi köçkünlərin işlə təminatı ilə bağlı ölkədə önəmli tədbirlər gerçəkləşdirilib, 400 minə yaxın məcburi köçkün işlə təmin olunub. Amma bu sahədə problemlər hələ də qalmaqdadır. Məsələnin aktuallığına Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr olunmuş müşavirədə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da xüsusi diqqət çəkib. Birinci vitse-prezident icra hakimiyyətlərinə bu təbəqədən olan insanların işlə təmin edilməsi üçün kiçik biznes, kiçik müəssisələrin yaradılması ilə bağlı təkliflər hazırlamağı tapşırıb. Əslində, ayrı-ayrı ərazilərdə kompakt məskunlaşmış məcburi köçkünlər, xüsusilə də bu təbəqədən olan qadınların müvəqqəti yaşayış ünvanlarında rifahının təmin edilməsi, işsizlik problemlərinin həlli baxımından yerlərdə yaradılacaq sosial-icma müəssisələri ideal çözüm sayıla bilər.

Beləliklə, Azərbaycanda icma səviyyəsində sosial müəssisələrin yaradılması və inkişaf etdirilməsi, yerlərdə əhalinin sosial təşəbbüs-

karlıq fəaliyyətinin yüksəldilməsi, sosial xidmətlərə tələbatların daha dolğun ödənilməsi sahəsində sosial müəssisələrin rolunun və onların fəaliyyət prinsiplərinin dəqiqləşdirilməsi, bu sahədə elmi tədqiqatların aparılması və mövcud normativ sənədlərin təhlil olunması olduqca vacib məsələdir.

Hər bir ölkədə cəmiyyətin inkişafı, yerli özünüidarə institutlarının mövcudluğu və buna paralel olaraq da icmaların özü-özünü təmin etməsi və inkişaf səviyyəsi ilə ölçülür. Eyni zamanda ölkənin sənayeləşmə gücünün artması və sürətli şəhərləşmə prosesləri yerli özünüidarələrin inkişafına səbəb olur. Çünki inkişaf prosesi bir vəhdət halında həyata keçirilir. Bu proseslər bütövlükdə cəmiyyətin əmək, resurs və düşüncə potensialı, gücünü yerli və ümummilli inkişaf layihələrinə sərf edərək, ümumi inkişafı həyata keçirirlər. Bu aspektdən baxanda icma səviyyəsində əhalinin sosial xidmətlərə tələbatlarının daha dolğun ödənilməsini təmin etmək üçün sosial müəssisələrin yaradılması və inkişaf etdirilməsi ekoloji balansı gözləməklə icmanın iqtisadi imkanlarının artırılmasına, sosial yönümlü innovasiyaların aktivləşdirilməsinə, yerlərdə və bütövlükdə ölkədə davamlı inkişafın təmin edilməsi üçün əlverişli mühitin formalaşdırılması prosesinin sürətləndirilməsinə kömək edir, dövlətin sosial-iqtisadi siyasəti ilə müəyyənləşdirilmiş məqsədlərə daha səmərəli yolla nail olmaq imkanlarını artırır.

Azərbaycanda icma səviyyəsində sosial müəssisələrin yaradılması və inkişafı üçün kifayət qədər potensial mövcuddur ki, bunları da aşağıdakı kimi ifadə etmək olar:

- yerlərdə mövcud sosial problemlərin həllinə və yerli icmanın həyat keyfiyyətinin yaxşılaşmasına yönəlmiş biznes-ideyalara malik təşəbbüskar insanlar var;
- bölgələrdə zəruri infrastrukturun, həmçinin sosial problemlərin həllinə yönəlmiş və sosial təşəbbüslərin reallaşdırmasına yardım edə biləcək təşkilatlar/strukturlar mövcuddur;

- ölkədə sosial problemlərin həllinə yönəlmiş məqsədli proqramlar reallaşdırılır ki, bunlardan da sosial müəssisələrin fəaliyyətinin resurs təminatı üçün istifadə etmək olar;
- ölkə qanunvericiliyində sosial təşəbbüskarlığa dəstəklə bağlı xüsusi tədbirlərin nəzərdə tutulmadığına baxmayaraq, burada bir sıra normalar var ki, onlardan sosial müəssisələrin vergi yükünün yüngülləşdirilməsi və xərclərinin azaldılması üçün istifadə etmək olar.

Azərbaycanda icma səviyyəsində davamlı inkişafın təmin olunmasının innovativ metodlarından biri kimi sosial müəssisələrin yaradılması və sosial təşəbbüskarlığın inkişaf etdirilməsinin zəruriliyinin əsaslandırılmasına, beynəlxalq təcrübənin, yerli biliklərin və tarixi-mədəni irsin təhlili əsasında icmalarda sosial müəssisələrin inkişaf potensialının qiymətləndirilməsinə, sosial müəssisələrin təşkilinin normativ-hüquqi, təşkilati-idarəetmə və iqtisadi əsaslarının təkmilləşdirilməsi sahəsində elmi-praktiki təklif və tövsiyələrin işlənib hazırlanmasına xüsusi ehtiyac duyulur.

Əslində dünyada fəaliyyət göstərən sosial müəssisələrin sayı çox olsa da, insan potensialına əsaslanan sosial müəssisələr mövcud deyil. Vaxtilə pilot layihəsi kimi Azərbaycanda ilk «İnsan inkişafı və davamlı gəlir əldə etmə ictimai birliklər»i icma əsaslı təşkilatlar kimi (community based organizations) yaradılmışdır. Dünyada birinci olması onların sosial müəssisə olması ilə əlaqədar deyildi. Dünyada ilk dəfə insan potensialına əsaslanan sosial müəssisə yaradılmışdı (Goranboy rayonu Eyvazlılar kəndi) və Azərbaycanda bu yenilik barədə məlumatı BMT-nin Baş Qərargahı (Nyu York) qlobal miqyasda «Azərbaycanda innovativ ideya və fəaliyyət» kimi yaymışdır.[1]

Azərbaycanda sosial müəssisələrin yaradılması, onlar üçün əlverişli investisiya mühiti formalaşdırmaq yolu ilə icmaların iqtisadi inkişafına yardım, sosial müəssisələrin tətbiqinin ölkə ərazisindəki icmala-

[1] http://hdr.undp.org/impact, December 19, 2005

rın inkişafına yardım edə biləcək mexanizm kimi işlənib hazırlanması olduqca vacib məqamdır. Təqdim olunan kitab respublika səviyyəsində sosial təşəbbüskarlıq sahəsində biliklərin, uğurlu təcrübələrin akkumulyasiya mərkəzi, müəyyən mənada bu ideyanın inkişaf etdirilmə mexanizmi kimi çıxış etməli, sosial müəssisələrin, sosial təşəbbüskarlığa yardım strukturların bilik və təcrübə mübadiləsi üçün mərkəz rolunu oynamalı, yerlərdə icmanın sosial müəssisəsinin rolu insan potensialının inkişafı vasitəsi ilə innovativ inkişafın təmin edilməsi, miqrasiyanın azalması, demoqrafiya, ev şəraitində işin təşkili hesabına əlavə iqtisadi səmərə və s. üstünlüklər əldə etməsinə xidmət etməlidir.

Qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün aşağıda qeyd olunan vəzifələrin müəyyənləşdirilməsi və həlli tələb olunur:

- elmi mənbələrə və beynəlxalq təcrübəyə əsaslanmaqla «sosial müəssisə» anlayışının mahiyyəti və məzmununun dəqiqləşdirilməsi, onun struktur elementlərinin tərkibinin aşkar edilməsi, xüsusilə icma səviyyəsində davamlı inkişaf üçün əlverişli mühitin formalaşdırılması prosesində sosial müəssisələrin rolunun açıqlanmasına müxtəlif baxışların və fərqli yanaşmaların öyrənilməsi və müqayisəli təhlili;
- sosial müəssisələrin cəmiyyətin sosial strukturundakı yerini müəyyənləşdirmək, sosial müəssisələrin məqsədlərini, funksiya və vəzifələrininin mahiyyətini açıqlamaq; sosial müəssisələrin fəaliyyətini və inkişafını təmin edən əsas amilləri aşkara çıxarmaq;
- Azərbaycanda sosial müəssisələrin inkişaf etdirilməsi sahəsində mövcud vəziyyətin, sosial müəssisələrin yaradılması və fəaliyyətinin tənzimlənməsinin normativ-hüquqi, təşkilati-idarəetmə və iqtisadi əsaslarının təhlili və qiymətləndirilməsi, bu sahədə mövcud olan problemlərin müəyyənləşdirilməsi;

- pilot rayonlarda aparılacaq tədqiqatlar əsasında ayrı-ayrı icmalarda sosial müəssisələrin yaradılması və inkişaf etdirilməsi potensialının qiymətləndirilməsi;
- sosial müəssisələrin yaradılması, inkişaf etdirilməsi və fəaliyyətinin tənzimlənməsi sahəsində yerli və beynəlxalq təcrübənin müqayisəli təhlili əsasında təkmilləşdirmə istiqamətlərinin və bu istiqamətlər üzrə həyata keçirilməsi zəruri olan tədbirlərin müəyyənləşdirilməsi;
- tədqiqatın nəticələri əsasında ölkədə sosial müəssisələrin yaradılması, inkişafı və fəaliyyətinin səmərəliliyini qiymətləndirmək üçün meyarların işlənib hazırlanması, sosial müəssisələrin inkişafının təmin edilməsi sahəsində tədbirlərin səmərəli reallaşdırılması üçün tövsiyələrin işlənib hazırlanması.

Kitabda tədqiqatlar bir-birilə kəsişən iki strateji istiqamətdə həyata keçirilmişdir.

Birincisi, inkişaf etmiş ölkələrin nümunəsində sosial müəssisələrin fəaliyyəti ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi və elmi ədəbiyyatda onun araşdırılmasının təhlili. Burada sosial müəssisələrin mahiyyəti və məzmununa müxtəlif ekspertlərin baxışları və fərqli yanaşmaları, ilk növbədə onların mövqeyinə təbii olaraq təsir edən Avropa ölkələrində və Amerikada, postsovet məkanında sosial müəssisələrin inkişaf meyilləri araşdırılaraq təhlil edilmişdir.

Tədqiqatların ikinci istiqaməti kimi Azərbaycanda sosial müəssisələrin fəaliyyəti sahəsində mövcud təcrübə öyrənilmiş, onun inkişafı ilə bağlı problemlərin təhlili və perspektivlərin qiymətlədirilməsi həyata keçirilmişdir. Azərbaycanda sosial müəssisələrin inkişafının ətraflı şərhi, onun biznes-modellərinin formalaşmasının məntiqi və peşəkar əsasları, sosial müəssisələrin bazar mövqeləşdirilməsi baxımından təhlili həyata keçirilərək, sosial müəssisələrin yaradılması və inkişafı sahəsində mövcud problemlər və onları doğuran səbəblər aşkara çıxarılaraq təhlil olunmuş, onların həlli yolları araşdırılaraq, pilot ərazilərdə aparılmış sahə tədqiqatlarının nəticələrinin təhlili və ümumi-

ləşdirilməsi yolu ilə Azərbaycanda sosial müəssisələrin yaradılması və inkişaf perspektivləri qiymətlədirilmiş və bu sahədə bir sıra elmi-praktiki təklif və tövsiyələr işlənib hazırlanmışdır.

Tədqiqatın nəticələri ölkədə sosial müəssisələrin inkişaf etdirilməsinə, icma səviyyəsində əhalinin sosial tələbatlarının daha dolğun ödənilməsi və davamlı inkişaf üçün əlverişli mühitin formalaşdırılması prosesində sosial müəssisələrin rolunun və onların fəaliyyətinin səmərəliliyinin artırılmasına, o cümlədən sosial müəssisələrin yaradılması ilə bağlı normativ-hüquqi bazanın təkmilləşdirilməsinə kömək edəcək və bu sahədə çalışan müvafiq idarəetmə orqanlarının işçiləri üçün faydalı olacaqdır.

# I fəsil

# SOSİAL MÜƏSSİSƏLƏRİN FƏALİYYƏTİNİN TƏNZİMLƏNMƏSİ SAHƏSİNDƏ VƏZİYYƏTİN MÜQAYİSƏLİ TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

## 1.1. Davamlı inkişafın idarə edilməsində sosial müəssisələrin rolu

Davamlı inkişaf müasir dövrün ən aktual problemidir. Davamlı inkişaf çağdaş nəsillərin rifahını təmin edən və gələcək nəsillərin imkanlarını məhdudlaşdırmayan inkişaf yoludur. Davamlı inkişaf ətraf təbii, iqtisadi, sosial və mədəni mühitlərin planlaşdırılmasını, idarə edilməsini və monitorinqini nəzərdə tutur. Digər tərifə görə, davamlı inkişaf iqtisadiyyatın artımının, onun optimal səviyyədə saxlanmasının, insan fəaliyyətinin idarə edilməsinin elə bir üsuludur ki, o, çağdaş nəsillərin tələblərini ödəməyə qadirdir və eyni zamanda gələcək nəsillərin də öz tələbatlarını ödəməsi üçün əngəllər yaratmır.[1]

Uğurlu inkişafın yeganə təminatçısı optimal idarəetmədir.[2] Şübhəsiz ki, hər bir müvəffəqiyyətli idarəetmə optimal planlaşdırmaya əsaslanır. Tərəqqini təmin edən inkişaf prosesinin optimal planlaşdırılması ilkin vəziyyətin düzgün qiymətləndirilməsindən asılıdır. Digər tərəfdən inkişafın məqsədi olan hədəflərin aydın müəyyənləşdirilməsi vacibdir. Belə yanaşma idarəetmənin bütün istiqamətlərinə, o cümlə-

---

[1] Ələkbərov U. Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları. Bakı, 2013. s.197

[2] Yenə orada, s. 23

dən dövlət idarəetmə proseslərinə, ərazilərin, müxtəlif müəssisə və təşkilatların idarə olunmasına şamil edilə bilər.[1]

Davamlı inkişafa nail olmaq cəhdlərinə yeni təkan vermək üçün 2000-ci ildə dövlət başçılarının toplantısında BMT-nin Minillik Bəyannaməsi qəbul olundu. Bu sənəd bütün zəngin və yoxsul ölkələrin üzərinə öhdəlik qoydu ki, yoxsulluğu azaltmaq, insan ləyaqətini və bərabərliyi təşviq etmək, sülhə, demokratiyaya və ətraf mühitin davamlılığına nail olmaq üçün əllərindən gələn hər şeyi etsinlər. Minilliyin İnkişaf Məqsədləri (MİM) 8 məqsəd, 18 hədəf və 48 göstəricidən ibarətdir. Məqsədlər insan hüquqları, sağlamlıq, təhsil və ətraf mühitlə bağlı məsələlərdir.[2]

«Planeti qidalandırmaq, həyat üçün enerji», «Milan Expo 2015» sərgisi çərçivəsində qəbul olunmuş Milan Xartiyasında müəssisələrin götürdüyü öhdəliklərdən biri də budur: «Davamlı inkişaf hədəflərinə həm innovativ proseslər, məhsullar və xidmətlərdən istifadə etməklə, həm də sosial məsuliyyət qaydalarını qəbul edən və tətbiq edən müəssisələr yolu ilə töhfə vermək».[3]

Sosial müəssisələrin davamlı inkişafın təmin olunmasında roluna nəzər yetirməzdən əvvəl davamlı inkişafla sahibkarlıq arasındakı əlaqə bir neçə baxımdan nəzərdən keçirilə bilər: ekosahibkarlıq, sosial sahibkarlıq, institusional sahibkarlıq və müəssisələrin davamlılığı. Ekosahibkarlıq ətraf mühit problemlərini həll etmək vasitəsilə gəlir əldə etməkdir.[4] Sosial sahibkarlıq sosial problemləri həll etməyə və cəmiyyət üçün dəyər yaratmağa yardım edir. İnstitusional sahibkarlıq tənzimləyici, sosial və bazar institutlarının dəyişdirilməsinə kömək

---

[1] Yenə orada, s. 7

[2] Christian Seelos, Johanna Mair. Sustainable development: how social entrepreneurs make it happen. University of Navarra, Business School, 2005, s. 3 http://www.iese.edu/research/pdfs/DI-0611-E.pdf (27.07. 2015)

[3] The Milan Charter, s. 6 http://carta.milano.it/wp-content/uploads/2015/04/English_version_Milan_Charter.pdf (28.07.2015)

[4] Shilpi Saxena, Social entrepreneurship in sustainable development: the role of social entrepreneurs in modelling today's practice of sustainable development, s. 4-5 http://tmu.ac.in/gallery/viewpointsdcip2013/pdf/track2/T-210.pdf (28.07. 2015)

edir. Bütün bunlar isə davamlı inkişafın alt sistemləri kimi uğurlu biznesin reallaşdırılması vasitəsilə sosial və ətraf mühit problemlərinin həllinə yardım edir.[1] Sahibkarlıqdan fərqli olaraq, sosial sahibkarlıq müəssisələrinin davamlılığı üç ölçülüdür. Belə ki, o, iqtisadi, ekoloji və sosial məqsədlər güdür. Lakin sosial təşəbbüskarlıq iki ölçülüdür və əsasən iqtisadi gəlirlə maliyyələşən sosial məqsədlər güdür.[2] Bununla yanaşı sosial sahibkarlığı digər müəssisələrdən fərqləndirən əsas cəhət onun sosial dəyər yaratmağa istiqamətlənməsidir.[3] Sosial sahibkarı digər kateqoriya sahibkardan fərqləndirən cəhətlər Cədvəl 1-də göstərilmişdir.[4]

***Cədvəl 1.*** Sosial sahibkarı ***digər kateqoriya sahibkardan fərqləndirən cəhətlər***

| SAHİBKAR | SOSİAL SAHİBKAR |
|---|---|
| Yeni tələbatlara diqqət yetirirlər. | Yeni yanaşmalar vasitəsilə uzunmüddətli məqsədlərə daha effektiv şəkildə xidmət etməyə meyillidirlər. |
| Pay sahibləri və ya öz adlarından riskə gedirlər. | Pay sahibləri adından riskə gedirlər. |
| Biznes / müəssisə qurmağa | Dəyişiklik yaratmağa çalışırlar. |

---

[1] Yenə orada, s. 7
[2] Julia Katharina Binder, Frank-Martin Belz. Sustainable Entrepreneurship: What It Is. Technische Universität München, s. 6 https://noppa.aalto.fi/noppa/kurssi/21e18000/materiaali/21E18000_binder___belz.pdf (27.07.2015)
[3] Surinder Batra, Sustainable entrepreneurship and knowledge based development, 11th International Entrepreneurship Forum Kuala Lumpur, Malaysia, 3-6 September, 2012, s. 10 https://www.essex.ac.uk/conferences/ief/11th/1-SUSTAINABLE%20ENTREPRENEURSHIP.pdf (27.07. 2015)
[4] Mahmut Özdevecioğlu, Ayşe Cingöz, Sosyal girişimcilik ve sosyal girişimciler: teorik çerçeve, Erciyes Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, Sayı: 32, Ocak-Haziran 2009, s.91 http://iibf.erciyes.edu.tr/dergi/sayi32/005%20mahmut%20ozdevecioglu.pdf (29.07.2015)

| | |
|---|---|
| çalışırlar. | |
| Sahibkarı motivasiya edən əsas faktor yeni bir iş qurmaq, öz işinə başlamaq və mənfəət əldə etmək düşüncəsidir. | Əsas məqsədləri mənfəətdən çox sosial dəyişiklik və öz müştəri qrupunun inkişafıdır. |
| Sahibkarların risk seçimi pul və hörmət qazanmağa əsaslanır. | Sosial sahibkarlar vətəndaş cəmiyyətinin ehtiyacları üçün məsuliyyət götürən və riskə gedən şəxslərdir. |
| Əsas məqsədi qazancdır. | Mənfəət məqsədli fəaliyyətlərdə də iştirak edə bilərlər, lakin qazancı məqsədlərinə çatdıracaq bir vasitə olaraq qəbul edirlər. |

1987-ci ildə Ümumdünya İqtisadi İnkişaf Komissiyası davamlı inkişaf anlayışına «gələcək nəsillərin öz tələbatlarını qarşılamasının qarşısını almadan çağdaş nəsillərin tələbatlarını qarşılayan inkişaf» kimi tərif vermişdir. Şəkil 1 tələbatların üç müxtəlif kateqoriyasını göstərir: fərdin tələbatları, icmanın və ya cəmiyyətin tələbatları, gələcək nəsillərin tələbatları. Bu üç kateqoriya bir-birindən fərqlənsə də, onlar insan təşkilatlarının iki əsas formasını təmsil edir: fərdlər və fərdlərin kollektivi. Sosial sahibkarlar hər üç qrup üçün məhsullar və xidmət təklif edənlər kimi qəbul edilir. Sosial müəssisələr fərdlərin əsas sosial tələbatlarını, cəmiyyətlərin struktur və dayanıqlı icmalar yaratmaq potensialı tələbatlarını və gələcək nəsillərin öz arzularını gerçəkləşdirmək məqsədilə seçimlərini maksimallaşdırmaq üçün minimal məhdudiyyətləri (məsələn, təmizlənməsi külli miqdarda investisiya tələb edən çirkli ətraf mühit) miras almaq tələbatlarını qarşılayır.[1]

[1] Christian Seelos, Johanna Mair. Social entrepreneurship: the contribution of individual entrepreneurs to sustainable development. University of Navarra, Business School, 2004, s. 10 http://www.iese.edu/research/pdfs/DI-0553-E.pdf (24.07. 2015)




***Şəkil 1.***

**Fərdlərin əsas tələbatları.** Ümumi qəbul olunmuş fikir bundan ibarətdir ki, yoxsulların tələbatlarını qarşılamadan davamlı inkişafa nail olmaq mümkün olmayacaq. Buna görə də sosial müəssisələr yoxsulların əsas problemlərinin həll edilməsində və onlara yaşamaq üçün mübarizə apardıqları yox, insan kimi potensiallarını nümayiş etdirdikləri həyat qurmağa yardım edilməsində mühüm rol oynaya bilərlər.[1]

**İcma və cəmiyyətlərdə əlverişli struktur tələbatları.** İkinci səviyyədə tələbatlar cəmiyyətlər və icmalar üçün əlverişli struktur təmin etmək və məhdud resursları ədalətli şəkildə bölüşdürməkdir. Bu, fərdlərə maraqlarına uyğun hərəkət etmək və kollektivə strukturları və resursları özləri və başqaları üçün qorumaq və təkmilləşdirmək imkanı verir. Dayanıqlı cəmiyyətdə qlobal miqyasda insanların əsas ehtiyaclarını qarşılamaq üçün resurslardan ədalətli və effektiv şəkildə istifadə olunur. İqtisadi inkişafın əsasında insan hüquqlarını qoruyan, resursları məsuliyyətli şəkildə bölüşdürən icmalar və cəmiyyətlər durur. Bundan əlavə, cəmiyyət öz üzvlərinin əsas tələbatlarını qarşılamağa qadir

[1] Yenə orada, s. 11

olan strukturların formalaşdrılmasında mühüm rol oynayır. İnkişaf etmiş cəmiyyətlərdə sosial müdafiə və rifah sistemləri bu strukturları təmin edir, lakin inkişaf etməkdə olan ölkələrin hökumətləri əksər hallarda nəinki gələcək nəsillərin, hətta çağdaş nəsillərin də əsas tələbatlarını qarşılamır.[1]

**Gələcək nəsillərin tələbatları.** Gələcək nəsillərin mücərrəd olsa da, cari tələbatları budur ki, biz onların adından və onların maraqlarına uyğun hərəkət edək. Biz gələcək tələbatların konkret xüsusiyyətlərini bilmədiyimizdən sosial müəssisələr zamanla meydana çıxan sosial ehtiyacları qarşılayacaq çevik və dinamik model ola bilər. Təbii ki, gələcək nəsillərin öz seçimlərini etməyə ehtiyacları olacaq. Buna görə də davamlı inkişaf konsepsiyası bizim məhdudiyyətləri artırmayan və gələcək nəsillərin seçim imkanlarını məhdudlaşdırmayan şəkildə hərəkət etməyimizi nəzərdə tutur. Ciddi ətraf mühit və sosial problemləri miras qoymaq bu məqsədə xidmət etmir. Ətraf mühitin deqradasiyası iqtisadi inkişaf üçün görülən tədbirlərin tərkib hissəsi deyil. Bunun nəticələri uzunmüddətli xarakter daşıyır və geniş şəkildə yayılır. Ətraf mühit sosial varlıq kimi paylaşılan ümumi mülkiyyətdir. Nəticə etibarilə, cəmiyyət və gələcək nəsillər üçün ətraf mühiti qorumaq naminə səlahiyyətli orqanlar tərəfindən qanunvericiliyin tətbiq olunması zəruridir. Bu, sosial sahibkarlar üçün belə qanunvericiliyin qəbul olunmasına yardım etməyə imkanlar açır.[2]

Davamlı inkişafın təmin olunması naminə Minilliyin İnkişaf Məqsədləri məhdud sayda prioritet məsələləri nəzərdə tutmur. Bu məqsədlərin əsasında kiçik miqyaslı yerli cəhdlərin öhdəsindən gələ biləcəyi problemlər və tələbatlar durur. Sahibkarların innovativ və yaradıcı qüvvələrinin bu cür tələbatları qarşılaması ilə bağlı bir sıra nümunələr vardır. Bunlar onu göstərir ki, sosial sahibkarlıq davamlı inkişafa töhfə verən mövcud cəhdlərlə yanaşı qəbul edilə bilər. Üç əsas

---

[1] Yenə orada, s. 12
[2] Yenə orada, s. 13

qrupun davamlı inkişafa nail olmaq üçün mühüm töhfələr verməsi gözlənilir:[1]

1) Hökumətlər, qeyri-hökumət təşkilatları və beynəlxalq təşkilatlar. Bunlar insan və əmək hüquqlarının, ətraf mühitin qorunması üçün hüquqi strukturlar tətbiq etmək kimi çoxsaylı vasitələrdən istifadə edərək geniş siyasət sahələrini əhatə edir.
2) Korporativ sosial məsuliyyət. Avropa Komissiyası korporativ sosial məsuliyyətə «davamlı inkişafa biznesin töhfəsi» kimi tərif vermişdir.
3) Sosial sahibkarlıq. Sosial sahibkarlığa «fərdi sahibkarların davamlı inkişafa töhfəsi kimi» tərif vermək olar.

İlk dəfə 1980-ci illərdə İtaliyada meydana çıxan sosial sahibkarlıq anlayışı 1990-cı illərin ikinci yarısından Avropanın qalan ərazilərinə yayıldı. ABŞ-da bu fenomenin tarixi 1990-cı illərə gedib çıxır.[2] 1990-cı illərin ikinci yarısından sonra sosial sahibkarlıq anlayışı akademik dairələrin marağını cəlb etməyə başladı. Son illər sosial sahibkarlığın tədqiqatçılar arasında populyarlıq qazanmasına və bu sahədə bir sıra məqalələrin dərc olunmasına baxmayaraq, sosial sahibkarlıq anlayışının vahid tərifi yoxdur. Bir sıra ziddiyyətlərə baxmayaraq, əksər tədqiqatçılar sosial sahibkarlığın əsas missiyasının sosial missiya olduğunu qeyd edirlər. Nəticə etibarilə, sosial müəssisələrin əsas məqsədi sosial təsirə malik və cəmiyyətə fayda verən məhsullar və xidmətlər formasında sosial dəyər yaratmaqdır. Bir çox sosial müəssisələr gəlir əldə etsələr də, sosial sahibkarlar bu gəliri sosial missiya üçün yenidən investisiya kimi istifadə edirlər. Bəzi ədəbiyyatlarda sosial müəssisələrin qeyri-kommersiya, kommersiya və hibrid formaları olduğu

---

[1] Christian Seelos, Johanna Mair. Social entrepreneurship: the contribution of individual entrepreneurs to sustainable development. University of Navarra, Business School, 2004, s. 6-7 http://www.iese.edu/research/pdfs/DI-0553-E.pdf (24.07. 2015)

[2] Amina Omrane, Social entrepreneurship and sustainable development. The role of business models, 2013, s. 4 http://ssrn.com/abstract=2232438 (29.07.2015)

göstərilsə də, tədqiqatçılar əsasən onu qeyri-kommersiya sektoruna aid edirlər.[1]

Ehtiyacı olan şəxslərə ianə verməkdən əlavə daimi və sistematik ictimai dəyişikliyə yönəlmiş sosial sahibkarlıq 1980-ci illərdən etibarən iki fərqli məktəb vasitəsilə inkişaf etmişdir: «Sosial innovasiya» və «Sosial müəssisə».[2]

Sosial sahibkarlıq və sosial innovasiya eyni mənanı daşımır, ancaq sosial sahibkarlığın mövcud olmadığı bir ölkədə sosial innovasiyadan bəhs etmək real deyil. Sosial innovasiya məhsul, xidmət, proses, marketinq və təşkilatı kimi digər innovasiya növlərindən müstəqil olaraq düşünülməməlidir. Bu cür innovasiya fəaliyyətləri olmadan sosial inkişaf və dəyişiklik də düşünülə bilməz. Buna görə də həm firmaların bazar strategiyaları və rəqabəti, həm də innovasiya fəaliyyətinin sosial təsir ölçüsü nəzərə alındığında sosial innovasiya daha böyük əhəmiyyət qazanır. Sosial sahibkarlıq ortaya çıxan fikirlərin sosial dəyişiklik və dəyər yaratması üçün təşkilatlar səviyyəsinə enməsidir. Dünyada bununla əlaqədar başladılan təşəbbüslər 2000-ci illərin əvvəllərində sürət qazandı. Sosial sahibkarın vəzifəsi, cəmiyyətdə bir problem olduqda bunun fərqinə vararaq lazımi həll yolları tapmaqdır. Sosial sahibkar problemin nə olduğunu müəyyən edir, cəmiyyəti yeni sıçrayışlara razı salır və sistemi dəyişdirərək problemin aradan qaldırılmasını təmin edir. Sosial sahibkarlar yalnız balıq vermək və ya balıq tutmağı öyrətməklə kifayətlənmir, balıq sənayesində bir inqilab baş verənədək yorulmadan çalışırlar. Həyata keçirilən işlərin həcmi dəyişə bilər, amma hər kəsin sosial məsuliyyətdən üzərinə götürəcəyi və ba-

---

[1] Julia Katharina Binder, Frank-Martin Belz. Sustainable Entrepreneurship: What It Is. Technische Universität München, s. 11-13 https://noppa.aalto.fi/noppa/kurssi/21e18000/materiaali/21E18000_binder___belz.pdf (27. 07.2015)

[2] Selim Güven, Neden Sosyal Girişimcilik..., Değişim için Sosyal Girişim – Optimist Girişim İnovasyon Yönetim dergisinin eki, s.6 http://www.anadoluvakfi.org.tr/Optimist-Ashoka-Ek-26-Kasim-2013.pdf (24.07.2015)

cara biləcəyi işlər olduğu da bir gerçəkdir. Ən əhəmiyyətli məqam cəmiyyətin quruluşuna xas innovativ həll yolları tapmaqdır.[1]

Yuxarıda qeyd olunanlardan fərqli olaraq sosial müəssisələr hökumət və ya ticarət sektorunun nail ola bilmədiyi sosial ehtiyacları ödəmək məqsədi daşıyır və sosial müəssisənin sahibi olmur onun sahibi icmadır. Kapitalist bazar iqtisadiyyatından fərqli olaraq, sosial müəssisələr sosial həmrəyliyə üstünlük verir. Davamlı yolla insanların əsas tələbatlarını ödəmək vasitəsilə sosial dəyişiklik məqsədi daşıyan sosial müəssisələr davamlı inkişafın aparıcı qüvvəsi ola bilər.[2]

Gregori Dis 1998-ci ildə nəşr olunan məşhur «The Meaning of Social Entrepreneurship» məqaləsində sosial işgüzarlığın aşağıdakı xüsusiyyətlərini qeyd etmişdir:[3]

- Sosial dəyər yaratmaq və inkişaf etdirmək üçün bir missiya formalaşdırmaq,
- Bu missiyaya xidmət edəcək yeni imkanlar tapmaq və daim təqib etmək,
- Davamlı bir innovasiya, uyğunlaşdırma və öyrənmə prosesinə qoşulmaq,
- Mövcud resurslar ilə kifayətlənməyərək həll yolları axtarmaq, cəsur davranmaq,
- Bütün maraqlı tərəflərə qarşı və əldə edilən nəticələrlə bağlı açıq bir hesabatlılıq nümayiş etdirmək.

UNICEF-in «Adolescents and Civil Engagement: Social Entrepreneurship and Young People, 2007» (Yeniyetmələr və vətəndaş iştirakı: Sosial işgüzarlıq və gənc əhali, 2007) adlı nəşrində sosial sahib-

---

[1] Mustafa Oğuz, "Sosyal Girişimcilik" Nedir? http://www.siviltoplumakademisi.org.tr/index.php?option=com_content&id=573:sosyal-girisimcilik-nedir&Itemid=113 (23.07.2015)

[2] Amina Omrane, Social entrepreneurship and sustainable development. The role of business models, 2013, s. 5-6 http://ssrn.com/abstract=2232438 (29.07.2015)

[3] Selim Güven, Neden Sosyal Girişimcilik..., Değişim için Sosyal Girişim – Optimist Girişim İnovasyon Yönetim dergisinin eki, s.6 http://www.anadoluvakfi.org.tr/Optimist-Ashoka-Ek-26-Kasim-2013.pdf (24.07.2015)

karın xüsusiyyətləri qeyd olunmuşdur: innovativ, maneələr qarşısında qorxmayan, bacarıqlı, tənqidə açıq və özünü inkişaf etdirməyə meyilli, özünü missiyasına həsr edən bir lider. Müvəffəqiyyətli yeni nəsil sahibkarlar, xüsusilə müəyyən bir yanaşma və ya plana bağlı qalmaqdan çox diqqətlərini bir hədəfə yönəltdiklərindən çatışmazlıq və səhvlərini düzəltmə məsələsində əvvəlki nəsillərə nisbətən daha müvəffəqiyyətlidirlər. Bu gün dünyada sosial sahibkarlığın bir çox müvəffəqiyyətli nümunəsi ictimai resurs və qabiliyyətlərin yetərsiz olduğu ictimai problemlərə kökdən və davamlı həll yolları təklif edir. Sosial sahibkarlığı əldə olunan sosial dəyər mənasında xeyriyyəçilik və ya sosial məsuliyyət fəaliyyətlərindən fərqləndirən ən əhəmiyyətli xüsusiyyətləri daimi və maliyyə baxımdan davamlı həll yolları tapa bilən bir iş / iş modeli olmasıdır.[1]

Cəmiyyətin inkişafı yuxarıdan aşağıya təmin edilə bilməz. Sosial müəssisənin məqsədi davamlılığı sosial, etik, ekoloji və iqtisadi aspektdən təmin etməkdir. Missiya və dəyərlər bütün işlərin mərkəzində yer alır. Model hərtərəfli olduğundan hər kəs mənfəət qazanır. Bu cür müvəffəqiyyət həm ticari, həm də sosial xarakter daşıyır.[2]

Yoxsulluq müxtəlif cəmiyyətlərdə tarixən müşahidə olunmuşdur və bu halın insanların müxtəlif toplumları arasında gələcəkdə də təzahür etməsi ehtimalı çox yüksəkdir. Əhalinin sayının çoxalması, adambaşı istehlakın yüksəlməsi və eyni zamanda bu sahədə müşahidə edilən kəskin qeyri-bərabərlik yoxsulluğun artmasını törədən amillərdəndir. Hər hansı ölkə, ərazi və yaxud ölkədaxili əhali qruplarında yoxsulluğun əlamətləri müəyyən edilərsə, həmin vəziyyətdə adekvat optimal idarəetmə qərarları qəbul olunmalı və bu istiqamətdə çevik fəaliyyət

[1] Yenə orada, s. 6
[2] Sosyal Girişimcilik: Sosyal İçerme ve Sürdürülebilir Toplumsal Gelişme Olanakları Konferansı'nın (İstanbul, Türkiye, 24.06.2014) Raporu, s. 3 http://www.tacso.org/doc/tr20150109_p2p_report.pdf (23.07.2015)

həyata keçirilməlidir.[1] İqtisadi inkişaf yoxsulluğun azaldılması və Minilliyin İnkişaf Məqsədlərinə nail olunmasında həlledici hesab olunur. Lakin yardımların, xarici investisiyaların və iqtisadi inkişafa yönəlmiş islahatların 30 illik təcrübəsi əksər hallarda uğursuzluğa uğradı.[2] Davamlı inkişafa resursların təmin olunması və mərkəzdən idarə edilməsi vasitəsilə nail olmaq mümkün deyil. Zəruri şərt ilk növbədə həll yollarının tapılmasına yeni yanaşma və problemlər yaradan sistemlərin dəyişdirilməsidir. Bu, sosial müəssisələr fenomeninin əsasıdır – əhalinin yaşayışını və yoxsulluq yaradan sistemləri dəyişdirmək.[3] Dünyadakı sosial problemlər istiqamətində çalışan sosial müəssisələr Minilliyin İnkişaf Məqsədləri istiqamətində yenilikçi təşkilatlar qurub idarə etdiyi və bu sahələrdə əhəmiyyətli nailiyyətlər əldə etdiyi müşahidə olunur. Əslində sosial müəssisələrin quruluş hədəflərinin əsasında Minilliyin İnkişaf Məqsədlərində ifadə edilən sosial problemlər var. Sosial təşəbbüskarlar yoxsulların mövcud bazarlara çıxmasını təmin edərək əmtəə və xidmətlərin səmərəli bir şəkildə istehsal olunması və paylanmasına səbəbkar olurlar. Məsələn, Banqladeşdə 1972-ci ildə qurulmuş BRAC'ın (Banqladeş Reabilitasiyaya Dəstək Komitəsi) yoxsulluqla mübarizədə yenilikçi «kənd inkişafı proqramları» arasında kənd təsərrüfatı, balıqçılıq, kooperativlər, yerli əl sənətləri, yetkin şəxslərin savadlılığı, səhiyyə və ailə planlaşdırılması, qadınlar üçün peşə təhsili və icma mərkəzlərinin inşası qeyd oluna bilər. Bütün bunların sayəsində icmanın inkişafı mümkün olmuşdur.[4] «Planeti qidalandırmaq, həyat üçün enerji», «Milan Expo 2015» sərgisi çərçivəsində qəbul olunmuş

---

[1] Ələkbərov U. Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları. Bakı, 2013. s.110-111

[2] Christian Seelos, Johanna Mair. Sustainable development: how social entrepreneurs make it happen. University of Navarra, Business School, 2005, s. 4 http://www.iese.edu/research/pdfs/DI-0611-E.pdf (27.07. 2015)

[3] Yenə orada, s. 5

[4] Burcu Kümbül Güler, Yoksullukla mücadelede sosyal girişimcilik: Ashoka üyelerinden sosyal yenilikçi örnek uygulamalar. Dokuz Eylül Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi. Cilt: 13, Sayı: 3, 2011, s. 89-90. http://www.sbe.deu.edu.tr/dergi/cilt13.say%C4%B13/11%20GULER.pdf (27.07. 2015)

Milan Xartiyasında gələcək qidalanma problemlərinə qarşı davamlı mübarizə strategiyası üçün sosial, mədəni, iqtisadi və ekoloji problemləri nəzərə alan və bütün sosial və institusional aktorların iştirak etdiyi sistemli yanaşmanın zəruri olduğu qəbul olunmuşdur.[1]

Davamlı insan inkişafı konsepsiyasına görə, cəmiyyətin hər bir üzvünə onun fərdi qabiliyyətlərinin üzə çıxarılması və həyata keçirilməsi üçün əlverişli şərait yaradılmalıdır.[2] Qadınlar davamlı iqtisadi inkişaf ilə balanslı sosial inkişaf üçün bəşəri sərmayənin yarısını təşkil edirlər. Sürətlə artan rəqabət şəraiti və gündən-günə inkişaf edən iqtisadiyyatda innovativ fikirlərə əsaslanan qadın sahibkarlığı yeni iş sahələrinin və yeni məşğulluq imkanlarının yaradılması və ölkə iqtisadiyyatına əlavə dəyər təmin edilməsi baxımından çox əhəmiyyətlidir. Qadın sahibkarların həm özləri, həm də məşğulluğa cəlb etdikləri şəxslər üçün iş yerləri yaratmaları və iş həyatında daha fəal olmaları qadınların cəmiyyətdəki mövqelərinin gücləndirməsinə, cəmiyyətin inkişaf səviyyəsinin yüksəlməsinə və gəlirlərin bölüşdürülməsindəki ədalətsizliyin qarşısını almağa mühüm töhfələr verir.[3] Kənd yerlərində yaşayan qadınların iqtisadi sahədə səlahiyyətlərinin genişləndirilməsi və sosial həyatda iştirakı yoxsulluq, aclıq və ərzaq çatışmazlığı hallarını aradan qaldırmaq və davamlı inkişafa nail olmaq üçün göstərilən qlobal səviyyəli cəhdlərdə mühüm rol oynayır. Qadınlar, dünyada kənd təsərrüfatındakı işçi qüvvəsinin böyük bir hissəsini (43 faiz) təşkil edir. Dünya ərzaq istehsalının yarısı qadınların üzərinə düşür və əksər inkişaf etməkdə olan ölkələrdə onlar ərzağın 60 və 80 faizini is-

---

[1] The Milan Charter, s. 4 http://carta.milano.it/wp-content/uploads/2015/04/English_version_Milan_Charter.pdf (28.07.2015)

[2] Ələkbərov U. Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları. Bakı, 2013, s.95

[3] Sürdürülebilir Kalkınma İçin Girişimcilik ve İnovasyonda Kadın Konferansı, http://www.aile.gov.tr/haberler/surdurulebilir-kalkinma-icin-girisimcilik-ve-inovasyonda-kadin-konferansi (23.07.2015)

tehsal edirlər.[1] Sosial müəssisələrin ölkə iqtisadiyyatına və davamlı inkişafa verdiyi faydalarla yanaşı, qadınlar baxımından da maliyyə mənbələrinə giriş imkanı yaratması, yaradıcılıq şəraiti təmin etməsi və xüsusilə də innovativliyi təşviq etməsi son dərəcə əhəmiyyətlidir. İnkişafın mühüm bir komponenti olduğundan qadın sosial təşəbbüskarlığının təşviq edilməsi və dəstəklənməsinə diqqət yetirilməlidir. Gələcək nəsilləri də nəzərə alaraq resursların yenidən təşkil edilməsini təmin edən yeni sosial işgüzarlıq prosesində qadın bütün qabiliyyətləri və yaradıcı gücü ilə töhfə verəcək qabiliyyət, cəsarət və gücə malikdir. Qadınların innovativ xüsusiyyətlərindən faydalanmağa əsaslanaraq, yalnız hər iki cinsin nümayəndələri birlikdə fəaliyyət göstərdikdə sosial və davamlı inkişafa nail oluna bilər.[2]




***Şəkil 2. Minilliyin İnkişaf Məqsədlərinin 18 hədəfinə fayda verən Şvab Fondunun sosial müəssisələrinin sayı.***

---

[1] Azərbaycanda qadın sahibkarların maliyyə resurslarına çıxış məhdudiyyəti və potensial həlli yolları, s. 1 http://amfa.az/upload2/nicat/3a726ce0b4f53914f0687cbed71b1ea9.docx (28.07.2015)

[2] Sürdürülebilir Kalkınma İçin Girişimcilik ve İnovasyonda Kadın Konferansı (Ankara / 24 Ekim 2014) http://ankaraka.org.tr/tr/print.asp?id=2270 (23.07.2015)

Şəkil 2-də Şvab Fonduna daxil olan 74 sosial müəssisədən 48-nin Minilliyin İnkişaf Məqsədlərinə birbaşa fayda verdiyi göstərilir. Digər təşəbbüslər Minilliyin İnkişaf Məqsədlərinə birbaşa fayda verməsələr də, Minillik Bəyannaməsində qeyd olunmuş minatəmizləmə və s. kimi BMT-nin digər məqsədlərinə fayda vermişdirlər.[1]

Sosial müəssisələri ənənəvi biznesdən fərqləndirən onların missiyasının tamlığıdır. Çünki cəmiyyət, iqtisadiyyat və ətraf mühit icmanın bir-biri ilə əlaqəsi olmayan hissələri kimi qəbul olunduqda, icmanın problemlərinə də bir-birindən ayrı məsələlər kimi yanaşılır. Tam olmayan yanaşmanın mənfi cəhətləri aşağıdakılardır:[2]

- Bir problemin həlli digər problemi daha da pisləşdirə bilər. Məsələn, sərfəli ev tikmək yaxşıdır, lakin bu ev iş yerlərindən uzaq ərazidə tikilirsə, bu, tıxacların artması və ətraf mühitin çirklənməsi ilə nəticələnir.
- Tam olmayan yanaşmalar uzunmüddətli nəticələri nəzərə almayaraq qısamüddətli faydalara əsaslanır. Məsələn, zərərverici həşəratlar üçün dərman vasitələri müəyyən müddət yaxşı həll yolu olsa da, uzunmüddətli nəticələri dağıdıcı ola bilər.

Sosial müəssisələr iqtisadiyyat, ətraf mühit və cəmiyyət arasındakı əlaqələri nəzərə alaraq icmanın yaşayış səviyyəsini yaxşılaşdırır. Lakin bu əlaqələrin möhkəmliyi həmişə eyni dərəcədə olmur. Bəzilərində bu əlaqələr Şəkil 3-dəki, bəzilərində isə Şəkil 4-dəki kimidir. Şəkil 3 ekoloji məhdudiyyətləri insanların, bazarların, siyasətlərin və inkişafın fəaliyyət göstərdiyi çərçivədə ya az nəzərə alır, ya da nəzərə almır.

---

[1] Christian Seelos, Johanna Mair. Sustainable development: how social entrepreneurs make it happen. University of Navarra, Business School, 2005, s. 11 http://www.iese.edu/research/pdfs/DI-0611-E.pdf (27.07. 2015)

[2] Fisseha Tessema, The Contribution of Social Entrepreneurship in making Sustainable Development happen in Africa, 2007, s. 66 http://www.studentcorner.eu/pubs/master/papers/master2007_007.pdf (28.07.2015)




***Şəkil 3. Zəif davamlılıq***




***Şəkil 4. Möhkəm davamlılıq***

Şəkil 4 isə davamlı inkişafa fayda verən üç sistemin bir-birindən asılılığını təsvir edir. O, təmin olunması biofiziki sistemdən asılı olan sosial ehtiyaclara uyğun fəaliyyətlər çərçivəsində iqtisadiyyatın mövcudluğunu göstərir. Burada iqtisadiyyat iqtisadi maraqlardan başqa, həm də yaşayış maraqları güdən cəmiyyətin alt çoxluğu kimi qəbul edilir. Bu strategiya yaşayış ehtiyaclarını qarşılamağa çalışan insana və iqtisadi fəaliyyətlərə planetimizin təbii sistemi tərəfindən tətbiq olunan məhdudiyyətləri nəzərə alır. Sistemin hər üç hissəsini və bütövlükdə sistemin özünü qorumaq üçün sosial müəssisələr 2-ci modelə uyğun olaraq fəaliyyət göstərməlidirlər.[1]

Beləliklə, sosial müəssisələrin inkişafının təmin edilməsində rolu aşağıdakılardan ibarətdir:

1. İqtisadi inkişaf: Sosial sahibkarlığın meydana gətirdiyi əsas və ən əhəmiyyətli iqtisadi dəyər məşğulluqdur. Müxtəlif hesablamalara görə, sosial sahibkarlıq sektorunda işləyənlərin faizi (ümumi məşğulluğa nisbətən) 1 ilə 7 arasında dəyişir. Digər əhəmiyyətli töhfə, sosial müəssisələrin cəmiyyətdə işsizliklə üzləşən əlillər və evsizlər kimi vətəndaşların məşğulluğunu təmin etməsidir.

2. İnnovasiya / yeni məhsul və xidmətlər: Sosial müəssisələr cəmiyyət üçün əhəmiyyət kəsb edən sosial və iqtisadi inkişaf sahələrində yeni məhsul və xidmətlər yarada bilir. AIDS, ruhi xəstəliklər, aşağı təhsil səviyyəsi, cinayət, narkotikdən istifadə kimi sahələrdə bu tip müəssisələrin innovativ məhsul və xidmətlər ortaya qoya bildikləri diqqəti cəlb edir. Bu tip işlər dövlət sektoruna da transfer edilə bilər. Məsələn, braziliyalı sosial sahibkar Veronica Khosa, AIDS xəstələri üçün evdə qulluq modeli formalaşdırmış, bu model Braziliya hökumətinin səhiyyə siyasətində dəyişikliklərə səbəb olmuşdur[2].

---

[1] Yenə orada, s. 66-68

[2] Mustafa Oğuz, "Sosyal Girişimcilik" Nedir? http://www.siviltoplumakademisi.org.tr/index.php?option=com_content&id=573:sosyal-girisimcilik-nedir&Itemid=113 (23.07.2015)

3. Sosial sərmayə: Sosial sərmayə sosial sahibkarlığın iqtisadi sərmayədən kənarda meydana gətirdiyi ən əhəmiyyətli dəyərdir. Sosial sərmayəni yarada bilən ən mühüm iqtisadiyyatlar arasında Almaniya və Yaponiya iqtisadiyyatları göstərilir. Bu sahədə qazanılanların da sənayenin inkişafı və innovasiya üçün əhəmiyyətli rolu olduğu qəbul edilir. Dünya Bankı da sosial sərmayənin kasıblıq səviyyəsinin aşağı salınmasında və davamlı insan inkişafında əhəmiyyətini vurğulayır.

Bərabərliyin təşviq edilməsi: Sosial sahibkarlıq cəmiyyətin bütün ehtiyatlarının daha ədalətli şəkildə bölüşdürüldüyü struktura nail olmağa yardım edir. Məsələn, amerikalı sosial sahibkar Schramm qurduğu müəssisə ilə çox sayda aztəminatlı lisey şagirdinin ali təhsilə davam etməsini təmin etmişdir.

## 1.2. İcma səviyyəsində sosial müəssisələrdən istifadə metodları

Sosial müəssisə anlayışının yeni olmasına baxmayaraq günümüzdə bütün dünyaya geniş yayılmış və ictimaiyyət tərəfindən qəbul edilmiş bir təsisatdır. Bu təsisat qeyri-kommersiya, sosial xeyriyyəçilik və korporativ sosial məsuliyyət anlayışları ilə paralel olaraq cəmiyyətdə mövqe qazanmış bir təsisatdır. Bundan fərqli olaraq sosial sahibkarlıq anlayışı isə postsovet məkanında son 10 ildə böyük sosial təşəbbüslər kontekstində böyük təcrübə toplamışdır. Bu baxımdan qeyri-kommersiya sektoru kimi ictimaiyyətin dəstəyini qazanaraq iqtisadiyyatın bir istiqamətinə çevrilmişdir. Bu biznes bütün ölkələr üzrə yüzlərlə sosial əhəmiyyətli proqram və layihələr həyata keçirərək ictimaiyyətin rifahı kimi məqsədə çatmaq məsuliyyətini öz üzərinə götürən bir anlayışdır.

Cəmiyyətdə nüfuzu və böyük rolu olan sosial xeyriyyəçilik və ya korporativ sosial məsuliyyətlə yanaşı sosial təşəbbüskarlığın sosial problemlərin və ehtiyacların qarşılanmasında rolu getdikcə böyüyür.

Bu anlayışa və xüsusiyyətlərinə aydınlıq gətirilərkən korporativ sosial məsuliyyət və sosial xeyriyyəçilik anlayışlarından fərqlərini, eyni zamanda sosial müəssisə anlayışı və fərqini müəyyən etmək üçün sosial sahibkarlıq anlayışını, bu anlayışları birləşdirən dəyərləri də müəyyən edəcəyik. Sosial sahibkarlıq anlayışı ilə bağlı mütəxəssislərin belə bir rəyi vardır ki, bu xeyriyyəçilik anlayışı ilə eyni mənaya gəlmir. Lakin sosial sahibkarlıq anlayışı sosial xeyriyyəçilik və biznes anlayışlarının kəsişdiyi dəyərlər arasında yerləşir. Bu kəsişmə nöqtəsi yeni biznes anlayışını formalaşdırır. Bir çox mütəxəssislər sosial sahibkarlığı «yeni biznes» kimi qiymətləndirirlər.

Sosial təşəbbüskarlığın yaranmasının əsas motivlərindən biri də ictimai həyatda qeyri-hökumət təşkilatlarının rolunun artması ilə bağlıdır. Bütün dünyada-Amerika, Avropada, Afrika və Asiyada- milli hökumətlər qeyri-kommersiya və qeyri-hökumət təşkilatlarının ictimai həyatda rolunun getdikcə artdığını etiraf edirlər. Belə ki, qeyri-hökumət təşkilatları insanların sosial rifahının yüksəldilməsi üçün fəallıq nümayiş etdirirlər. Bir çox hallarda qeyri-hökumət təşkilatları öz məqsədinə nail olmaq üçün qrant və büdcə vəsaitlərindən istifadə edir. Lakin qeyri-hökumət təşkilatları müəyyən sosial layihələri həyata keçirmək üçün davamlı maliyyənin təmin edilməsi kimi problemlərlə üzləşir. Bu baxımdan qeyri-hökumət təşkilatları son dövrlərdə maliyyə diversifikasiyasını və maliyyə davamlılığını təmin etmək məqsədi ilə sosial sahibkarlığı bir maliyyə vasitəsi kimi istifadə etməkdədir.

Bununla yanaşı qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələr, xüsusi ilə Avropa Birliyi ölkələri sosial müəssisələrin qurulmasında məşğulluğun təmin edilməsi funksionallığına xüsusi əhəmiyyət verməkdədir və bu tip strukturları sosial iqtisadiyyat anlayışı ilə daha çox əlaqələndirməkdədirlər. Bu barədə Beynəlxalq Əmək Təşkilatı (İLO) daha vizual bir təsəvvür yaratmış və öz hesabatında qeyd edir: «sosial və ya həmrəylik iqtisadiyyatı elə bir anlayışdır ki, müəyyən sosial iqtisadi məqsədləri olan və həmrəyliyi gücləndirən xüsusi mal və xidmətlər istehsal edən kooperativlər, qarşılıqlı yardım cəmiyyətləri, assosia-

siyalar, fondlar və ictimai müəssisələr daxildir».[1] Bu tip strukturların əsas xüsusiyyətləri sosial həmrəylik, qərаralma prosesində kollegiallıq əsas rol oynayır. Onların əsas fəaliyyəti kollektiv dinamikanın üzərində qurulmuş, eyni zamanda idarəçilikdə müxtəlif tipdə olan maraqlı tərəfləri cəlb etməsi ilə fərqlənir. Onlar öz muxtariyyətlərini daha yüksək qiymətləndirir və fəaliyyətləri ilə bağlı iqtisadi riskləri qəbul edirlər.[2] Bu mənada sosial müəssisələr sosial iqtisadiyyat anlayışı ilə assosiasiya edilir. Bu tip təşkilatları xarakterizə edən əsas məqamlardan biri də sahibkarlıq strukturu və mülkiyyətçilik hüququ ilə bağlıdır. Bu təşkilatlarda mülkiyyətçilik hüququ investorlardan daha çox maraqlı tərəflərin üzərində olur. Maraqlı tərəflərə biz işçiləri, müştəriləri, hətta könüllüləri də daxil etmək mümkündür. Bir çox sosial müəssisələrin qurulmasında, yəni start-up mərhələsində könüllülərin xidmətləri əvəzsiz olur. Bu könüllülər bir çox sosial müəssisələrin iqtisadi dəyər yaratmasında açar rolunu oynayır.

Bütün bunları nəzərə alaraq qeyd etmək lazımdır ki, sosial müəssisə strukturları gəlirlərin bölüşdürülməsində insan faktoru və əməyin kapital üzərində yaratdığı dəyərləri nəzərə almaqdadır. Sosial müəssisələri biznes strukturlarından ayıran əsas cəhət onun məqsədi ilə bağlıdır. Gəlir əldə etmək biznes strukturları üçün məqsəd, sosial müəssisələr üçün isə məqsədə nail olmaq üçün bir vasitədir. Deyə bilərik ki, sosial sahibkarlıq sosial missiyanı özündə daşıyan biznesdir. Sosial sahibkarlıq proqramının əsas məqsədi sosial biznes vasitəsi ilə icma ehtiyaclarının və problemlərinin həllinə yeni yanaşma gətirməkdir. Sosial sahibkarlığın əsas xüsusiyyətlərindən biri sosial problemlərin həllində innovativ yanaşmaları istifadə etməkdir. Mütəxəssislər bununla bağlı daha çox məşhur 3 nümunə gətirirlər: Banqladeşdə fəaliy-

---

[1] OECD, EU & LEED, Job Creation Through the Social Economy and Social Entrepreneurship", 2013, page 16

[2] Defourny, J., Nyssens, M. (2008) *Social Enterprise in Europe: Recent Trends and Developments*, EMES Research Network, WP no. 08/01.

yət göstərən «Qramin» Bank, Hindistanda fəaliyyət göstərən «Aravind» Göz Klinikası və Misirdə fəaliyyət göstərən «Sekem» Holdinqi.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq sosial problemlərin azaldılması və həll edilməsi məqsədi ilə qurulan sosial sahibkarlıq aşağıdakı xüsusiyyətlərə malikdir:

**Sosial təsir:** Sosial sahibkarlığın məqsədi mövcud sosial problemlərin həlli və ya azaldılması istiqamətində iş apararaq davamlı, pozitiv ölçülə bilən sosial dəyişikliklərə nail olur.

**İnnovativ ideyalar:** Sosial təsiri artırmaq üçün yeni, unikal yanaşmaların tətbiq edilməsi.

**Özünümaliyyələşdirmə və maliyyə davamlılığı:** Fəaliyyətdən əldə edilən gəlir hesabına sosial problemlərin zəruri həddə qədər həll edilib başa çatmasına qədər davamlı fəaliyyət göstərmə qabiliyyətinə malik olması.

**Geniş miqyaslı (əhatəlilik) və ölçülə bilən olması:** Sosial müəsissənin fəaliyyətinin əhatə dairəsinin genişləndirməsi (milli və beynəlxalq səviyyədə) və pozitiv sosial təsirin gücünü artırmaq məqsədi ilə təcrübə və modelləri genişləndirməsi.

**Biznes yanaşması:** Sosial sahibkar bazardakı uğursuzluqları görə bilmək qabiliyyətinə malikdir. Sosial sahibkar uzunmüddətli pozitiv sosial dəyişiklikləri artırmaq üçün digər biznes strukturlarında olduğu kimi bazarda yaranan uğursuzluqlara və təhlükələrə qarşı yeni imkanlar axtarır, resursları səfərbər edir, yeni qərarlar hazırlayır.[1]

Bütün bunlardan belə nəticəyə gəlmək mümkündür ki, sosial müəssisələrin əsas əhəmiyyəti məşğulluğun təmin edilməsi və sosial cəhətdən zəif olan əhali təbəqəsinə daha ucuz mal və xidmətlərin təklif edilməsi ilə onların əlçatımlılığını təmin etməkdir. Avropa ölkələrində sosial müəssisələrin fəaliyyəti ilə bağlı hesabat hazırlanarkən belə bir nəticə əldə ediblər ki, dünya üzrə sosial müəssisələrin sayı və iq-

---

[1] An RBC Social Finance White Paper, Meaningful Business: Understanding Social Entrepreneurs, June 2014, page 5

tisadiyyatda payı artmaqda davam edir. Hətta statistika göstəriciləri onu deməyə əsas verir ki, sosial müəssisələr biznesin ən uyğun formalarından birinə çevrilməkdədir. Eyni zamanda adı çəkilən hesabat belə bir nəticəyə gəlmişdir ki, sosial müəssisələr sosial izolyasiya riski ilə üzləşmiş əhali qrupunu məşğulluq bazarına daxil etməsinə xüsusi töhfə verməklə sosial gərginliyin aradan qaldırılmasına kömək etməkdədir.[1]

Bütün bunlar sosial müəssisələrin əhəmiyyətini artırmaqla yanaşı bu sahədə araşdırmaların sayını da artırmışdır. Sosial müəssisələr sahəsində aparılan konseptual və empirik araşdırmalarda indikatorlar və metodologiyalar kifayət qədərdir. Bununla bağlı aparılan statistikalar onu göstərir ki, 2009-2013-cü illərdə aparılan keyfiyyət araşdırmalarında ayrı-ayrı hadisələrin öyrənilməsi (71%), nəzəriyyələrin analizi və diskursu (8%), kantitativ araşdırmalarda isə statistikaların təsviri (41%) və korelasiyaların qurulması (15%) daha üstünlük təşkil edir. Habelə araşdırma üçün məlumatların toplanmasında müsahibələrin təşkil edilməsi (61%), ikinci mənbələrə istinad etmə (56%), anket sorğuların (11%) tətbiq edilməsi daha geniş istifadə edilmişdir. [2]

Bizim araşdırmamız baxımından sosial müəssisələrin miqyasını öyrənmək və konkret nümunələrin təhlili kimi metodlar mövzunun öyrənilməsi baxımından daha vacib məsələdir. Ölkəmizdə və postsovet məkanında bu ənənələr nisbətən yeni olduğu üçün konkret nümunələrin öyrənilməsi araşdırmamıza müəyyən fayda verəcək. Sosial müəssisələrin miqyasını öyrənmək, habelə onların funksionallığı və missiyasını anlamaq baxımından məşğulluq səviyyəsi, ÜDM və QHT-lər haqqında deskriptiv statistik məlumatların toplanaraq sosial müəssisələr arasında korrelasiyanın qurulması mövzumuz baxımından sosial müəssisələrin qurulma zərurətləri haqqında müəyyən qanunauyğunluqla-

[1] European Commission and OECD, Policy Brief on Social Entrepreneurship: Entrepreneurial Activities in Europe, 2013 year, page 16
[2] Jeremy Short, Social Entrepreneurship and Research Methods, Emerald Books, 2014 year, page 55

rın qurulması baxımından daha faydalı olacaq. Eyni zamanda bu məsələdə ölkələrin hüquqi tənzimləmələri, sosial müəssisələrin təşkilati-hüquqi formalarının təzahürlərinə də toxunmaq icma səviyyəsində dövlətin hüquqi və iqtisadi tənzimləmələrinin təsirini də araşdırmağa imkan yaradacaq.

Bütün bunlarla yanaşı bəzi hesabatlarda qeyd edilir ki, sosial müəssisələrin əhalinin məşğulluğunun təminatında töhfəsini ölçmək və bununla bağlı müqayisələr aparmaq çox çətindir. Bu ondan irəli gəlir ki, ayrı-ayrı ölkələrin iqtisadi strukturları, mədəni dəyərlə və hüquqi rejimin müxtəlifliyi xüsusi ilə beynəlxalq səviyyədə sosial müəssisələrin əmək bazarında və ümumi iqtisadiyyatda payının müqayisəli təhlilini çətinləşdirməkdədir. Bununla yanaşı Global Entrepreneurship Monitor (GEM) Təşkilatı hər ölkədə hüquqi rejimin müxtəlifliyini nəzərə alaraq 49 ölkə üzrə tədqiqat apararkən hər ölkənin spesifikliyini bilavasitə yolla, müəyyən edilmiş suallarla sosial missiyası və sosial müəssisəyə aid olan digər xüsusiyyətlərin olub- olmadığını müəyyən etmiş və bununla da müqayisə üçün müəyyən standart hazırlamışdır. Bu standartlar əsasında dünyanın bəzi ölkələri üzrə məşğulluq sahəsində sosial müəssisələrin payı ilə bağlı müqayisəli təhlil aparılmışdır. Aşağıdakı cədvəl müvafiq ölkələrin 2009-cu il üzrə məlumatları əsasında aparılmışdır. Həmin cədvəldə sosial müəssisələr iki kateqoriyaya – birincisi yenicə fəaliyyətə başlamış sosial müəssisələr və artıq qurulmuş sosial müəssisələr olaraq ikiyə bölünmüşdür.[1]

[1] Terjesen, S., J. Lepoutre, R. Justo and N. Bosma (2011) Global Entrepreneurship Monitor Report on Social Entrepreneurship.

***Cədvəl 2. Dünyanın bəzi ölkələri üzrə məşğulluq sahəsində sosial müəssisələrin payı ilə bağlı müqayisəli təhlil***

| | **Erkən mərhələdə qurulmuş sosial müəssisələr** | **Qərarlaşmış sosial müəssisələr** |
|---|---|---|
| Braziliya | 0,4 | 0 |
| Rusiya | 0,9 | 0,4 |
| Koreya | 0,8 | 0,6 |
| Almaniya | 0,7 | 0,9 |
| Cənubi Afrika | 2 | 0,3 |
| İtaliya | 1,2 | 1,3 |
| Fransa | 2,3 | 0,3 |
| Çin | 2,9 | 1,1 |
| Birləşmiş Krallıq | 2,2 | 2,1 |
| ABŞ | 4,2 | 0,8 |



Bu cədvəldən belə bir nəticəyə gəlmək mümkündür ki, ABŞ və Böyük Britaniyada sosial müəssisələrin məşğulluq bazarında payı digər ölkələrə nisbətən daha yüksəkdir. Baxmayaraq ki, bu ölkələr iqtisadi baxımdan digər ölkələrə nisbətən inkişaf etmişdir, onlar sosial müəssisələrə xüsusi əhəmiyyət verməkdədir. Gözləntilərə uyğun olaraq hesab edirdik ki, Rusiya Federasiyası və Çin Xalq Respublikasının göstəriciləri bir-birinə yaxın olacaq. Şübhəsiz bu göstəricilərə təsir edən əsas məqamlardan biri də hər bir ölkənin sosial müəssisələrin fəaliyyətini tənzimləyən hüquqi tənzimləmələrdir. Araşdırma qrupu bu faktoru neytrallaşdırmaq məqsədi ilə həmin ölkələrin sosial müəssisələrini məqsədlərinə uyğun olaraq təsnifatlaşdırmış və məsələyə daha dərin kontekstdə aydınlıq gətirmişdir. Bu məqsədlə onlar sosial müəssisələri qeyri-kommersiya, iqtisadi yönümlü qarışıq sosial müəssisələr və sosial yönümlü qarışıq sosial müəssisələr kimi təsnifatlaşdırmış və hər ölkədə onların pay bölgüsünü aparmışdır. Aşağıdakı cədvəl məhz bu bölgünü aparmışdır:[1]

***Cədvəl 3. Qeyri-kommersiya məqsədli, iqtisadi yönümlü qarışıq və sosial yönümlü qarışıq sosial müəssisələr***

| | **qeyri-kommersiya məqsədli sosial müəssisələr** | **kommersiya yönümlü qarışıq (hibrid) sosial müəssisələr** | **Sosial yönümlü qarışıq (hibrid)sosial müəssisələr** |
|---|---|---|---|
| Braziliya | 100 | 0 | 0 |
| Rusiya | 18,2 | 72,7 | 9,1 |
| Koreya | 21,4 | 50,0 | 28,6 |
| Almaniya | 21,4 | 50,0 | 28,6 |

[1] Terjesen, S., J. Lepoutre, R. Justo and N. Bosma (2011) Global Entrepreneurship Monitor Report on Social Entrepreneurship.

| | | | |
|---|---|---|---|
| Cənubi Afrika | 26,3 | 36,8 | 36,8 |
| İtaliya | 25,0 | 54,2 | 20,8 |
| Fransa | 22,2 | 37,0 | 40,7 |
| Çin | 18,6 | 67,4 | 14,0 |
| Böyük Britaniya | 42,9 | 23,8 | 33,3 |
| ABŞ | 45,1 | 27,5 | 27,5 |

Bununla bağlı Avropa Birliyi ölkələri üzrə statistik məlumatlar da onu göstərir ki, məşğulluğun və yerli inkişafın təminatında sosial müəssisələrin inkişafına xüsusi əhəmiyyət verirlər. Aşağıdakı cədvəldəki məlumatlar Avropa Birliyi ölkələrindəki mənzərəni daha ətraflı izah etməkdə və sosial müəssisələrin hansı təşkilati-hüquqi formasına üstünlük verdiyini göstərməkdədir.[1]

***Cədvəl 4. Avropa Birliyi ölkələrindəki sosial müəssisələrin təşkilati-hüquqi formaları***

| Ölkə və təşkilati hüquqi formalar | İşçilərin sayı | Ümumi məşğulluqdakı payı | Əmək haqqındakı payı |
|---|---|---|---|
| **Almaniya**<br>– kooperativlər<br>– xeyriyyə cəmiyyətləri<br>– assosiasiyalar (ictimai birliklər) | 495000<br>143000<br>1603530<br>2241530 | 6.29% | 7.04% |

[1] Terjesen, S., J. Lepoutre, R. Justo and N. Bosma (2011) Global Entrepreneurship Monitor Report on Social Entrepreneurship

| | | | |
|---|---|---|---|
| **Belçika**<br>– kooperativlər<br>– xeyriyyə cəmiyyətləri<br>– assosiasiyalar (ictimai birliklər) | 33500<br>11230<br>226280<br>271010 | 7.15% | 8.72% |
| **İspaniya**<br>– kooperativlər<br>– xeyriyyə cəmiyyətləri<br>– assosiasiyalar (ictimai birliklər) | 410700<br>21234<br>439322<br>871256 | 7.06% | 9.44% |
| **Finlandiya**<br>– kooperativlər<br>– xeyriyyə cəmiyyətləri<br>– assosiasiyalar (ictimai birliklər) | 80000<br>?<br>70000<br>150000 | 7.35% | 8.82% |
| **Fransa**<br>– kooperativlər<br>– xeyriyyə cəmiyyətləri<br>– assosiasiyalar (ictimai birliklər) | 325627<br>85000<br>1300000<br>1710627 | 7.71% | 8.88% |
| **Portuqaliya**<br>– kooperativlər<br>– xeyriyyə cəmiyyətləri<br>– assosiasiyalar (ictimai birliklər) | 45082<br>1078<br>59735<br>105893 | 2.39% | 3.34% |
| **Böyük Britaniya**<br>– kooperativlər<br>– xeyriyyə cəmiyyətləri<br>– assosiasiyalar (ictimai birliklər) | 181000<br>27500<br>1473000<br>1681500 | 6.59% | 7.62% |

| | | | |
|---|---|---|---|
| **İsveç**<br>– kooperativlər<br>– xeyriyyə cəmiyyətləri<br>– assosiasiyalar (ictimai birliklər) | 100000<br>8000<br>75000<br>183000 | 4.59% | 7.21% |
| **Cəmi** | 7214818 | 6.56% | 7.69% |

Eyni zamanda sosial müəssisələr mal və xidmətlər istehsal etdiyi üçün bir iqtisadi dəyər yaradır və sosial müəssisələrin ölkə iqtisadiyyatına da töhfəsi olur. Sosial müəssisələrin iqtisadiyyatda töhfəsini müəyyən etmək üçün ən yaxşı indikator makroiqtisadi göstəricilərlə müqayisə etməkdir. Bu baxımdan sosial müəssisələrin ölkələrin ÜDM-də payı araşdırmalarımız üçün müəyyən rol oynaya bilər. Xüsusilə bu sahədə istər Avropa Birliyi, istərsə də üzv olan ayrı-ayrı ölkələr ÜDM-da sosial müəssisələrin payı üzrə statistik məlumatlar dərc etməkdədir. Avropa Birliyinin səlahiyyətli strukturlarının statistik məlumatlarına əsasən hal-hazırda Avropa Birliyinə üzv olan ölkələrdə 2 milyona yaxın sosial müəssisə fəaliyyət göstərir ki, bunlar əmək qabiliyyətli əhalinin 6%-ni işlə təmin etməkdədir. Avropa Birliyi ölkələrində sosial müəssisələrin ÜDM-də payı 4-7% təşkil edir və 5 milyon əhali sosial müəssisələrdə işləyir. Bu o mənaya gəlir ki, həmin ölkələr sosial müəssisələri real iqtisadiyyatın bir hissəsi kimi məşğulluğun təminatındakı rolunu dəyərləndirməkdədir.[1] Yuxarıdakı cədvəldə dünyanın müxtəlif ölkələrində sosial müəssisələrin məşğulluq bazarındakı payına nəzər yetirdikdə bunu müşahidə etmək mümkündür ki, sosial müəssisələrin payı inkişaf etmiş iqtisadiyyatlarda inkişaf etməkdə olan ölkələrə nisbətən daha çoxdur. Xüsusi ilə Avropa Birliyi ölkələri tərəfindən sosial müəssisələrin inkişafı ilə bağlı hər il sahənin öyrənilməsinə dair hesabatlar hazırlaması, bununla bağlı xüsusi konsepsiyalar

---

[1] Lāsma Dobele, Aina Dobele, Economic Gains From Social Entrepreneurship Development In Latvia, Latvia University of Agriculture (Latvia), Regional Formation and Development Studies, No. 3 (14

hazırlaması onu göstərir ki, sosial müəssisələrin inkişafı ilə iqtisadiyyatın inkişaf səviyyəsi arasındakı korrelasiya (əlaqə) düz mütənasibdir. Lakin bəzi yanaşmalara görə sosial müəssisələri yaradan əsas səbəblərdən biri iqtisadi göstəricilərin aşağı olmasıdır. Yəni ki, kommersiya strukturlarının zəif olduğu yerlərdə sosial müəssisələr boşluğu doldurur. Lakin ölkələr üzrə makroiqtisadi göstəricilərlə sosial müəssisələrin iqtisadiyyatda payını müəyyən etdikdə onu müşahidə edirik ki, bu heç də belə deyil və əksinə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə sosial müəssisələr daha güclüdür. Buradan belə nəticəyə gəlmək mümkündür ki, sosial müəssisələrin inkişafı heç də iqtisadi inkişaf səviyyəsinin zəifliyindən yaranmır.

J.Kerlin qeyd edir ki, sosial sahibkarlıq dünyaya müxtəlif formalar təklif edir. Bu müxtəlifliyi sosial təbəqələşmə nəzəriyyəsi ilə izah etmək mümkündür. Belə ki, mövcud nəzəriyyə region tarixində sosial-iqtisadi vəziyyəti müəyyən edir ki, bu da sosial sahibkarlıq fəaliyyətinin zəruriliyinə və xarakteristikasına təsir etməkdədir.[1] Həm Kerlin, həm də Nikols onu nümayiş etdirir ki, sosial sahibkarlığın müxtəlif modelləri dövlət, bazar və vətəndaş cəmiyyətinin kəsişdiyi nöqtələrdə rəhbər prinsip və qanunvericiliyin rəhbərliyi altında formalaşmaqdadır. Bu baxımdan müxtəlif ölkələrdə sosial müəssisələrin inkişaf forması çox fərqlidir. Məsələn, ABŞ-da sosial müəssisələrin formalaşması dövlətin həvəssiz lakin bazarla vətəndaş cəmiyyəti strukturlarının güclü kəsişməsi fonunda və bazar güclərinin ənənəvi təzyiqi ilə formalaşmışdır. Latın Amerikası ölkələrində də sosial müəssisələr və kooperativ modelləri ABŞ-da olduğu kimi həmin kəsişmə nöqtələrində və eyni yanaşma ilə qurulmasına baxmayaraq Cənub qitəsində sosial müəssisələr vətəndaş cəmiyyəti strukturları ilə sıx əlaqəsi olmasına müqabil, dövlət və özəl sektorla əlaqəsinin nisbətən zəif inkişafı, onun yoxsulluğun azaldılması funksiyasının zəif yerinə yetirməsinə

[1], J. A. Kerlin,(Ed.). (2009).*Social enterprise: A global compariso*n. Medford, USA: Tufts University Press., page 29

səbəb olmaqdadır. Lakin Avropa ölkələrində sosial müəssisələr yerli hökumətlər və Avropa Birliyi tərəfindən ciddi dəstəklənir. Bunun sübutu kimi Avropa Birliyinin bununla bağlı xüsusi bir siyasəti olduğunu və bu siyasətin əsas məqsədinin sosial iqtisadiyyat anlayışına bağlı olaraq iqtisadi sahədə sosial müəssisələrlə kommersiya müəssisələrinə bərabər şərait yaradılmasıdır.[1] Buradan belə bir nəticəyə gəlmək mümkündür ki, sosial müəssisələrin inkişafı üçün icma (community) ənənələrinin formalaşması, habelə dövlətin dəstəyi və eyni zamanda qanunvericilik tənzimləməsi çox vacibdir. Hər üç alətin ahəngdar vəhdəti və kəsişməsi sosial müəssisələrin funksiyalarını daha effektiv həyata keçirməsinə zəmin yaradacaq.

O zaman belə bir nəticəyə gəlmək mümkündür ki, sosial müəssisələrin uğurlu inkişafının birinci şərti orada vətəndaş cəmiyyəti strukturlarının kəmiyyət və keyfiyyət baxımından inkişafından asılıdır. İlk əvvəl vətəndaş cəmiyyəti strukturları ilə sosial müəssisələrin inkişafı baxımından korrelasiyanın tapılması üçün kəmiyyət indikatorlarından istifadə etmək faydalı olardı. Bu məsələdə ilk əvvəl müxtəlif coğrafiyalarda yerləşən və müxtəlif sosial iqtisadi və siyasi inkişaf keçən dövlətlərdə QHT-lərin sayı ilə sosial müəssisələrin sayı arasında müqayisəli təhlil aparmaq faydalı olardı. Bunun üçün aşağıda qeyd edilən ölkələrdə aşağıdakı strukturda cədvəlin formalaşdırılması nəzərdə tutulur. Birinci sırada əhalinin ümumi sayı, vətəndaş cəmiyyəti strukturlarının sayı, bir QHT-yə düşən əhali sayı (əmsalı), sosial müəssisələrdəki işçilərin sayının ümumi məşğulluqdakı payı ilə bağlı məlumatlar paylaşılmaqdadır.

Bizim əsas hipotezimiz bundan ibarətdir ki, hər QHT üçün əhali sayını ifadə edən əmsal nə qədər aşağı olarsa, sosial müəssisələrin sayı daha çox olar və bu da əhalinin məşğulluq sahəsində çəkisini artırma-

---

[1] Brigitte Hoogendoorn, Chantal Hartog, Prevalence and Determinants of Social Entrepreneurship at the Macro-level, Scientific Analyses of Entrepreneurship and SME's, Zoetermer, June 2011, page 7

lıdır. Yəni QHT-lərin sayı ilə məşğulluq sahəsində düz korrelasiya olmalıdır.

***Cədvəl 5. Bəzi ölkələrdə əhalinin ümumi sayı, vətəndaş cəmiyyəti strukturlarının sayı, bir QHT-yə düşən əhali sayı (əmsalı), sosial müəssisələrdəki işçilərin sayının ümumi məşğulluqdakı payı***

| s/s | Ölkənin adı | Əhalinin sayı | QHT-lərin sayı | Hər QHT üçün əhali sayı | Sosial müəssisələrin məşğulluq sahəsində payı (faizlə) |
|---|---|---|---|---|---|
| 1 | Braziliya | 205 007 000 | 338 000 | 606,53 | 0,4 |
| 2 | Rusiya | 146,607,780 | 225 647 | 649,72 | 1,3 |
| 3 | Almaniya | 81,197,500 | 1 603 350 | 50,64 | 6,29 |
| 4 | Cənubi Afrika | 54,956,900 | 3 068 | 17912,94 | 2,3 |
| 5 | Fransa | 67,087,000 | 1300 000 | 51,61 | 7,71 |
| 6 | Çin | 1,372,490,000 | 500 000 | 2744,98 | 2,5 |
| 7 | Birləşmiş Krallıq | 64,800,000 | 1 473 000 | 43,99 | 6,59 |
| 8 | ABŞ | 321,974,000 | 1 500 000 | 214,65 | 5,00 |

Cədvəldən göründüyü kimi, ən aşağı əmsal Böyük Britaniyada olsa da sosial müəssisələrin məşğulluq sahəsindəki ən böyük pay Fransaya məxsusdur. Bununla yanaşı Avropa Birliyinə üzv olan ölkə-

lərdə bu fərqlər çox cüzidir və bu korelasiyanı pozmur. Lakin Rusiya, Braziliya və Cənubi Afrika arasında bu korrelasiyanın düzgün olmadığını müşahidə etmək mümkündür. Baxmayaraq ki, Cənubi Afrikada hər QHT üçün əhalinin orta sayı böyükdür (yəni QHT sayı azdır), Cənubi Afrikada sosial müəssisələrin məşğulluq sahəsindəki payı hər iki ölkədən böyükdür. Eyni zamanda da həmin bu korrelasiya Braziliya və Rusiya arasında da uyğunluq təşkil etmir. Belə bir nəticəyə gəlmək mümkündür ki, QHT-lərin çoxluğu heç də hər zaman sosial müəssisələrin ümumi iqtisadiyyatda payını artırmaya bilər. Bununla yanaşı belə bir təəssürat yaranmamalıdır ki, QHT-lər heç bir rol oynamır. QHT-lər eyni zamanda icma səviyyəsini müəyyən edən əsas indikator olsa da, sosial müəssisələrin yalnız QHT-lərin nəzdində deyil, eyni zamanda onların xaricində kooperativlər formasında da qurulması mümkündür.

Əsas yanaşmalardan biri də budur ki, xeyriyyə təşkilatları və kommersiya strukturları ilə müqayisədə sosial müəssisələr sosial ehtiyacların qarşılanması və ünvanlanması baxımından ən effektiv bir yoldur. Sosial ehtiyacların müəyyən edilməsində isə icma əsaslı təşkilatlar – yəni vətəndaş cəmiyyəti strukturlarının xidmətləri əvəzsizdir.[1]

Eyni zamanda icma səviyyəsində sosial müəssisələrin qurulması məsələsində maliyyələşmə və ilkin biznes üçün tələb olunan vəsa-itlərin necə əldə edilməsi də sosial müəssisələrdən istifadəni və məqsədlərə hansı keyfiyyətdə nail olacağını müəyyən edən amildir. Mütəxəssislər eyni zamanda icma səviyyəsində sosial müəssisələrin öz məqsədlərinə nail olması üçün qanunvericiliyin tənzimlənməsi və qanunvericilikdə hansı strukturların sosial müəssisələr adlandırması da əsas məsələlərdən biridir. Buna görə bu məsələdə standart göstəricilər hazırlanaraq təhlil aparmaq çox çətin məsələdir. Eyni zamanda vətəndaş cəmiyyəti strukturlarının çoxluğu ilə sosial müəssisələrin iqtisadiyyatdakı payı arasında korrelasiyanın zəif olmasının əsas səbəblərindən bi-

[1] Belinda Luke and Vien Chu, Social enterprise versus social entrepreneurship: An examination of the ‘why and ‘how’ in pursuing social change,İnternational Small Business Journal 31(7) 764–784, 2013, page 768

ri də bir çox ölkələrdə, xüsusi ilə Postsovet məkanında QHT-lərin sosial müəssisələrin imkanlarından yararlana bilməməsi ilə bağlıdır. Empirik müşahidələrlə adı keçən ölkələrdə QHT-lərin maliyyələşmə mənbəyinə nəzər yetirsək müşahidə edə bilərik ki, bu ölkələrdə vətəndaş cəmiyyəti strukturlarının əsas gəlir mənbəyi donorlardan əldə etdikləri qrantlardır. Qrant qarşılığı olmayan və maliyyə riski olmayan bir mənbə olması mövcud QHT-ləri arxayınlaşdırır və digər maliyyələşmə mənbələrinə müraciəti stimullaşdırmır. Halbuki icmalaşmanın simvolu olan vətəndaş cəmiyyəti strukturları üzvlük haqqı, dövlət sifarişləri, ianələr, qrantlar və sosial müəssisələr kimi alətlərdən istifadə edərək maliyyə davamlılığını daha güclü formada təmin edə bilərdi. Vətəndaş cəmiyyəti strukturlarında maliyyə davamlılığı gəlirlərin diversifikasiyasından və yeni gəlir mənbələrinə əlçatımlılığından asılıdır.[1] İlk baxışdan maliyyə müxtəlifliyinin təmin edilməsi elə də çətin görünmür. Məsələn, ilk ağla bu gələ bilər ki, vətəndaş cəmiyyət strukturları hər hansı bir kommersiya strukturu qurub oradan əldə etdikləri gəlirləri özlərinin xərclərinə yönəldə bilər. Lakin ümumi yanaşma bundan ibarətdir ki, vətəndaş cəmiyyəti strukturları maliyyə davamlılığının təmini üçün gəlir əldə edən müəssisələri elə yaratmalıdır ki, o həm də təşkilatın missiyasına və hədəf qrupunun ehtiyaclarına uyğun olmalıdır.[2] Dolayısı ilə bu onunla izah olunur ki, vətəndaş cəmiyyəti strukturları özlərinin gəlir gətirən müəssisələri ilə fəaliyyət göstərdiyi sahə uyğun gəlmirsə və onun hədəf qruplarının ehtiyaclarına uyğun mal və xidmətlər istehsal etmirsə bunları sosial müəssisə adlandırmaq mümkün deyil və bu təşkilatın imicinə mənfi zərbə vura bilər.

Son 10 ildə vətəndaş cəmiyyəti strukturlarında kiçik, lakin əhəmiyyətli trendlərdən biri də vətəndaş cəmiyyəti strukturlarının özləri tərəfindən yaradılan iqtisadi müəssisələr tərəfindən gələn gəlirlərin

---

[1] John Hailey, Models of INGO Sustainability: Balancing Restricted and Unrestricted Funding, International NGO Training and Research Center, November 2014, page 1

[2] Lisa M. Sontag-Padilla • Lynette Staplefoote • Kristy Gonzalez Morganti, Financial Sustainability for Nonprofit Organizations, RAND Corporation., 2012, page 9

ümumi gəlirlərdəki payının artırılmasıdır.[1] Belə bir trendin formalaşmasının əsas səbəblərindən biri budur ki, vətəndaş cəmiyyəti strukturları gün keçdikcə daha çox anlamağa başlayırlar ki, maliyyə davamlılığı təşkilatın davamlı fəaliyyəti və hədəf icmaya (təbəqəyə) kəsintisiz xidməti üçün davamlı maliyyə axını olmalıdır. Eyni zamanda təşkilatın gücünü və qabiliyyətinə təsir edən və bu əmsalı ölçən 7 element-hüquqi mühit, təşkilati struktur, maliyyə qabiliyyəti, lobbiçilik qabiliyyəti, xidmət növləri, infrastruktur, ictimai nüfuzu və reputasiyası arasında maliyyə qabiliyyəti aparıcı rol oynayır. Əslində bu elementlər bir-biri ilə əlaqəlidir. Məsələn, təşkilatın ictimai nüfuzu və reputasiyası aşağı səviyyədə olarsa, kənardan heç bir maliyyə və donor təşkilatı onun maliyyələşməsinə həvəslə yanaşmaz. Təşkilatın xidmət imkanları, lobbiçilik isə onun ictimai nüfuzu və reputasiyasına birbaşa təsir edən elementlərdir. Bu baxımdan bir çox elementlər əslində maliyyələşmə üçün zəmin yaratmaqdadır.

Bununla yanaşı vətəndaş cəmiyyəti strukturlarının özlərinə məxsus sosial müəssisələr quraraq fəaliyyətini davamlı həyata keçirməsi ilə bağlı əsas məsələ sosial müəssisənin qurulması üçün zəruri maliyyə vəsaitinin cəlb edilməsi ilə bağlıdır. Bu məsələ ilə bağlı mütəxəssislər qeyd edir ki, sosial müəssisələrin qurulması üçün investisiya imkanları müxtəlifdir. Bir çox donor və qeyri-bank maliyyə təşkilatları isə sosial cəhətdən az müdafiə olunan təbəqələrə davamlı xidmətin göstərilməsi məqsədi ilə həmin təbəqəni və icmanı əhatə edən insanlar arasında kollektiv biznesin qurulması üçün maliyyə vəsaiti ayırırlar. Azərbaycanda bununla bağlı 1990-cı illərin ortalarından 2000-ci illərə qədər Danimarka Qaçqınlar Şurasının proqramlarını nümunə gətirmək mümkündür. Sosial müəssisələrin qurulması ilə bağlı maliyyələşmə prosesində ən vacib element isə icmaların və ya onları təmsil edən vətəndaş cəmiyyəti strukturlarının iştirakıdır. Bu iştirakçılıq alınmadıqda

[1] John Hailey, Models of INGO Sustainability: Balancing Restricted and Unrestricted Funding, International NGO Training and Research Center, November 2014, page 1

qurulacaq sosial müəssisələrin həmin icmaya xidmət göstərməsi ehtimalı azalacaq və ya xidmətlər effektli olmayacaq.

Sosial müəssisələrin yaradılması və icma səviyyəsində istifadə edilməsi ilə bağlı yəni yol isə özəl investorların cəlb edilməsidir. Kredit Suiz təşkilatının təmsilçisi Robert Rutman qeyd edir ki, bəzi hallarda investorlar hər hansı bir investisiyaya qərar verərkən maliyyə qayıdışı yoxsa investisiyasının gətirdiyi maliyyəni qurban edərək onun əhaliyə sosial təsirlərinin prioritet seçilməsi ilə bağlı tərəddüd edə bilər.[1] Bu baxımdan sosial müəssisələrin qurulması ilə bağlı vətəndaş cəmiyyəti strukturları və icmalar maliyyə axtarışında bu məqamdan istifadə edir və uyğun maliyyələşmə mənbəyi axtarırlar. Maliyyələşmə ilə bağlı investorlar qərar verərkən investorun məsuliyyəti və xeyriyyə strukturunun (vətəndaş cəmiyyəti strukturu) xidmətlərinin bir-birinə uyğunlaşması və nəticələri çox vacibdir. Aşağıdakı cədvəl sosial müəssisələrin maliyyələşməsinin nəticələri, xeyriyyəçilik xidməti və investorun məsuliyyəti çərçivəsində dəyərləndirilmiş və müqayisəli təhlil aparmağa imkan yaradır.[2]

Əslində sxemdəki yanaşma günümüzdə biznes strukturları üçün aktual olan Korporativ Sosial Məsuliyyət anlayışının yaranmasının meydana gəlməsini izah edir. Bütün ədəbiyyatlarda sosial müəssisələr üçün ilkin kapitalın formalaşmasında vətəndaş cəmiyyəti strukturları ilə biznes sektorunun, habelə dövlətin hüquqi tənzimləmələri müdaxilə nəticəsində formalaşdığını görürük.

[1] Credit Suisse, Research Institute, Investing for impact: How social entrepreneurship is redefining the meaning of return, January 2012, page 4

[2] Credit Suisse, Research Institute, Investing for impact: How social entrepreneurship is redefining the meaning of return, January 2012, page 6

| XEYRİYYƏ XİDMƏTLƏRİ | İNVESTORUN TƏSİRİ | DAVAMLI İNVESTİSİYA |
|---|---|---|
| **Müştəri hədəfi**<br>*Investorun prioriteti sosial xarakter daşıyır və xeyriyyəçilik vasitəsi ilə sosial dəyişikliklərə nail olur*<br><br>**Nəticələr**<br>– xeyriyyəçilik məsləhəti<br>– İnam və fondlaşma<br>– xeyriyyə kapitalının formalaşması, sosial müəssisələr | **Müştəri hədəfi**<br>*əsas məqsəd maliyyə qayıdışı kombinasiyası ilə sosial dəyişikliklərin aparılmasıdır*<br><br>**Nəticələr**<br>– mikromaliyyələşmə<br>– sosial müəssisələrə investisiya<br>– investisiya təməlində qurulan dəyərlər | **Müştəri hədəfi**<br>*əsas məqsəd davamlılıq trendi ilə maliyyə qayıdışını maksimum həddə çatdırmaqdır.*<br><br>**Nəticələr**<br>– investisiya fəaliyyətinin davamlılığı üçün gəlirlərin daimi gəlməsi zəruriliyini və təhlükəsizliyini sübut edir. |

← xeyriyyəçilik (sosial təsir) qazanc (maliyyə qayıdışı) →

Korporativ sosial məsuliyyətdən əldə edilən gəlirin xeyriyyəçilikdən fərqli olaraq təsirləri daha davamlı xarakter daşıyır və vətəndaş cəmiyyəti strukturları bu minvalla hədəf qrupuna daha davamlı təsir göstərmək imkanına nail olur. Ümumiyyətlə isə vətəndaş cəmiyyəti strukturları tərəfindən sosial müəssisələrin yaradılması ilə bağlı müxtəlif maliyyələşmə mənbələri mövcuddur. Maliyyələşmə məsələləri icma səviyyəsində sosial müəssisələrdən istifadə imkanlarını müəyyən edən əsas məqamlardan biridir. Bütün maliyyələşmə mənbələrindən istifadə etmək mümkündür. Bu təbii ki, mövcud vəziyyətdən, ölkənin bu sahədəki qanunvericilik tənzimləməsindən və maliyyə şərtlərindən asılıdır. Maliyyələşmə mənbələri məhz icmaları təmsil edən vətəndaş cəmiyyəti strukturları vasitəsi ilə beynəlxalq təşkilatlar, özəl şirkətlər və dövlət tərəfindən təmin edilir. Beynəlxalq təşkilatlar bunu daha çox donor təşkilatları vasitəsi ilə həyata keçirirlər. Beynəlxalq təşkilatların sosial müəssisələrə dəstəyin ən bariz nümunəsi Dünya Bankının «Bazarın İnkişaf Etdirilməsi» proqramı çərçivəsində ayırdığı qrantlardır.

2003-cü ildə Dünya Bankı 27 ölkədə həyata keçirilən bununla bağlı 47 layihə üzrə 6 milyon ABŞ dolları məbləğində qrant ayırmışdır. Bir çox təşkilatlar, hansı ki, bunların arasında Ashoka və ya Schwab Fondu sosial müəssisələrin qurulmasında birbaşa iştirak edirlər.[1] İlk baxışda donordan maliyyələşmə daha rahat və risksiz görünsə də bu hər zaman əlçatan olmaya bilər. Aşağıdakı cədvəl maliyyələşmə mənbələrinin müqayisəli təhlilini aparmaqdadır.[2]

***Cədvəl 6. Sosial müəssisələrin qurulmasında maliyə mənbələri və şərtləri***

| Maliyyələşmə mənbəyi | Maliyyənin verilmə şərtləri | Sosial müəssisələr üçün nəticələri |
|---|---|---|
| Qrantlar | Müddəti: qısa müddət<br>İllik ödəniş: yoxdur<br>Geri ödəniş: yoxdur | – Sosial müəssisələrin istiqamətləri ilə bağlı adətən məhdudiyyət olur<br>– vəsaitin cəlb edilməsi ilə bağlı xərclər çoxdur<br>– Müəssisənin çevikliyi aşağı səviyyədə olar |
| Borc kapitalı | Müddəti: 3-7 il (uzun müddət)<br>İllik ödəniş: faiz ödənişləri (mütəmadi)<br>Geri ödəniş: var | -Faiz ödənişləri biznes modelinin daha aşağı riskli sahələrə yönəldilməsini tələb edir.<br>– Mülkiyyətin digərlərinə ilhaq edilməsi yoxdur<br>– Defolt hallarında üçüncü şəxslərin hüquqlarının təminatı<br>– Kapitalın istifadə edilməsində yüksək sahibkarlıq |

[1] Cristian Seelos, Johanna Mair, Social Entrepreneurship: The contribution of individual entrepreneurship to sustainable development, University of Navara, March 2004, page 9
[2] Credit Suisse, Research Institute, Investing for impact: How social entrepreneurship is redefining the meaning of return, January 2012, page 8

| | | |
|---|---|---|
| | | çevikliyini görmək mümkündür. |
| Üzvlük kapitalı | Müddəti: limitsiz<br>İllik ödəniş: divident ödənişləri (mütəmadi)<br>Geri ödəniş: yoxdur | -Mülkiyyətin ələ keçirilməsi<br>– sosial investor nəzarəti əlinə alır və səsvermə hüququna malik olur<br>– sosial investor üçün gəlir payı<br>– korporativ mədəniyyətin formalaşmasına təsir edir. |
| Hibrid kapital | Müddəti: 3-7 il (uzun müddət)<br>İllik ödəniş: yoxdur<br>Geri ödəniş: strukturdan asılıdır | -kapitalın cəlb edilməsi baha deyil<br>– mülkiyyət ələ keçirilmir.<br>– sosial investorla risklər bölüşdürülür.<br>– strukturlaşma üçün güclü çeviklik mövcuddur. |

Bu cədvəldən görə bilirik ki, hər bir maliyyə alətlərinin özünəməxsus müsbət və mənfi cəhətləri mövcuddur. Maliyyələşmə eyni zamanda sosial müəssisələrin idarəetmə modelinə birbaşa təsir edən elementlərdən biridir. Bir çox maliyyələşmə modeli vətəndaş cəmiyyəti təşkilatlarının üzərindən aparıldığı üçün icmanın və ya hədəf qrupun istifadə imkanları sadəcə istifadəçi formasında qalmaqdadır. Vətəndaş cəmiyyəti təşkilatlarında ən əsas məsələlərdən biri isə sosial müəssisənin öz prioritet sahəsinə uyğunlaşdırmasıdır. Çünki biznes strukturlardan fərqli olaraq vətəndaş cəmiyyəti strukturları öz sosial müəssisələri ilə hədəf qrupuna xidmət etməlidir. Bu isə vətəndaş cəmiyyəti təşkilatları üçün hər sahədə alınmaya bilər. Məsələn, hüquq müdafiəsi sahəsində məşğul olan vətəndaş cəmiyyəti təşkilatları bu prinsiplər əsasında sosial müəssisələr yaradıb fəaliyyət göstərməsi imkanları kənd tə-

sərrüfatı sahəsində məşğul olan vətəndaş cəmiyyəti təşkilatı ilə müqayisədə çox aşağıdır.

Vətəndaş cəmiyyəti təşkilatlarının bu məsələdə imkanları digər təşkilati-hüquqi formalara nisbətən daha aşağıdır. Eyni zamanda vətəndaş cəmiyyəti təşkilatlarında qurulan sosial müəssisələrdən icmalar sadəcə istifadəçi kimi yararlanır və burada mülkiyyət sahibi ola bilmir.

Bütün bunlara baxmayaraq sosial müəssisələri biznes müəssisələri ilə müqayisə etdikdə onların idarəetmə üslubu bir qədər fərqlidir. Biznes strukturları böyüklüyündən və miqyasından asılı olaraq orada idarəçilikdə ierarxik münasibətlər daha qabarıq olduğu halda sosial müəssisələr icma maraqlarını nəzərə aldığı üçün kollegiallığa meyillik daha üstünlük təşkil edir.

Bu yanaşma ümumilikdə bu tip təşkilatları daha demokratik idarəetmə üsulu ilə xarakterizə edir və qərarların qəbul edilməsində bütün üzvlərin səslərini nəzərə almaqdadır.[1] Məsələyə bu kontekstdən yanaşsaq bunu görmək mümkündür ki, hədəf icma və qruplar demokratik idarəetmə üsulu fonunda sosial müəssisələrin imkanlarından daha effektiv və öz maraqlarını daha çox təmin edəcək üsulda həyata keçirə bilər. Sosial müəssisə təşkilatlarının idarəetmə konsepsiyası və fəlsəfəsi ona əsaslanır ki, müəssisə həm davamlı gəlir gətirmə və eyni zamanda icma və hədəf qrupların sosial maraqlarını nəzərə almalıdır. Hədəf qrupların sosial marağının nəzərə alınması baxımından onların nümayəndələrinin fikirləri və təkliflərinin nəzərə alınması baxımından idarəetmədə təmsilçilik və kollegiallıq bir idarəetmə aləti kimi istifadə edilməlidir. Bununla yanaşı sosial müəssisələr vətəndaş cəmiyyət təşkilatının missiyasını həyata keçirməklə yanaşı eyni zamanda gəlir gətirmə missiyasını da yerinə yetirməkdədir. Bu baxımdan sosial müəssisələri 3-cü sektorun iqtisadiyyatı kimi də adlandırırlar.

---

[1] European Commission, Social economy and social entrepreneurship, Social Europe guide, Volume 4, 2013 year, page 22

Bu yanaşmaya uyğun olaraq müxtəlif ölkələrdə sosial müəssisələrin müxtəlif təşkilati-hüquqi formaları mövcuddur. Tarixi cəhətdən yanaşsaq sosial müəssisələri təşkilati-hüquqi forma baxımından 4 əsas qrupa bölmək mümkündür: kooperativlər, yardımlaşma cəmiyyətləri, fondlar və assosiasiyalar. Bunlar arasında ən geniş yayılmış forma kooperativlərdir. Kooperativlər icma səviyyəsində təşkilatlanmanın ən bariz nümunələrindən biridir. Bunun üçün heç də vətəndaş cəmiyyəti təşkilatının qurulmasına ehtiyac yaranmır. Kooperativlər könüllü şəkildə şəxslərin bir araya gələrək ümumi iqtisadi, sosial və mədəni tələbatlarını ödəmək üçün ümumi mülkiyyət yaratmaq və demokratik idarəçilik formalaşdırmaq yolu ilə yaratdıqları müstəqil bir birlikdir. Bu çərçivə həm Beynəlxalq Kooperativ Alyans tərəfindən 1995-ci ildə, habelə 2002-ci ildə Beynəlxalq Əmək Təşkilatının 193 saylı rekomendasiyası ilə tanınmışdır.[1] Kooperativlər iqtisadi və sosial çətinliklərin dəf edilməsində daha tez-tez istifadə edilən metoddur. Tarixi cəhətdən belə olub ki, kooperativlər bir-birinə sıx bağlı olan icma və ya müəyyən qrup insanların maraqlarının qorunması, ailələrdən kənar özünə köməyi təmin etmək və əsas mal və xidmətlərə əlçatanlığını təmin etmişdir. Səhmdar cəmiyyətdən fərqli olaraq burada sahibkarlıq hüququ investorlara deyil, daha fərqli subyektlərə, alıcılara, işçilərə, istehsalatçılara və fermerlərə həvalə edilmişdir. Bütün ölkələrdə hələ də kooperativlər sosial-iqtisadi inkişafa, məşğulluğun artırılmasına və gəlir bölgüsünün balanslaşdırmasına töhfə verməyə davam edirlər. Yəni burada sahibkarlıq hüququna malik olanlar həm sahibkar, həm işçi və eyni zamanda qərar alma prosesində iştirak edərək idarəçi də ola bilirlər. Əsas məqsəd isə kooperativ üzvü olan şəxslərin tələbatlarını ödəməkdir. Bu kontekstdə deyə bilərik ki, kooperativlər bir qədər ətraf aləmə elə qapalıdır ki, sanki icmanı kənar təhlükələrdən və risklərdən qoruyur. Ətrafa nəzərən güclü muxtariyyət statusuna malikdir. Kooperativlər digər sosial müəssisə tiplərindən fərqli olaraq maliyyələşməsini da-

[1] Beynəlxalq Əmək Təşkilatı, 2002-ci il, 193 saylı tövsiyyəsi

ha çox daxili mənbələr, yəni üzvlərin öz əmlaklarını kooperativin mülkiyyətə vermək hesabına həyata keçirir. Beləliklə belə bir nəticəyə gəlmək mümkündür ki, sosial müəssisələr, xüsusi ilə kooperativlər aşağıdakı xüsusiyyətlərə malikdir:

- Üzvlərə və ya icmaya gəlir əldəetmə motivi olmadan mal və xidmətlər təklif etmək
- Muxtar idarəçilik statusuna malikdir.
- Qərarvermə prosesində kollegiallıq və demokratik qaydalara həssasdır.
- Kapitaldan əldə edilən iş və gəlirin ilkin olaraq üzvlər arasında bölüşdürülməsidir.[1]

Sosial müəssisələr arasında kooperativlər həm iqtisadi dəyər yaratmaq baxımından, həm də iş yeri formalaşdırmaq baxımından digər sosial müəssisə tiplərinə görə daha aparıcı rol oynamaqdadır. Bunun əsas səbəblərindən biri kooperativlərin qurulmasının nisbətən daha asan və nisbətən daha çevik olması, eyni zamanda vətəndaş cəmiyyət təşkilatları tərəfindən yaradılan sosial müəssisələrə nisbətən daha çevik olması ilə bağlıdır. Bunun əsas səbəbi budur ki, kooperativlər hər hansı bir qrant və məqsədli maliyyələşmədən asılı olmadığı üçün istiqaməti çevik bir şəkildə dəyişdirmək imkanına malikdir. Lakin vətəndaş cəmiyyəti təşkilatlarında maliyyə yardımları şərtli verildiyi üçün onların sosial müəssisənin biznes istiqamətini müəyyən etməkdə məhdudiyyətləri mövcuddur.

Kooperativləri daha cəlb edən başqa bir məsələ isə onun icma üzvləri arasında sosial həmrəyliyi gücləndirməsidir. Avropada bu məsələlər məhz ikinci dünya müharibəsinin nəticələrinin aradan qaldırılması motivi ilə inkişaf etmişdir. Xüsusi ilə 1950-ci illərdə yoxsulluğun aradan qaldırılması və mənzil təminatı məsələlərində kooperativ və digər sosial müəssisələr daha çox əhəmiyyət qazanmışdır. Hətta belə bir

[1] OECD, LEED and EU, Job Creation Through the Social Economy and Social Entrepreneurship, 2013, page 17

nəticəyə gəlmişdilər ki, 3-cü sektor öz iqtisadiyyatını bu şəkildə formalaşdıranda xristian kilsəsinin xeyirxahlıq ənənələrindən ilham almışdır. 1970-ci illərdə Avropada başlayan struktiv işsizlik, büdcə defisiti kimi makro-iqtisadi problemlərlə üzləşəndə belə bir məsələ gündəliyə gəldi ki, sosial kooperativlər hansı dərəcədə bu problemlərin həllində töhfə verə bilər və məhz bu çətinliklər şəraitində icma əsaslı kooperativlər daha böyük əhəmiyyət qazanaraq dövlət üçün əsas prioritet sahə oldu.[1] Avropa ölkələrindəki təcrübələr onu göstərdi ki, sosial müəssisələr arasında sosial kooperativlər vətəndaş cəmiyyəti strukturlarının yaratdıqları sosial müəssisələrdən daha effektiv xidmət göstərirlər. Bu onunla bağlıdır ki, kooperativlərdə icma həmrəyliyi həm mənəvi, həm də maliyyə cəhətindən üzvləri bir-birinə bağlayır. Nəticədə isə maliyyə davamlılığı tam təmin olunaraq icma üzvlərinə daimi xidmət göstərirlər. Burada donordan asılılıq demək olar ki, yoxdur. Lakin vətəndaş cəmiyyəti strukturlarındakı sosial müəssisələrin qismən də olsa donordan asılılığı onun davamlı fəaliyyətində risklər yaradır. Bundan başqa tədqiqatlar onu göstərdi ki, vətəndaş cəmiyyəti strukturlarının çoxluğu ilə sosial müəssisələrin iqtisadiyyatdakı payı və yaratdığı dəyər arasında düz bir korrelasiya zəifdir. Bu onunla bağlıdır ki, donor vəsaitinin iqtisadiyyatda yaratdığı dəyər sosial kooperativlərin iqtisadiyyatda yaratdığı dəyərdən çox aşağıdır. Postsovet ölkələrində, xüsusi ilə Rusiyanın mövcud korrelasiyaya uyğun gəlməməsinin əsas səbəblərindən biri də budur.

Bununla yanaşı qeyd etmək lazımdır ki, sosial müəssisələr iqtisadiyyatın bütün sahələrində fəaliyyət göstərmirlər. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının 2011-ci ildə apardığı sorğu əsasında belə məlum olmuşdur ki, sosial müəssisələr daha çox xidmət sektorunda fəaliyyət göstərə bilir. OECD ölkələrində aparılan araşdırma nəticəsin-

---

[1] Jacques Defourny, and Marthe Nyssens, Social Cooperatives:When Social Enterprise meets the Cooperative Tradition, Paper to be presented at the Euricse – ICA International Conference "Promoting the Understanding of Cooperatives for a Better World"Venice, March 15-16, 2012

də məlum olmuşdur ki, sosial müəssisələr arasında sosial xidmətlər (uşaqlar və yaxşı şəxslərə qulluq, əlilliyi olan şəxslərə dəstək) daha çox yer alaraq sosial müəssisələrin 26%-ni, təhsil və tədris xidmətləri sektorunda 21,1%, mədəniyyət və bərpa işləri sahəsində 16,2%, ətraf mühitin bərpası (bağçılıq, ağac əkmə və bənzəri) sektorunda 11,8%, peşəkar və məsləhət xidmətləri sektorunda isə 8,1%-i fəaliyyət göstərir.[1] Sosial müəssisələrin daha çox xidmət sektorunda fəaliyyət göstərməsinin əsas səbəblərindən biri kapitalın cəlb edilməsi və xidmət sektorunun xüsusiyyəti ilə bağlıdır. Sosial müəssisələr digər biznes strukturlarından fərqli olaraq böyük kapital cəlb etmək imkanına malik deyildir. Burada kapital dedikdə maliyyə tələb edən likvid dəyərlər və avadanlıqlar nəzərdə tutulur. Halbuki istehsalat sahələrində insan kapitalından daha çox maliyyə vəsaitləri, hətta bəzilərində uzun müddətli maliyyə investisiyaları lazımdır. Xidmət sektorunda isə bir işin qurulması üçün çox güclü maliyyə vəsaitləri lazım deyil. Burada əsas qüvvə insan kapitalının üzərinə düşür. Sosial müəssisələri quran icma və vətəndaş cəmiyyəti strukturları üçün insan kapitalına çıxış maliyyə kapitalına nisbətən çox əlçatandır. Eyni zamanda xidmət sektorunda insanlarla iş daha çox olduğu üçün vətəndaş cəmiyyəti strukturları bu sahədə biznes sektoru ilə çox rahat rəqabət apara bilir. Bunun əsas səbəblərindən biri budur ki, onlar icmalara daha yaxındır, icmaların prioritetlərini, problemlərini və psixologiyasını daha yaxşı bilir, onlara hansı xidmətlərin necə göstərilməsini biznes sektorundan daha yaxşı öyrənmişdir.

Bir çox ölkələrdə dövlət müəyyən xidmətləri məhz vətəndaş cəmiyyəti strukturlarına və onların qurduqları sosial müəssisələrə həvalə etməkdədir. Ölkəmizdə hal-hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi əlilliyi olan şəxslərə və bənzəri sosial təbəqələrə günərzi qayğının göstərilməsi, onlara mənəvi-psixoloji dəstəyin göstərilməsi

[1] OECD, LEED and EU, Job Creation Through the Social Economy and Social Entrepreneurship, 2013, page 28

ilə bağlı həmin təbəqələri təmsil edən vətəndaş cəmiyyəti təşkilatlarına qrant ayıraraq bu vəzifənin vətəndaş cəmiyyəti təşkilatları vasitəsi ilə həyata keçirilməsini təmin edir. Dövlət qurumu və vətəndaş cəmiyyəti arasındakı bu münasibət ona görə yaranır ki, vətəndaş cəmiyyəti təşkilatları həmin icmaya dövlətdən daha yaxındır, onların problemlərini dövlət qurumlarından daha yaxşı anlayır. Lakin icmaların sosial müəssisələrdən pulsuz istifadəsi hər zaman əlçatan olmaya bilər. İcmaların sosial müəssisələrdən donor və ya dövlət hesabına pulsuz istifadəsi məsələsi daha çox qarşılıqlı asılılıq nəzəriyyəsinə əsaslanır. Bu nəzəriyyə onu qeyd edir ki, vətəndaş cəmiyyəti–hökumət münasibətləri o zəmində qurulur ki, onlar müəyyən problemlərin həllində biri o birinin boşluğunu doldurur.[1] Bu daha çox ictimai nemətlər (public food) sahəsində özünü göstərməkdədir. Yəni icmaların sosial müəssisə və vətəndaş cəmiyyəti təşkilatlarının imkanlarından istifadəsi pulsuz olsa da, onun xərcləri dövlət və digər donor təşkilatından ödənilir.

Ümumilikdə belə bir nəticəyə gəlmək mümkündür ki, icmaların sosial müəssisələrdən istifadə imkanları və metodları sosial müəssisələrin maliyyələşməsindən daha çox asılıdır. Çünki maliyyələşmə eyni zamanda sosial müəssisənin idarəetmə strukturunu və fəaliyyət sahəsini müəyyən edən əsas elementlərdən biridir. Sosial müəssisələrin iqtisadiyyatdakı töhfəsi ilə bağlı ölkələr üzrə müqayisəli təhlil onu göstərir ki, icmaların donor maliyyələşməsi hesabına sosial müəssisələrin xidmətindən yararlanması uzun müddətli davamlılıq vəd etmir. Davamlı xidmətin həyata keçirilməsi üçün sosial müəssisələr iqtisadi dəyər yaratmalı və bu baxımdan xidmət görən icma nümayəndələrinin bununla bağlı maliyyə töhfələri xüsusi əhəmiyyət kəsb edir.

Bununla bağlı icmaların sosial müəssisələrin imkanlarından istifadəsi üçün bir neçə yol mövcuddur və əslində bütün nümunələr məhz aşağıdakı modellərdən birinin üzərində qurulmaqdadır.

---

[1] Brigitte Hoogendoorn, Chantal Hartog, Prevalence and Determinants of Social Entrepreneurship at the Macro-level, Scientific Analyses of Entrepreneurship and SME's, Zoetermer, June 2011, page 10

Üzvlük haqqları vasitəsi ilə güzəştli mal və xidmətlərin əldə edilməsi: Bu nisbətən daha çox xüsusi ilə tələbələr və gənclərlə işləyən vətəndaş cəmiyyəti strukturları və ali məktəblərin sosial müəssisələri üçün geniş yayılmış metodlardan biridir. Buradakı metod o prinsiplə işləyir ki, hədəf qrupa (icmaya) aid olan hər hansı şəxs üzvlük haqqı verməklə həmin müəssisənin mal və xidmətlərini daha ucuz və əlçatan qiymətlərlə əldə edir. Müəssisə isə üzv olmayan şəxslərə, yəni digər əhaliyə bazar qiymətləri ilə mal və xidmət göstərərək icma üzvlərinə göstərilən xidmətlərin xərclərini kompensasiya etməyə çalışır. Ən bariz nümunələrdən biri kimi Türkiyədə ali məktəblərin sosial təsisatlarının işləyiş tərzi bundan ibarətdir. Bu cür sosial təsisatlar tələbələrə endirimli yemək kartları satmaqla onların güzəştli qiymətlərlə qidalanmasını təmin edir. Lakin həmin bu xərcləri kənardan gələn müştərilərin yemək üçün bazar qiymətləri ilə ödədikləri pullar hesabına bütün xərcləri əhatə etməkdədir. Eyni model ali məktəblərin Tibb fakültələri nəzdində yaradılmış xəstəxanalar üçün etibarlıdır. Burada tələbələr universitetə ödəniş etdikdə həm də tibbi sığorta xərclərini ödəyir və bununla da sığorta hadisələrində tələbənin tibbi xərcləri sığorta şirkəti tərəfindən universitetə ödənilir. Bundan başqa kənar yerdən qəbul edilən xəstələrin ödədikləri vəsait də həmin xəstəxanada müalicə alan tələbələrin xərclərinin ödənməsinə sərf edilir. Habelə müxtəlif gənclər təşkilatlarında üzvlük haqqları ilə onlara pulsuz və ya çox az ödənişlə təhsil xidmətlərinin göstərilməsi də bu metodun ən bariz nümunələrindən biridir.

Vətəndaş cəmiyyəti strukturları vasitəsi ilə dolayı yolla digər müəssisələrin xidmətlərindən istifadə: Bu metodda vətəndaş cəmiyyəti təşkilatı və ya icmanın təşkilatı özü birbaşa sosial müəssisə yaratmır. Lakin müəyyən lobbiçilik fəaliyyəti ilə digər biznes strukturları ilə anlaşaraq icma üzvlərinə həmin şirkət tərəfindən nisbətən əlçatan xidmətlərin göstərilməsini təmin etməkdədir. Nigeriyada bir çox bahalı özəl məktəblərdə sosial təminatı çox zəif olan və potensiallı şagirdlə-

rin təhsilinin təmini üçün vətəndaş cəmiyyəti strukturları ilə məktəblər arasında müəyyən anlaşma mövcuddur.[1]

Sosial kooperaitvlər vasitəsi ilə: Bu metod günümüzdə daha çox geniş yayılmış metoddur. Kooperativlər üzvlərin bütün sosial-iqtisadi ehtiyaclarını daha ucuz və əlçatan etmək məqsədi ilə bütün maliyyə vəsaitlərini kollektiv mülkiyyətə çevirərək özlərinin ehtiyacı olan mal və xidmətlər istehsal edirlər. Bunun ən bariz nümunələrindən biri kimi mənzil-tikinti kooperativlərini göstərmək mümkündür. Burada kooperativi quran üzvlərin hər biri mənzil problemi ilə qarşı-qarşıya qalmış şəxslər olduğu üçün əlçatan qiymətə mənzil əldə etmək üçün bir araya gəlib bina tikintisini həyata keçirib başqa şəxslərə mənzil satmadan, yalnız üzvlər arasında binadakı mənzillərin paylaşdırılmasını nəzərdə tutur. Bir çox ölkələr urbanizasiya siyasətinin əsas elementi olan əhalinin mənzil siyasətinin təmin edilməsində mənzil-tikinti kooperativlərinin qurulmasını stimullaşdırır və onun qanunvericilik bazasını, xüsusi ilə mülkiyyət hüquqlarının təminatını möhkəmləndirir. Bu metodda isə sosial müəssisə yalnız üzv olan şəxslərin ehtiyaclarını qarşılamağa yönəlmiş və əsas motiv üzvlər üçün daha ucuz mal və xidmətlər istehsal etməkdədir.

Beləliklə bu nəticəyə gəlmək mümkündür ki, icma səviyyəsində sosial müəssisələrdən istifadə metodları onların ümumi iqtisadiyyatdakı payından, dövlət-özəl sektor-vətəndaş cəmiyyəti təşkilatları arasındakı üçlü münasibətdən, xeyriyyəçilik ənənələrindən, habelə maliyyələşmə imkanları və alətlərindən hansı formada istifadəsindən asılıdır. Bütün istifadə imkanları yaxşıdır, lakin ölkə və cəmiyyətlərdə bunlardan hansının daha yayğın olması, ölkə təcrübəsi və ənənəsindən, qanunvericilik tənzimləməsindən, habelə vətəndaş cəmiyyəti strukturlarının və özəl sektorun maliyyə imkanlarından, habelə dövlətlərin sosial dövlət anlayışına həssaslığından asılıdır.

[1] Cristian Seelos, Johanna Mair, Social Entrepreneurship: The contribution of individual entrepreneurship to sustainable development, University of Navara, March 2004, page 14

## 1.3. İnkişaf etmiş ölkələrdə və MDB dövlətlərində sosial müəssisələrin təşkili və fəaliyyəti

Sosial müəssisələr günümüzdə müasir dövlətlərin aparıcı sahələrindən biri sayılır. Buna baxmayaraq hər bir sahədə olduğu kimi, sosial müəssisələrin çalışdığı sahənin də özünəməxsus çətinlikləri mövcuddur. Şərqi Avropa və MDB-nin bir sıra dövlətləri SSRİ-nin süqutundan sonra öz iqtisadiyyatlarını qurmağa məcbur oldular. Ümümilikdə postsovet məkanında yerləşən ölkələr üç qrupa bölünür. Birinci qrup – heç bir təbii resursu olmayan və iqtisadiyyatını liberal şəkildə inkişaf etdirmək məcburiyyətində qalan ölkələr, ikinci qrup – islahatlar aparmış, lakin təbii sərvətlərə malik olan, üçüncü qrup isə daha mühafizəkar olan və iqtisadi islahatlarını belə Sovetlər sisteminə uyğun olaraq (əsasən Orta Asiya regionu dövlətləri) aparan ölkələr idi.

Lakin bu qruplaşmaya və ölkələr arasındakı fərqlərə baxmayaraq bütün region ölkələri arasında sosial sahibkarlıq və sosial müəssisələrin inkişafı fenomeni yaranmağa başlamışdır. Təbii bu sahədə ilk təşəbbüslər elə Rusiya Federasiyasının özündə yaranmağa başlamışdır. Burada sosial müəssisələr daha çox QHT kimi qeydiyyatdan keçib fəaliyyət göstərirdilər. Daha sonra Rusiyada dövlət tərəfindən dəstəklənən və sosial müəssisələr üçün mühərrik funksiyasını daşıyan «Naşe buduşee» fondu yaradılmışdır. Fondun təsisçisi Rusiyanın ikinci ən böyük neft şirkətinin sahibi Vahid Ələkbərov olmuşdur.[1] Fond Dövlət Strateji İnisiativlər Agentliyi və Rusiyanın İqtisadi İnkişaf Nazirliyi ilə sıx əməkdaşlıq edir. Fondun əsas məqsədi Rusiyada olan layihələrə dəstək verməkdən ibarətdir.

UNDP (Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı) sosial sahibkarlığı yoxsulluğun aradan qaldırılması üçün bir alət kimi görür

[1]http://www.nb-fund.ru/s.1

və ölkələrə bu aləti üç əsas maneənin aradan qaldırılması üçün istifadə etməyə məsləhət görür: «İdarəçilik kadrlarının azlığı – idarə edən kadrların çatışmazlığı probleminin çözümü kimi, onların sosial müəssisələrdə yetişdirilməsi. Koordinasiya/müsabiqədə olan maneələrin aşılanması təcrübəsi. Adətən sosial müəssisələr və üçüncü sektor təşkilatları arasında koordinasiya çatışmamazlığı yaşanır və burada əldə edilən təcrübə gələcəkdə istifadə oluna bilər. Mədəni maneələr – sosial müəssisələr haqqında, proqramı idarə və tədbiq edənlərin məlumatlılığının aşağı olması».[1]

Lakin bütün maneələrə baxmayaraq sosial müəssisələr Şərqi Avropa və keçmiş SSRİ məkanında əsasən kənd təsərrüfatı sahəsində inkişaf edir və beləliklə iki əsas hədəfin vurulmasını təmin edir. Birinci – yoxsulluğun, ikincisi – işsizliyin aradan qaldırılması. Lakin qeyd etmək lazımdır ki, sosial müəssisələri başqa qurumlardan fərqləndirən bir neçə əsas xüsusiyyət var. İlk olaraq onların ən başlıca məqsədi sosial rifahın olmasıdır və nəhayət bu tip müəssisələr sosial və ticari təşkilatın qarışığından təşkil olunur.[2]

Qeyd etmək lazımdır ki, bu sahədə ABŞ-ın təcrübəsi daha zəngindir və başqalarından tam fərqlidir. ABŞ sosial müəssisələrdəki işi daha çox beyin mərkəzlərindən idarə etməyə çalışır. Belə beyin mərkəzlərindən biri Stanford Universitetidir.[3] Stanford sosial müəssisələrə dəyirmi masalar, konfranslar təşkil etməklə, qrantlar verməklə kömək edir. Beləliklə həmin bölgədə sosial müəssisələrin yaradılmasına kömək etmiş olur. «Blumberq» xəbər agentliyinin məlumatına əsasən hal-hazırda ABŞ-ın Sakit Okean sahillərində sosial müəssisələrin dövriyyəsi 40 millyard dollara çatıb.[4] «Heç də təəccüblü deyil ki, beləliklə onlar sərmayə yatıran vençur kapitalistlərinin diqqətini çəkə biliblər.

---

[1]http://www.undp.ro/download/UNDP%20RBEC%20Report%20on%20Social%20Enterprises.pdf s. 182
[2]J. Gregory Dees, Jed Emerson, Peter Economy, 2001, Enterprise Nonprofits: A toolkit for Social Entrepreneurs, John Wiley & Sons, Inc .pp. 46
[3]http://csi.gsb.stanford.edu/social-entrepreneurship s. 1
[4]http://www.bloomberg.com/ss/09/04/0403_social_entrepreneurs/1.htm s. 1

Acumen Fond adlı təşkilat yoxsulluqla mübarizə proqramı kimi, adı çəkilən təşkilatlara sərmayə yatırıb. Əsasən San Fransisko ərazisində daşınmaz əmlakla məşğul olan təşkilat sosial mühitin yaxşılaşdırılmasını qarşısına əsas məqsəd kimi qoyur. Bu da öz növbəsində Prezident Obamanın sosial müəssisələr və startaplar üçün maliyyə yardımı göstərən təşkilatın yaradılması təklifi ilə çıxış etməsinə gətirmişdir.

Sosial idarəçiliyin inkişaf etməkdə olan ölkələrdə rolunu anlamaq çox vacibdir. İnsan kapitalı indeksi və davamlı inkişaf əhəmiyyətli məqsədləri və sosial sahibkarlıq mühiti əsas amillərdir. Şərqi Avropa regionunda dövlət dəstəyi olmadan uzunmüddətli sosial layihələri inkişaf etdirmək çox çətindir. İdarəetmə modellərində və formalarında böyük bir fərq var, hətta regionun bütün dövlətləri üçün bir səmərəli modelin təklifi də çox çətindir. Məsələn, regionun liberal ölkələrindən biri olan Gürcüstanın bütün ərazilərində konstitusiyanın həyata keçirilməsində problem var. Qeyri-sabit siyasi vəziyyət bəzən iqtisadiyyata birbaşa təsir göstərir. Saakaşvili hökuməti dəyişdikdən sonra Prezident və Baş nazir arasında fikir ayrılıqları, ayda bir neçə dəfə cəmiyyətdə gərginlik və iğtişaşlara səbəb olur. Sosial sahibkarlığın bir çox hallarda xüsusi bir istehsalat sahəsinə bağlı olduğunu nəzərə alsaq anlaşılır ki, xarici sahələrdən bura kadr gətirmək və sosial sahibkarlığı belə şərtlərdə inkişaf etdirmək çox çətindir.

Son illərdə dövlətlər sosial sahibkarları daha çox dəstəkləməyə başlayıb. Sosial müəssisələri maliyyələşdirən proqramlar ortaq maliyyə donorları kimi fəaliyyət göstərməyi daha üstün tuturlar. Məsələn, Rusiya İqtisadi İnkişaf Nazirliyi kifayət qədər çoxlu şirkətlərlə əməkdaşlıq edir ki, onlar da öz növbəsində sosial müəssisələrə yardım edir.

2012-ci il aprelin 23-də İqtisadi İnkişaf Nazirliyi sosial sahibkarların dəstəklənməsinə yönəlmiş normativ sənədləri dərc edib. Hökumət subsidiyalarının bütün formalarını və sahələrini idarə edir. Rusiya təcrübəsində belə bir sənəd mövcuddur – «Rusiya Federasiyasında rəqabətə davamlı büdcənin qurulması, maliyyə və qrant fəaliyyətinin tənzimlənməsi». Bu sənədin bu tipli digər normativ və hüquqi akt-

lardan əsas fərqi odur ki, bundan öncəki bu tipli heç bir sənəd maliyyə yardımının 300 min rubldan 600 min rubla qədər artımını tənzim etmirdi, lakin bu qanunun qəbulundan sonra vəziyyət tam olaraq dəyişmişdir. İstisna olaraq regionlara göndərilən maliyyə yardımları təşkil edir ki, bu rəqəm də 300 min rublu keçmir. Ümumiyyətlə Şərqi Avropa ölkələri xarici sərmayə axınını da tənzimləməyə çalışır.[1]

Xarici birbaşa yatırımın analizi onu göstərir ki, bu yatırımlar daha çox eyni tipli iqtisadi modelləri istifadə edən ölkələrdə oxşar uğurlara sahib olur. Belə halda bazar iqtisadiyyatına keçid daha sürətli olur. İqtisadiyyata baxış daha kompleksli olur. Tam iqtisadi sistem şərq və qərb modellərinin əsaslarının tədbiqi ilə nəticələnir. Misal üçün, Şərqi Avropa ölkələrinin iqtisadiyyatlarının transformasiya olması, xüsusi ilə sosial-iqtisadi struktur dəyişikliklərin olması və bunların əsasən qərb sərmayələrinin hesabına baş verməsi bu nəzəriyyənin bariz nümunəsidir.

Lakin, Şərqi Avropa regionunda sərmayə yatıranların bütün təkliflərinin həyata keçməməsi bu gözləntilərin heç də həmişə doğru olmadığını göstərir. Bu onu göstərir ki, heç də bütün Qərb müəssisələri Şərq regionlarında işləmək qabiliyyətinə sahib deyil. Beləliklə iqtisadi məsləhətçilik və elmi yanaşmaya ehtiyac yaranır. Bu misal həm sosial müəssisə, həm də hər hansı başqa sahibkarlıq növünə aid edilə bilər.

Qərb iqtisadi modellərinin adətən xarici yatırımları nizamlayan və xarici bazarlara yatırımları tənzimləyən bir sıra nəzəriyyələri var. Yuxarıda danışılan halda isə Şərqi Avropa regionunda başlayan dəyişiklikləri nizamlamaq və qərbli yatırım edənlərin maraqlarının təmin olunması strateji idarə olunmanı təmin edən fikir və nəzəriyyələri misal göstərmək olar. Bu nəzəriyyənin əsası ondan ibarətdir ki, hər hansı bir sahibkarlıq növü xarici, daxili strateji, mədəni və idarəçilik sistemləri ilə daimi əlaqədə olmalıdır. Beləliklə istər sosial sahibkarlıq olsun, istərsə də qeyri-sosial sahibkarlıq növləri ilk növbədə Şərqi

[1]http://evolutio.info/content/view/331/50/səh 1

Avropa regionunda eyni sistemlə inkişaf etmişdir, daha sonra isə öz spesifikasiyasına uyğun olaraq inkişaf etməyə davam etmişdir.

Qeyd etmək lazımdır ki, bu sahədə İsraildə keçmiş SSRİ-də «kolxoz» sistemi ilə fəaliyyət göstərən – Kibuts adlı sosial müəssisələrin də fəaliyyəti kifayət qədər maraqlıdır. Maraqlı olan budur ki, Kibutsların əsasnamələrində qeyd olunan vacib şərtlərindən biri odur ki, mülkiyyət ancaq ortaq ola bilər. Beləliklə istehsalat tam şəkildə fəaliyyət göstərsə də, gəlir yalnız ictimai olur.

Beləliklə xarici bazarların əsaslandığı abstrakt nəzəriyyələr beynalxalq təcrübədən yaranan biliklərə əsaslanır. Bu sahədə təhsil sektorunu xüsusi ilə qeyd etmək lazımdır.

Beynəlxalq təcrübə göstərir ki, xarici vətəndaşların ölkəyə təhsil almaq üçün cəlb olunmasından ötrü peşəkarlardan ibarət, müstəqil fəaliyyət göstərən bir qurumun yaradılması nəticəsiz qalmır. Bir sıra MDB ölkələrində belə qurumlar vardır: Ukraynada – Beynəlxalq Təhsil Mərkəzi, Belarusda – Beynəlxalq təhsil sahəsində işbirliyi mərkəzi və s. Qonşu Türkiyənin ancaq dövlət universitetlərində 35 min nəfər (aşağıdakı cədvələ bax; 1), Rusiyada 250 min (2), Ukraynada 60 min (3), əhalisi Azərbaycanın əhalisindən az olan **Belarusda isə 13 min** (4) (Belarus dövlətinin hesablamalarına görə, ölkə iqtisadiyyatına xarici tələbələrdən il ərzində 20 milyon ABŞ dolları məbləğində birbaşa investisiya daxil olur) xarici tələbə təhsil almaqdadır.

Bu yolla bir neçə məqsədə eyni anda nail olunur. Beləki, sənayenin innovasiyalar əsasında inkişafı elm və texnologiya potensialının gücləndirilməsi və təhsil imkanlarının genişləndirilməsi nəticəsində mümkün olur. Eyni zamanda, elmin maliyyələşdirilməsinə dövlət büdcəsi resursları ilə yanaşı, digər mənbələrin də cəlb olunması stimullaşdırılır.[1]

[1]Jill Kickul, Thomas S. Lyons – Understanding Entrepreneurship. The Relentless Pursuit of Mission in an Ever Changing World. –, 2014 – ISBN 978-5-9614-4458-2. s. 304




***Şəkil 5.***

Qeyri-neft iqtisadiyyatının təməllərindən biri sayılan sosial müəssisələrin hər hansı bir istənilən regionda insan potensialının, cəmiyyətin güzəranının və sosial mühitin daha da yaxşılaşdırılmasını öz önünə məqsəd qoyaraq bu prioritetlərdən çıxış edir. Bu təcrübə bütün dünyada olduğu kimi, MDB ölkələrində də öz yerini tapmışdır. Rusiya Federasiyasında bu sahədə innovativ işlər sosial müəssisələrə ən böyük dəstəyi göstərən iş adamı Vahid Ələkbərovun «Bizim gələcəyimiz» (Фонд «Наше будущее») fondudur. Adı çəkilən fond artıq bir neçə ildir ki, sosial müəssisələr arasında müsabiqə elan edərək yeni yaranmış və daha faydalı fikirlləri, layihə təklifləri olanları seçərək mükafatlandırır.

Aparılan tədqiqatlar göstərir ki, MDB məkanında bir qayda olaraq adətən, sosial müəssisələr qeyri-hökumət və yaxud qeyri-kommersiya təşkilatları kimi qeydiyyatdan keçirilir. Dünya praktikasında isə bu daha fərqlidir. İnkşaf etmiş ölkələrdə adətən bu daha fərqli olur. Məsələn, ABŞda, sosial müəssisə – «ilk olaraq öz sosial mühiti üçün faydalı olan, lakin biznes modeli istifadə edən təşkilata deyilir». Beləliklə, sosial müəssisə nə QHT kimi, nə biznes müəssisəsi kimi nə də dövlət təşkilatı kimi? fəaliyyət göstərmir. Yəni, dövlətlə bağlılığı ol-

mayan, məqsədi qazanc olmayan və ictimai vəzifə daşımayan, lakin fəaliyyətin baş tutduğu sosiumda fayda verməklə məşğul olan təşkilat.

Sosial müəssisələr birbaşa öz məhsul və xidmətlərinə sosial ehtiyacları olanlara və ya işlə təmin etdikləri qüsurlu adamlara ünvanlanıb. Bu onları «sosial məsuliyyətli biznesden» fərqləndirir, hansı ki, korporativ sosial məsuliyyət təcrübə vasitəsilə dolayı müsbət sosial dəyişiklik yaradır (məsələn, işçilərə ədalətli əmək haqqı ödənilməsi, ekoloji təmiz xammaldan istifadə, ictimai layihələrə kömək etmək üçün könüllülərlə təmin etmək). Bu onları ənənəvi qeyri-kommersiya təşkilatlarından hər şeydən əvvəl xeyriyyə və dövlət dəstəyinə güvənmələri ilə fərqləndirir.

Kanada Sosial Müəssisə Şurası (SECC) «sosial müəssisəni» «qeyri-kommersiya təşkilatı tərəfindən özəlləşdirilmiş, məhsul istehsalı və satışında bilavasitə iştirak edən, gəlir yaradan qarışıq məqsədlərə xidmət edən, sosial, mədəni və ekoloji məqsədlərə nail olan kimi tərif edir. Sosial müəssisələr qeyri-kommersiya təşkilatları vəzifələrini qarşılamaq, istifadə olunan sağlam cəmiyyət formalaşdırmaq üçün əlavə üsuldur.

İngilis kontekstində, sosial müəssisələrə icmaiyyət müəssisələri, kredit ittifaqları, xeyriyyə ticarət silah, işçi məxsus biznes, kooperativlər, inkişaf güvənliyi, mənzil birlikləri, sosial firmalar və asudə güvənliyi daxildir.

Sosial müəssisələrin 3 ümumi xarakteristikası London Sosial Müəssisələri tərəfindən müəyyənləşdirilir:

Müəssisənin istiqamətləri: Onlar birbaşa bazarda malların və ya xidmətlərin istehsalı ilə məşğul olurlar. Onlar əməliyyat çoxluğu ilə canlı ticarət təşkilatları olmaq istəyirlər.

Sosial Məqsədlər: Onlar iş yerlərinin yaradılması, təlim və ya yerli xidmətlər təmin edilməsi kimi açıq sosial məqsədlərə malikdirlər. Onların yerli potensialın gücləndirilməsi üçün öhdəlik daxil olmaqla, etik dəyərləri var və onlar öz üzvləri və onların sosial, ekoloji və iqtisadi təsirlərlə geniş ictimaiyyət üçün məsuliyyət daşıyırlar.

Sosial mülkiyyət: Onlar maraqlı tərəflər (istifadəçilər və ya müştərilər, yerli icma qrupları və s) və ya himayəçinin iştirakı əsasında idarəetmə və mülkiyyət strukturu ilə muxtar təşkilatlardırlar. Mənfəət maraqlı tərəflərə mənfəət bölüşdürülməsi kimi ayrılır və ya cəmiyyətin rifahı üçün istifadə olunur.

Onlardan bəziləri:

CAP Markets – Almaniyada əlilləri işlə təmin edən orta ölçülü qonşu supermarketlərdir. Hər bir bölmə adətən yerli əlillik dərnəyi tərəfindən idarə olunur, amma marka kooperativə məxsusdur. Eləcə də yaxşı iş şəraiti kimi, onlara mehriban şəraiti olan cəmiyyət kimi xidmət edir. CAP-Market zənciri 1998-ci ildən durmadan artıb və 2007-ci ildə 55 mağazaya çatıb. İlk CAP-Market 1999-cu ildə, Ştutqard yaxınlığında Sindelfingendə açıldı. Zəncir böyüyüb 55 mağazaya çatıb ən çox da Baden-Vürttemberqdə, ancaq Almaniyanın digər ərazilərində də artması gözlənilir. Onlar əsasən ağır əlillər üçün 500 iş yeri təmin edirlər. (2006-cı ildə işçi qüvvəsinin təxminən 420 nəfərinin 150-i ixtisaslı işçi, 270-i isə əngəlli insanlar idi.)

Mağazaların təxminən üçdə-biri sığınacaq emalatxanalar tərəfindən idarə olunur, üçdə-ikisi isə bazarda ticarət edən sosial firmalardır. Bəzi birliklər bir neçə mağazanı idarə edir. Bu əlillərə normal iş həyatına uyğunlaşmağa və yerli cəmiyyətin tam inteqrasiya etmiş hissəsi olmağa imkan verir. İşlərin çoxu hansını ki, emalatxana üzərinə götürür, toplaşmaq və ya məntiqi kimi ictimai baxışlardan uzaq həyata keçirir. Digər tərəfdən, istifadəçiləri birbaşa cəmiyyətlə əlaqəyə gətirir və beləliklə, böyük müalicəvi effekt yaradır.

Nyu-Yorkda qeyri-kommersiya yönümlü «Housing Works» iki istiqamətdə – evsizlik və QİÇS əleyhinə mübarizə aparır. Xeyriyyə fondu son zamanlarda 2010-cu il zəlzələsindən sonra Haitiyə sosial yardımı da daxil olmaqla fəaliyyətlərilə çox məşhurdur.[1]

[1]Peredo, A. M., & McLean, M. 2006. Social Entrepreneurship: A Critical Review of the Concept. Journal of World Business. s. 11

1990-cı ildə məşhur ACT UP QİÇS qrupunun fəal 5 üzvü – Keis Silar, Çarles King, Gerri Vells, Erik Sauyer və Vircinia Şubert – qərara aldılar ki, özlərini Nyu-Yorkun ən baxımsız əhalisinə xidmətə həsr etsinlər: Nyu-Yorkda on minlərlə HİV və QİÇS-ə yoluxmuş kişi, qadın və uşaq yaşayır. Fəallar yeni qruplarını «Housing Works» adlandırdılar və inanırdılar ki, daimi evlə təmin olunmaq HİV-ə yoluxmuş insanların sağlam yaşaması üçün əsas yoldur və bununla da virusun yayılmasının qarşısını almaq olar. Onlar həmçinin səhiyyə və hüquqi yardım xidmətləri ilə də təmin edirlər. Qrupun həmçinin Albaniya, Bruklin və Nyu-Yorkda ofisləri var.

Partners in Health (PIH) Boston Massaçusetdə Dr. Paul Farmer, Ofelia Dahl, Tomas J. Vayt, Tod Makormak və Dr.Cim Yong Kim tərəfindən 1987-ci ildə təsis edilən qeyri-kommersiya səhiyyə təşkilatıdır. Təşkilatın hədəfləri «ehtiyac sahiblərinə ən müasir tibb elminin faydalarını gətirmək və ümidsizliyə qarşı bir çarə kimi xidmət etməkdir». PIH xəstələrin müalicəsinin ənənəvi metodlarını və xəstəliklər baş verməmişdən qabaq qarşısını almağın alternativ üsullarını yeniləşdirdi. Bu model hesab edir ki, ilkin tibbi yardım sağlamlıq hüququ olduğuna görə vacibdir və hər kəsə şamil olunmalıdır. PIH yerli oxşar təşkilatlarla kasıbları keyfiyyətli tibbi qayğı ilə təmin etmək üçün uzun müddətli əməkdaşlıq qurmağa çalışır. Təşkilat Harvard Tibb Fakultəsi və Brigham Qadın Xəstəxanası ilə sıx əməkdaşlıq edir.

Təşkilatın modeli belə təsvir olunur: kliniki və sosial maneələr aradan qaldırılır və yoxsulluq içində yaşayan xəstələrə diaqnozun qoyuluşu və müalicəsi pulsuz aparılır. Yoxsulluq çəkən ərazilərdə yaşayan insanlar üçün QİÇS və vərəmin (MDR – TB) müalicəsi bu modellə mümkün olmuşdur.

Ən qədim, ən böyük, ən iddialı və ən çox təkrarlanan PİH-ın flaqman layihəsi Zanmi Lasentedir. İlk dəfə 1985-ci ildə Cange kəndində xəstələrin müalicəsinə başlayan kiçik icma klinika, Compleks Zanmi Lasante (ZL) Sosial tibb halına iki əməliyyat otaqları, böyüklər və uşaq stasionar palataları, yoluxucu xəstəlik mərkəzi (Thomas J.

White Center), bir poliklinika, qadın sağlamlıq ocağı (Proje Sante Fanm), oftalmologiya və 104 – yataq, tam xidmət xəstəxana əsaslı ümumi klinikalar, laboratoriya, bir dərman anbar, bir Qırmızı Xaç qan bankı, rentgenoqrafik xidmətlərlə təmin edilmişdir.

Digər ərazilər Peru, Estado de Çiapas, Meksika, Qvatemala, Boston, Burundi, Lesoto, Ruanda, Malavi, Qazaxıstan, Dominikan Respublikası və Rusiyadır. Tomsk vilayəti, Sibir bölgəsində PİH-ın bir bazası Rusiya Səhiyyə Nazirliyi ilə 1998-ci ildən dünyanın ən pis epidemiyalarından olan, dərmanlara davamlı vərəmlə mübarizə aparmaq üçün əməkdaşlıq edirlər.

«Me to We» Kanada qardaşları Kraiq Kielburger and Mark Kielburger tərəfindən yaradılan ictimai məsuliyyətli məhsullar və xidmətlər təklif edən və gəlirinin yarısını uşaqlara bağışlayan sosial müəssisədir. «Me to We» Kraiq and Mark Kielburger, Thornhill, Ontario qardaşları yeniyetməliklərində Ekvadora cəmiyyəti inkişaf etdirmək üçün məktəb inşa etməyə gələndə başladı. Öz könüllülük təcrübələrindən ilhamlanaraq, başlanğıcda «Leaders Today» adlanan, xeyriyyəçilik tərəfindən cəmiyyətə xidməti inkişaf etdirmək üçün uşaqlara pulsuz liderlik təlimləri və könüllü səyahətləri təklif edən «Me to We»-in əsasını qoydular. Onlar həmçinin, Oprah Vinfrey, Riçard Ger, Ceyn Qudall, Desmond Tutu və digərlərinin əməkdaşlığı ilə özlərinin könüllülük fəlsəfəsi, sosial cəlb və digərlərinə xidmət barədə «Me to We» kitabı yazdılar. «Me to We» sosial şüurlu həyat markasıdır, belə ki, illik xalis mənfəətin yarısı uşaqlara paylanır, digər yarısı isə sosial müəssisənin davamlı saxlanılması üçün yatırılır.

Müəssisənin sosial müəssisə sahəsində idarəetmənin yeni standartları Kanada mediasında qeyd edilmişdir. Bunlar təklif edilir:

- Liderlik düşərgələri və seminarlar;
- Uşaqlar üçün pulsuz inkişaf layihələrinin könüllü üzvləri olan Keniya, Qana, Ekvador, Nikaraqua, Hindistan, Arizona və Çinə könüllü səyahəti;

- Kanada istehsalı olan pulsuz ekoloji geyimlər (Me to We Style);
- Uşaqlara pulsuz cəmiyyətlərdə sənətkarların əllə hazırladığı aksesuarlar (Me to We Artisans);
- Motivasyon/ ruhlandırıcı natiqlər bürosu.

Müəssisə həmçinin Torontoda məhsul və xidmətlərinin keyfiyyəti ilə pərakəndə mağaza kimi fəaliyyət göstərir.

Lakin buna baxmayaraq QHT və sosial müəssisələrin oxşarlığından sui istifadə edənlərin də sayı az deyil. QHT-lərin vergilərdən azad olduğunu nəzərə alsaq. Bundan da əlavə, hər hansı ticari fəaliyyətlə məşğul olan sahibkar, bir sıra qərb ölkələrində QHT-lərə və ya xeyriyyə təşkilatlarına hər hansı bir məbləğdə yardım edirsə, adətən həmin məbləğ qədər, özündən tutulacaq vergidən azad olur. Beləliklə, vergidən yayınaraq böyük qazanc əldə etmə imkanı yaranır. Bu şəraitdən xüsusi ilə qərb ölkələrində istifadə olunur. Məsələn, beynəlxalq maliyyə spekulasiyaları ilə tanınan, maliyyəçi Corc Soros 90-cı illərdə «Açıq Cəmiyyət İnstitutu» adlı sosial işlə məşqul olan bir QHT-ni qeydiyyatdan keçirmişdir. Qeyd edək ki, Corc Soros o vaxta qədər «Quantum fund» adlı özəl şirkət vasitəsi ilə ancaq maliyyə bazarlarında beynəlxalq valyuta ticarəti və fondların opsionlarının alış və satışı ilə məşğul olurdu. O vaxt üçün İngiltərə funt sterlinqinin kursunun aşağı salınmasında ciddi şəkildə günahlandırılan Corc Sorosun artıq bir neçə milyard dollar vəsaitə sahib olduğu bilinir. Corc Soros ticari fəaliyyəti vasitəsi ilə əldə etmiş vəsaitin hamısını «Açıq Cəmiyyət İnstitutu»-na yatıraraq tam vergidən azad olur. Bundan əlavə həmin QHT-nin 120-yə yaxın ölkədə nümayəndəliyini açır. 2015-ci ildə ilk dəfə olaraq Corc Soros ABŞ hökuməti tərəfindən vergidən külli miqdarda yayınmada günahlandırılır.

Beləliklə QHT və sosial müəssisələr bəzən məqsədlərindən kənar istifadə olunur və bu da öz növbəsində özündə sırf maddi maraqlar daşıyır.

Dünyada Sosial Sahibkarlıq və Sosial Müəssisə Nümunələri

Fazle Abed (Banqladeş) dünyanın ən böyük ictimai quruluşunun qurucusudur. Bu quruluşun 30 mindən çox işçisi var. Abed, təhsil, səhiyyə, sosial və maliyyə işləri mövzusunda yeni fikirlərin ortaya çıxmasında liderlik etmişdir. Ayrıca yerli inkişaf üçün bölgə insanlarına səlahiyyət və ehtiyacı olan milyonlarla adama da xidmət göstərmişdir. Onun araşdırmaları başqa ölkələr tərəfindən sürətlə nümunə alınmış, onun modeli bütün dünyaya yayılmışdır. Fazle Abed, araşdırmalarının yayılması üçün bir çox təhsil proqramları təşkil etmiş və kitablar çap etdirmişdir[1].

Peter Eigen (Almaniya) 1993-ci ildə qurulan «İctimai Şəffaflıq Hərəkatı»nın qurucusudur. Eigen, sui-istifadəyə qarşı aparılan mübarizənin qlobal lideridir. O, korrupsiyanın fərdi deyil sistemlə əlaqədar bir problem olduğundan yola çıxaraq müxtəlif tədqiqat metodları inkişaf etdirdi. Beləliklə proqramını hər səviyyədəki insanın anlayıb təqib edə bilməsini mümkün etdi[2].

Oded Grajew (Braziliya) Dünya İctimai Forumunun qurucusudur. Mənfəət güdməyən 80 min quruluşun qatıldığı bu forum dünyada kapitalizmə qarşı alternativ bir həll təklifi meydana gətirməyi qarşısına məqsəd qoymaqdadır. Grajew, qloballaşan dünyada tək variantın kapitalizm ola bilməyəcəyini düşünən və bu mövzuda həll çıxarmaq istəyən adamdır. Davosdakı Dünya İqtisadi Forumunda alternativ yaratmaq üzrə işlər aparılır. Dünya Sosial Forumu, alternativ bir dünyanın necə mümkün ola biləcəyinə bağlı düşüncələri və intellektual sərmayəni inkişaf etdirməyi hədəfləyir. Neo-liberal qloballaşmanın, dünyamızda yaratdığı dərin təxribata qarşı təsirli bir müqavimət göstərir. Oded Grajew, eyni zamanda rəhbəri olduğu «İş Dünyası Sosial Məsuliyyət İnstitutu»nu da qurmuşdur[3].

Alice Tepper Marlin (ABŞ) «Beynəlxalq Sosial Məsuliyyət Vəqfi»nin qurucusudur. Bu vəqf, birinci sinif standartlar meydana gə-

---

[1] www.brac.net
[2] www.transparency.org
[3] www.worldforum.org

tirən və təşkilatlara nəzarət edən bir quruluşdur. İş yerləri, iş və cəmiyyət üçün meydana gətirdiyi standartlar (SA8000) dünyada 40-dan çox ölkədə və 40-dan çox sənaye sektorunda istifadə olunur[1].

Jeroo Billimoria Hindistanda böyük bir problem olan küçə uşaqları üçün, küçə uşaqları tərəfindən idarə edilən, pulsuz kömək xətti qurdu. Hal-hazırda 58 şəhərdə xidmət verən və getdikcə yayılan bu sistem, uşaqların yalnız bir telefon nömrəsi yığaraq 24 saat ərzində istər polis, istərsədə sağlamlıq dəstəyi alabilməsini təmin edir. Bu ana qədər 2 milyondan çox çağırış alınmışdır. Bu layihənin 100-dən çox başqa şəhərdə də başlaması sürətli bir şəkildə beynəlxalq ölçüyə keçdiyini göstərir.

Dener Giovanini (Braziliya) dünyada üçüncü ən böyük qeyri-qanuni ticarət olan vəhşi heyvan qaçaqçılığına Braziliyada son vermək üçün milli birlik qurdu. Ünsiyyət vasitəsi kimi internet istifadə edərək 580 təşkilat və 30 min fərdə çatdı. Məqsədini reallaşdırmaq üçün bəzi qaydaların dəyişməsini təmin etdi.

J.B. Schramm (ABŞ). ABŞ-da ali təhsil ödənişlidir. Əgər liseydə qiymətiniz ortalama yüksək, müvəffəqiyyətli bir tələbəsiniz və iqtisadi vəziyyətiniz yaxşı deyilsə, təqaüd alaraq oxuya bilərsiniz. Digər tərəfdən, dərslərdə çox müvəffəqiyyətli olmasanız da, əgər ailənizin gəlir vəziyyəti məktəb pulunu ödəyəcək qədər yaxşı isə yenə universitetdə oxuma şansına sahib ola bilərsiniz. Dərsləri orta dərəcədə olan, gəlir səviyyəsi aşağı ailələrin uşaqlarının universitetə girmə nisbəti yalnız yüzdə 34-dür. Bunu dəyişdirmək istəyən SCHRAMM «College Summit» adında program başlatmışdır. Bu sahədə universitetə hazırlanma prosesində şansı olmayanları dörd günlük seminarla 6 aylıq müraciət müddətinə hazırlayır. Bu seminara qatılan aşağı gəlir səviyyəli tələbələrin universitetlərə qəbul olma nisbəti keçmişdəkilərin iki qatını aşaraq yüzdə 79-a çıxmışdır.

---

[1] www.sa-intil.org

Petra Vitousova Çex Respublikasında gedərək artan cinayət nisbətinə qarşı, bu hadisələrin qurbanlarının az qala heç bir qanuni haqqa sahib olmamasına etiraz məqsədilə bir dərnək qurdu. Bu dərnək zərər çəkmiş insanlara məsləhət, hadisə sonrası psixoloji və hüquqi kömək kimi müxtəlif xidmətlər verərkən eyni zamanda ölkədə bu mövzu ilə əlaqədar qanunun dəyişdirilməsini də təmin etməyə çalışır. Bu islahat başqa ölkələrdə də yayılmağa başlayır.

Veronica Khosa (Cənubi Afrika). Cənubi Afrikadakı səhiyyə sistemi Ashoka üzvü Veronica Khosa'yı ziyana aparmışdır. Tibb bacısı olan Veronica, xəstə insanların vəziyyətinin ağır olduğunu, yaşlı insanların həkim tapa bilmədiyini, boş yataq olmasına baxmayaraq HIV-li xəstələrin xəstəxanalara qəbul edilmədiyini görmüşdü. Bunun nəticəsində «Tateni Home Care Nursing Services»i quraraq, ölkəsində «home care» (evdə baxım) anlayışını başlatdı. Başlanğıcda Veronica və qrupu yollara düşərək insanlara evlərinin rahat və etibarlı mühitində, o günə qədər heç görmədikləri səhiyyə xidməti təqdim etdilər. Yalnız bir neçə il sonra, dövlət Veronicanın proyektini özünə uyğunlaşdırdı və qabaqcıl səhiyyə təşkilatlarının tanımasıyla bu fikir Cənubi Afrika xaricinə də yayıldı. Veronica kimi ictimai sahibkarlar ictimai problemlərin həllinə geniş bir çərçivədən yaxınlaşmaqdadır[1].

Tomasz Sadovski Polşada köhnə sistemdən boş qalan dövlət fermalarında evsizləri yerləşdirib onların yaşadıqları fermalara sahib çıxmasını və tarlaların biçilməsini təmin etdi. Beləliklə həm boş qalan fermalarda təkrar istehsal başlamış oldu, həm də evsizlər ev və iş sahibi oldu.

Rogelio Padilla (Meksika) küçələrdə işləyən və ya yaşayan uşaqlara sığınma, bəslənmə və iş imkanı gətirməklə yanaşı, sevgi dolu bir yuva mühiti yaradaraq onların özlərinə inam qazanmalarını təmin edir.

---

[1] www.healthmarketinnovations.org

Fazle Abed, Peter Eigen, Oded Grajev, Alice Tepper Marlin və Ashoka qurucusu Bill Drayton bir araya gələrək Sosial Sahibkarlıq Qlobal Akademiyasını qurdular[1]. Türkiyədə Ashoka 22 fevral 2004-cü il tarixində rəsmi olaraq fəaliyyətə başlamışdır. Ashoka-nın hal-hazırda 16-dan çox üzvü var. Hər bir üzv etdiyi işlərlə həm ictimai bir problemə həll təklif edir, həm də model meydana gətirməkdədir. İldə iki dəfə toplanan üzvlər ictimai sahibkarlıqda ortaq həll təklifləri inkişaf etdirməkdədir. Hər il təşkil edilən müsahibələr vasitəsilə yeni sosial sahibkarlar «Ashoka Türkiyə» ailəsinə qatılmaqdadır[2].

Ercan Tutal (Türkiyə) 1997-ci ildən bəri könüllü olaraq əlillərin ictimai həyata daha bərabər qatılmalarını hədəfləyən layihələr tətbiq edir. İcra etdiyi könüllü və pulsuz proqramlarda 500-dən çox insan sualtı dünyası ilə tanış oldu. «Alternativ Kamp», «Maneəsiz həyat» şüarı ilə əlillərə və fərqli ehtiyac qruplarına alternativ sosial, mədəni və idman həyat sahələri açmağı hədəfləyir. Düşərgədə dünyanın dörd bir tərəfindən gələn könüllülər çalışır[3].

Günəşin Aydemir təxminən 12 ildir müxtəlif təbiət qoruma layihələrinə dəstək verir. Ən son çalışdığı «Təbii Həyatı Qoruma Dərnəyi»ndən, yerli yayılmaq və mövzuyla əlaqədar məlumatı daha çox insanla müstəqil bir platformada paylaşmaq məqsədiylə 2002-ci ildə ayrıldı. Hal-hazırda bir çox quruluşla, milli və yerli səviyyədə işlər icra edir, təcrübələrini və dünyagörüşünü onlarla paylaşır. Məqsədi, Türkiyədə təbiəti qorumaq üçün verilən mübarizədə tərəflərin güclərini birləşdirərək ortaq bir platformada güvən içərisində məlumatlarını paylaşmalarını təmin etməkdir[4].

Naşide Buluttekin Diyarbəkirdə yoxsul qadınların öz təşkilatlarını qurmalarına və öz ehtiyacları üçün hərəkətə keçmələrinə inandığından, sahədə çalışdığı qadınlarla «Umut Işığı Qadın Kooperatifi»-ni

[1] www.ashoka.org
[2] turkey.ashoka.org
[3] www.alternativecamp.org
[4] www.dogadernegi.org

qurdu. Diyarbakırın yoxsulluq və cinayət nisbətinin Türkiyə ortalamasının üstündə olduğu bir məhəlləsində açdığı ana-uşaq təhsil mərkəzlərində, anaları da təhsil prosesinə cəlb edərək uşaqların sağlam olaraq inkişafına dəstək verir. Məktəbəqədər təhsil modelini, bu məhəllədə yaşayan «məhəllə anaları» vasitəsilə tətbiq Naşide Buluttekin, uşaqların cinayətə və küçəyə atılmasına maneə törədir. Kooperativ qurulduğu 2002-ci ildən bu yana mindən çox uşağa təhsil imkanı təmin etmişdir.

Nebahat Akkoç, 1997-ci ildə «Qadın Mərkəzi»ni qurdu. Qadınların ailə içi şiddət mövzusunda təcili və kritik ehtiyaclarına cavab verərkən, eyni zamanda qadınların bir vətəndaş, yoldaş və ana olaraq hüquqlarının qorunmasını qarşısına məqsəd qoydu. Nebahat Akkoç, doğru bir üsul və əlaqə tərzi ilə bölgə qadınlarının bu işə sahib çıxdığına inanır. Bu işdə dəstək verənlər ilə dəstək istəyənlərin bərabər şərtlərdə ünsiyyət içində olmasına, öz ayaqları üzərində dayanmağı bacaran güclü bir qadın hərəkəti yaradılmasının mümkün olacağına inanırdı[1].

Nevin Eracar (Otistikler Dərnəyi). Psixoloq olan Nevin Eracar, hər zaman cəmiyyətdən uzaqlarda bir yerlərdə saxlanan və hətta cəmiyyət tərəfindən xariclənən zehni maneəli uşaqları yeni bir inteqrasiya üsuluyla öyrədən ilk adam oldu. Fərqli doğulan və fərqli hərəkət edən insanlarla birgə yaşayışın yollarını cəmiyyətə göstərən bu yanaşması sistematik bir dəyişmə yaratdı. «Fərqliliklər ilə birlikdə yaşamağı öyrənmək» faktını ilk əvvəl otistik uşaq ilə etdiyi işlərdə həyata keçirdi. Fərqli olanların cəmiyyətə uyğunlaşmasının təmin edilməsinin, birlikdə yaşamağı öyrənmənin hər kəs üçün ideal olduğuna inanır. Bizə görə fərqli olan, mədəniyyətdən mədəniyyətə dəyişməkdədir. Bu fərqliliyi anlamağa çalışmaq və qəbul etmək hər kəs üçün bir qazanc olacaq. Eracar, «Bir-birimizi nə qədər anlamağa çalışsaq, özümüzü də o qədər inkişaf etdirmiş olacağıq» deyə düşünməkdədir[2].

---

[1] www.kamer.org.tr
[2] www.otistiklerdernegi.org.tr

Sənəm Gül İstanbul Nurtepe'de yaşayan qadınlarla birlikdə qurduğu «İlk Adım Qadın Kooperativ» ilə yaşadığı bölgənin problemlərinə həll axtarır. Yeni bir qadın liderliyi forması meydana gətirən Gül, fərqli etnik biliklərə və siyasi fikirlərdən gələn qadınları eyni damın altında yığır. Yoxsulluğun və şiddət hadisələrinin sıx görüldüyü bir məhəllədə, məhəllə sakinlərini də təşkilatlandırmaq yoxsulluqla mübarizə edir. Qadınlar üçün kollektiv iş imkanları yaradır. Bu fəaliyyətlərdən gələn gəlirlərin əhəmiyyətli bir hissəsi, qadın və uşaq təhsilləri üçün xərclənir.

Yusuf Kulca'nın təxminən iyirmi il əvvəl başlatdığı küçə uşaqları ilə əlaqədar qabaqcıl işləri nəticəsində, bu gün uşaqların qalmağa yerləri, yeməkləri və əgər ailələri varsa, onlara dönə bilmək üçün məsləhət alma xidməti və iş imkanları var. Küçə uşaqları ilə əlaqədar işləri artıq Türkiyə daxilində nümunə alınan Yusuf Kulca həm ictimai quruluşlarına, həm də vətəndaş təşkilatlara məsləhətçilik edərək yeni iş alternativlərinin meydana gəlməsində aktiv yer almaqdadır[1].

Göründüyü kimi, yuxarıda verilən nümunələrdə, ictimai təşəbbüskar balıq tutmağı öyrətməyi deyil, balıqçılıq sisteminə yeni həll təklifləri gətirməyi qarşısına məqsəd qoymaqdadır. Başqa bir sözlə, mövcud olan quruluşu dəyişdirərək, yeni və yaradıcı həllər tapıb qəbul ediləcək hala gətirənə qədər mübarizə aparmaqdadır. Cəmiyyətin problemli nöqtələrini tapıb, onları dəyişməyi təmin edəcək yeni fikirlər inkişaf etdirməkdədir. Sosial sərmayə yaratdığı inqilab cəmiyyətin özünü konfiqurasiya formasını və ictimai problemlərə yanaşmasını kökündən dəyişir.

[1] www.umutcocukları.org.tr

# II fəsil

# AZƏRBAYCANDA SOSİAL MÜƏSSİSƏLƏRİN FƏALİYYƏTİ SAHƏSİNDƏ MÖVCUD VƏZİYYƏTİN ANALİTİK TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1. Sosial müəssisələr (sosial müəssisə anlayışının məzmunu, təzahür formaları, problem və perspektivləri)

XX əsrin 70-80-ci illərindən etibarən ABŞ və Avropada eyni vaxtda sosial müəssisələrin inkişafı prosesi müşahidə olundu. Müvafiq olaraq, ABŞ və Qərbi Avropa ölkələrinin iqtisadi ədəbiyyatlarında sosial müəssisə, sosial sahibkarlıq anlayışıları ilə əlaqədar ilk və təfsilatlı araşdırmalar diqqəti cəlb etməyə başladı. Azərbaycan Respublikasında isə sosial müəssisə, sosial sahibkarlıq anlayışları, bütün postsovet məkanında olduğu kimi, keçid dövrü başa çatdıqdan sonra aktuallıq qazanıb. Yəni, müstəqillik illərində bazar iqtisadiyyatı münasibətlərinin bərqərar olması şəraitində, sosial sahibkarlıq institutlarının da mövcud olması zərurəti getdikcə daha çox hiss olunmaqdadır .

Göründüyü kimi, son illərdə sosial müəssisələrin və sosial sahibkarlıq institutlarının yaradılması bütün dünyada iqtisadi trendə (dəb, adət, moda) çevrilmişdir. Sosial müəssisələrə bütün dünyada akademik maraq da getdikcə artmaqdadır. Bir çox biznes məktəblərində «sosial sahibkarlıq» fakültələri yaradılaraq tələbələr üçün ixtisas kursları, mühazirələr, beynəlxalq konfranslar təşkil olunur. İq-

tisadçıların əksəriyyəti sosial müəssisə və sahibkarlıq institutlarını XXI əsrin sosial-iqtisadi trendi kimi də göstərirlər.[1]

Artıq 30 ildən çoxdur ki, ABŞ, Avropa və dünyanın bir çox ölkələrində sosial sahibkarlıq sektorunun əhəmiyyəti xüsusi ilə artmışdır. Qeyd edilən iqtisadi təzahür maliyyələşdirmənin və sosial təşəbbüslərin daha populyar forması kimi sosial problemlərin həlli üçün qeyri-dövlət mexanizmlərindən istifadə olunması kimi diqqəti cəlb edir. Lakin eyni zamanda nəzərə almaq lazımdır ki, «sosial müəssisə anlayışının» məzmunu iqtisadi ədəbiyyatlarda fərqli şəkildə şərh olunmuşdur.

Müvafiq olaraq, «sosial müəssisə» anlayışının akademik məktəblərdə məzmununun dərk olunması ilə əlaqədar mövqelərə diqqət yetirilməsi yerinə düşərdi. Ümumiyyətlə, sosial müəssisələrin məzmununun dərk olunması ilə əlaqədar iki akademik məktəbin nümayəndələrinin fikirləri xüsusi olaraq qeyd olunmalıdır.

Birinci akademik məktəbin təmsilçisi Jer Boşi hesab edir ki, sosial müəssisələr, sosial rifah və maliyyə sərvətlərinin yaranmasına xidmət edir. Burada sosial rifah və maliyyə sərvətləri eyni əhəmiyyətli dəyərlər kimi qiymətləndirilir. Onların fəaliyyət prinsipi aşağıdakı kimi göstərilir:

***Sahibkarlıq + innovasiya + gəlir gətirən = Sosial müəssisə***

İkinci akademik məktəbin nümayəndəsi doktor Qreq Dis (Dük Universiteti) hesab edir ki, sosial müəssisə sosial rifaha xidmət edən nemətlər yaradan ictimai təşkilatdır, fəaliyyəti zamanı məqsədlərinə çatması üçün biznes elementlərindən istifadə edir. Burada sosial rifaha xidmət edən nemətlər və maliyyə sərvətləri bərabər əhəmiyyətli dəyərlər kimi qiymətləndirilmir. Fəaliyyət prinsipi aşağıdakı kimi göstərilir:

---

[1] Johanna Mair, Social entrepreneurship : taking stock and looking ahead, WORLD ENTREPRENEURSHIP FORUM 2008 EDITION, IESE Business School, pp.2

***Sahibkarlıq+ innovasiya + digər biznes prinsiplər = Sosial müəssisələr (Kombinə edilmiş maliyyə mənbələrindən istifadə edir: dövlət, korporasiya, beynəlxalq fondlar).***[1]

Hər iki məktəbin mühakimələrinin ümimiləşdirilməsi əsasında qeyd etmək olar ki, sosial müəssisələr ənənəvi müəssisələrlə xeyriyyəçilik müəssisə və təşkilatları arasında yerləşdirilən müəssisələrin təşkil olunması və fəaliyyətinin aralıq forması kimi də qiymətləndirilə bilər.

Müasir dünyada sosial müəssisələrin ilk nümunəsi kimi Vilyam Dreyton tərəfindən yaradılan qeyri-kommersiya təşkilatı «Aşoka: cəmiyyət üçün novatorlar» (Ashoka: İnnovators for the Public) göstərilir. Fəaliyyət göstərdiyi illərdə «Aşoka» bütün dünyada 25 regional mərkəz yaratmışdır. Regional mərkəzlərin yaradılmasında məqsəd sosial sahibkarların seçilməsi və dəstəklənməsi idi. «Aşoka» sosial sahibkarlara maliyyə və konsaltinq yardımı göstərir, sosial sektorun inkişafı və innovasiyaların yayılması üçün infrastrukturun yaradılmasına kömək edirdi.

Aşokanın yaradılmasından üç il sonra iqtisadiyyat üzrə professor, banqladeşli Məhəmməd Yunus Banqladeşdə «Qramin bankı» («Kənd bankı») təsis etdi. Sözügedən bank dünyada ilk dəfə olaraq kəndlilələrə girov qoymadan mikrokreditlər verməyə başladı. Həmin bankın kreditləri ilə minlərlə Banqladeş kəndlisi yoxsulluqdan xilas ola bildi. Dünya praktikasında digər nümunələr qismində Hindistandakı oftalmoloji «Aravind» klinikası və Misirdə çoxprofilli «Sekem» holdinqi göstərilə bilər. Misirdəki sözügedən holdinqin köməkliyi ilə məktəblər, universitetlər, təhsil və sağlamlıq mərkəzləri yaradılmışdır.

Son illərin sosial iqtisadi trendlərindən biri kimi diqqəti cəlb edən sosial müəssisələrin dünyanın bir çox ölkələrində özünəməxsus

---

[1] Грегори Дж.Дис. Бизнес без границ: смысл термина «социадьное предпринимательства»: www/nb-forum/ru/thanalitic_391_74

xüsusiyyətləri mövcuddur və məhz bu baxımdan bəzi ölkələrdə sosial müəssisələrin spesifikasına diqqətin yetirilməsi yerinə düşərdi.

ABŞ-da akademik dairələrdə sosial müəssisə anlayışı adı altında cəmiyyət üçün faydalı işlər yerinə yetirən kommersiya müəssisələrinin (korporativ xeyriyyə təşkilatları və biznesin sosial məsuliyyətliliyi) əksəriyyəti, iki qat təyinatlı müəssisələr – yəni hibrid təşkilatlar (qeyri-kommersiya və kommersiya təyinatlı), bəzən xeyriyyə təşkilatları kimi başa düşülür. Qeyd etmək lazımıdır ki, «sosial müəssisə» anlayışı ABŞ-da XX əsrin 70-ci illərində qeyri-kommersiya təşkilatlarının sosial cəhətdən az təminatlı əhali qruplarının iş yerləri ilə təmin olunması məqsədlərinə xidmət edən kommersiya fəaliyyətlərinin təsvir edilməsi üçün işlənməyə başlanılmışdır. ABŞ-da sosial müəssisələr qeyri-hökumət təşkilatlarına dövlət maliyyələşdirmələrinin azaldılması dövründə daha da populyarlaşdı. Qeyri-kommersiya təşkilatları dövlət vəsaitlərinin yerini digər vəsaitlərlə doldurulması üçün kommersiya fəaliyyətlərini genişləndirməyə məcbur oldular. ABŞ Milli Statistika Mərkəzinin materiallarının təhlili əsasında məlum oldu ki, 1982-2002-ci illərdə qeyri-kommersiya təşkilatlarının kommersiya mənfəətləri 219%, özəl ianələr 197%, dövlət qrantlarının həcmi 169% artmışdır. Eyni zamanda qeyri-kommersiya təşkilatlarının kommersiya gəlirlərinin udel çəkisi ümumi gəlirdə artmağa başladı. Əgər 1982-ci ildə qeyri-kommersiya təşkilatlarında kommersiya gəlirləri 48,1% idi isə, bu göstərici 2002-ci ildə 57,6% olmuşdur. Müvafiq olaraq özəl ianələr 19%-dən 22,2%-ə, dövlət qrantları 17%-dən 17,2%-ə yüksəlmişdir.

Qərbi Avropa ölkələrində ABŞ-dan fərqli olaraq sosial sahibkarlıq və sosial müəssisələrin yaranması tendensiyaları bir qədər gec müşahidə edilmişdir. XX əsrin 70-ci illərindən 90-cı illərinə qədər Avropa ölkələrində iqtisadi artım tempinin aşağı düşməsi və işsizliyin artması ilə Avropada sosial təminat sistemi böhran keçirirdi. 80-90-cı illərdə Avropa İttifaqında işsizlik 3-4%-dən 10%-ə qədər artmışdı. 90-cı illərdə işsizlərin əksəriyyətini, yəni 40%-ni uzun müddət ərzində iş-

siz olanlar təşkil edirdi. Müqayisə üçün qeyd etmək lazımdır ki, bu göstərici ABŞ-da 12%, Yaponiyada 15% olmuşdur.

Dövlət büdcəsindən sosial məqsədlər üçün vəsaitlərin xərclənməsinin azaldılması sosial xidmətlər sahəsində tələbatların təmin olunması üçün alternativlərə tələbi artırırdı. Müvafiq olaraq sosial müəssisələrin yaranması zərurəti getdikcə daha çox hiss olunmağa başlanıldı. Nəticədə yeni iş yerlərinin yaradılması, fərdi sosial təminat proqramlarının hazırlanaraq reallaşdırılması və müvafiq strukturların təsis olunması Avropada geniş vüsət aldı.[1]

Hal-hazırda Avropanın 20 ölkəsində rəsmi olaraq sosial müəssisələr təsərrüfat fəaliyyəti növü kimi tanınmışdır, 8 ölkədə (Bolqarıstan, Yunanıstan, Fransa, İtaliya, Lüksemburq, Sloveniya, Birləşmiş Krallıq) sosial müəssisələrin yaradılması və inkişaf etdirilməsinin stimullaşdırılması üçün qanunvericilik bazası yaradılmışdır. Sosial müəssisələrə qeyd edilən hüquqi dəstəyin strukturu şəkil 6-da əks olunmuşdur.

Avropa İttifaqı ölkələrinin təcrübəsinin təhlili göstərdi ki, Azərbaycan üçün sosial sahibkarlığın inkişaf etdirilməsinin ən münasib modeli İtaliya modelidir. Sosial sahibkarlığın (italyan dilində Impresa Sociale) çox illik təcrübəsinin təhlili göstərir ki, İtaliya bu sahədə ilk təşəbbüslər göstərən pioner ölkə kimi diqqəti cəlb edir.[2]

İtaliyanın sosial müəssisələrinin modeli Avropa İttifaqının bir çox ölkələrində sınaqdan keçirilmiş, Polşa və Belçika da isə uğurla tətbiq olunmuşdur.

Sosial müəssisələrin fəaliyyətini tənzimləyən əsas qanun 2006-cı ildə qəbul olunmuşdur. Sözügedən qanunun müddəalarına görə sosial müəssisələr o, müəssisələr hesab olunur ki, həmin müəssisələrin

---

[1] Джанель А. Керлин, Социальные предприятия в США и Европе: Понять различия и извлечь из них уроки; Статья опубликована в Интернете: 28 сентября 2006 г.

[2] The social economy in the EU. // R. Chavez, J.L. Monzon. 05/2005. Доклад, подготовленный авторами из Международного Центра информации по общественной, кооперативной, народной экономике (CIRIEC)

fəaliyyəti sosial təyinatlı məhsul və xidmətlərin reallaşdırılmasına yönəldilmişdir (Qanun 155/2006).



***Şəkil 6. Sosial müəssisələrlə əlaqədar hüquqi normalar[1] .***

[1] http://www.normattiva.it/uri-res/N2Ls?urn:nir:stato:legge:1991;381

Sosial kooperativlər İtaliyada sosial sahibkarlıq strukturlarında mühüm yerləri tutur, tarixi baxımdan onun ilk formasıdır, fəaliyyəti qanunvericiliklə təsbit olunmuşdur: Sosial kooperativlərin fəaliyyətini tənzimləyən qanun 1991-ci ildə qəbul olunmuşdur.

1991-ci ildə İtaliya parlamenti 381 №-li qanun layihəsini qəbul etdi, layihədə sosial kooperativlərin yaradılması mexanizmi öz əksini tapmışdır.[1]

Qanunda kooperativlərin müəyyən sosial prinsiplərlə işləməsi göstərilir və onların fəaliyyətlərindəki bu fərqli cəhətin onlara yeni statusun vermədiyi də bildirilirdi. Qanunda həmçinin qeyd olunurdu ki, kooperativlər cəmiyyətin rifahı üçün çalışmalı, insanların italiyan cəmiyyətinə inteqrasiya olunmasına xidmət etməlidirlər:

Kooperativlər iki qrupa bölünürdü:

• A qrupuna daxil olan kooperativlər əhalinin aztəminatlı və əlil hissəsinə xidmətlər göstərən kooperativlər kimi təsbit olunmuşdu;

• B qrupuna daxil edilən kooperativlər əmtəə və məhsul istehsal edən və əhalinin əlil və aztəminatlı hissəsinin çalışması məqsədilə yaradılan müəssisələr kimi nəzərdə tutulmuşdu (30%-dən az olmayaraq).

2005-ci ildə ölkədə 7300-dən çox sosial kooperativ mövcud idi, bu müəssisələrdə 244 min işçi çalışırdı. 2011-ci ildə 12500 kooperativdə 500 min işçi çalışırdı.[2]

2011-ci ildə bütün sosial kooperativlərin ümumi gəliri 10 milyard avro olmuşdur. Sosial kooperativlərin 16%-i ildə 1 milyon avro, 72,4%-i – 500 mindən bir qədər az gəlir əldə edirdilər. 2012-ci ildə İtaliyada artıq 17 min belə müəssisə var idi.[3]

Göründüyü kimi, ABŞ, Avropa və dünyanın bir çox regionlarında sosial müəssisə və sahibkarlıq institutlarının müxtəlif təzahür for-

---

[1] http://www.fp7-efeseiis.eu/national-report-italy/
[2] http://www.fp7-efeseiis.eu/national-report-italy/
[3] http://www.irisnetwork.it/wp-content/uploads/2014/12/Rapporto-Iris-Network.pdf

malarına rast gəlmək mümkündür. İqtisadi ədəbiyyatlarda sözügedən təsisatları tip və formalar üzrə qruplaşdırırlar. Bunlar aşağıdakılardır:

- *Birinci tip sosial müəssisələrin* təsərrüfat fəaliyyətlərinin əsas məqsədləri mənfəətin əldə edilməsi deyil, burada önəmli olan ölkə vətəndaşlarının, şəhər və region əhalisinin sosial və iqtisadi tələbatlarının təmin olunmasıdır. Sosial müəssisələrin adətən milli, regional, yerli səviyyələrdə vergi və digər imtiyazları olur.
- *İkinci tip sosial müəssisələr* əgər təsərrüfat fəaliyyəti ilə məşğuldurlarsa, əldə edilən gəlir onun sahibkarları (dövlət, region, şəhər, vətəndaşlar) arasında bölüşdürülmür. Müəssisənin gəlirləri ancaq sosial və ictimai faydalı məqsədlərin reallaşdırılması üçün istifadə olunur. Lakin dünya praktikasında müəyyən istisnalarda vardır. Məsələn, İspaniya və Fransada sosial müəssisələrin gəlirləri ciddi müəyyənləşdirilmiş həcmlərdə mülkiyyət sahibkarları arasında bölüşdürülə bilər.
- *Üçüncü tip sosial müəssisələrdə* təsərrüfat fəaliyyətinin idarə olunması sistemi demokratik əsaslar üzərində qurulur, işçilərin maddi nemətlərin istehsalında iştirakı əmək hüququna əsaslanır.
- *Dördüncü tip sosial müəssisələrin* idarəetmədə geniş müxtariyyəti vardır.
- *Beşinci tip sosial müəssisələrin* mülkiyyətinin istifadə olunması üzərində geniş ictimai nəzarət tətbiq olunur.

Eyni zamanda dünya təcrübəsi göstərir ki, sosial müəssisələrin müxtəlif təşkilati-hüquqi formaları mövcuddur.

*Birinci forma* – dövlət və yaxud dövlət büdcəsindən maliyyələşdirilən müəssisələrdir ki, həmin müəssisələrin əsas məqsədi iqtisadi və sosial problemlərin həll edilməsi üçün gəlirlərin əldə olunmasıdır.

*İkinci forma* – bələdiyyə büdcəsindən maliyyələşdirilən bələdiyyə müəssisələridir.

*Üçüncü forma* – istehsal kooperativləridir (nizamnaməsində kooperativin əsas məqsədi kimi mənfəətin əldə edilməsi deyil, sosial və iqtisadi problemlərin həlli bəyan olunur).

*Dördüncü forma* – əsas məqsədləri konkret regionun, şəhərin, ərazinin sosial tələbatlarının ödənilməsi olan sosial kooperativlərdir.

*Beşinci forma* – istehlak kooperativləridir; *altıncı forma* kollektiv mülkiyyət müəssisələrinin digər növləri; özəl qeyri-kommersiya təşkilatı; *səkkinzi forma* «vətəndaşların özünə yardım müəssisələri».

Lakin daha çox yayılmış sosial müəssisələri aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

I – Sosial Biznes strukturları.

II – Əsas məqsədi gəlir əldə edilməsi deyil, sosial iqtisadi problemlərin həllinə xidmət edən müəssisələr.

III – Hibrid müəssisələr.

Müasir dövrdə hibrid sosial müəssisələr daha geniş yayılmışdır (*bax:* şəkil 7). Yəni bütün dünyada mövcud sosial müəssisələrin təxmini olaraq yarısı hibrid müəssisələrdir.




***Şəkil 7. Sosial müəssisələrin ən çox yayılmış formaları***

***Mənbə:*** *Leadership in Social Enterprise How to Manage Yourself and the Team \\ Schawb Foundation for social entrepreneurhip May 2014, p. 49*

Bütün bunlar isə öz növbəsində ABŞ və Qərbi Avropa ölkələrində sosial müəssisələrin yaranması, fəaliyyəti və inkişaf xüsusiyyətlərində bəzi fərqləri müəyyənləşdirməyə imkan yaradır (*bax:* cədvəl 7).

**Cədvəl 7. ABŞ və Avropa ölkələrinin sosial müəssisələrinin müqayisəli xarakterizə edilməsi**

| | ABŞ | Avropa | Azərbaycan |
|---|---|---|---|
| **Fəaliyyətinin əsas məqsədi** | Mənfəətin əldə olunması | Cəmiyyət üçün fayda | Cəmiyyət üçün fayda |
| **Geniş yayılmış təşkilat tipi** | Qeyri-kommersiya təşkilatı | Birlik və kooperativlər | Qeyri-kommersiya təşkilatı |
| **Fəaliyyət növü** | İstənilən qeyri-kommersiya fəaliyyəti | Xidmət sferası | Xidmət sferası |
| **Sosial müəssisələrin növlərinin rəngarəngliyi** | Çox | Az | Az |
| **İstifadəçinin fəaliyyətə cəlb olunması** | Məhdud | Geniş yayılmışdır | Məhdud |
| **Strateji inkişaf** | Fondlar | Hökumət/Avropa İttifaqı | Fond |
| **Araşdırmalar** | Biznes-məktəblər-sosioloqlar | sosioloqlar | - |
| **Kontekst** | Bazar iqtisadiyyatı | Sosial iqtisadiyyat | Sosial iqtisadiyyat |
| Hüquqi baza | Kifayət qədər inkişaf etməmişdir | Kifayət qədər inkişaf etməsə də irəliləyişlər var. | - |

***Mənbə:*** *Джанель А. Керлин, Социальные предприятия в США и Европе: Понять различия и извлечь из них уроки, Статья опубликована в Интернете: 28 сентября 2006 г. Международное сообщество исследований третьего сектора и Университет Джона Хопкинса,*

Qeyd etmək lazımdır ki, sosial müəssisə və sahibkarlıq institutlarının dünyanın ayrı-ayrı regionlarında yerləşməsi mənzərəsi də diqqəti cəlb edir. ***«Şvab Sosial Sahibkarlıq Fondunun»*** hesablamalarına görə sosial müəssisə və sahibkarlıq institutlarının 6%-i Yaxın Şərqin, 14%-i Afrikanın, 17%-i Avropanın, 14%-i Şimali Amerikanın, 22%-i Latın Amerikası, 27%-i isə Asiyanın payına düşür.[1]




***Şəkil 8. Sosial müəssissə və sahibkarlıq institutlarının regional tərkibi***

***Mənbə:*** *Leadership in Social Enterprise How to Manage Yourself and the Team \\ Schawb Foundation for social entrepreneurhip May 2014, p. 50*

Cəmiyyət üçün nə qədər faydalı fəaliyyət göstərsələr və hər nə qədər də sosial yönümlü iqtisadiyyatın formalaşdırılmasında xüsusi əhəmiyyətləri olsa da hətta dünyanın iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərində belə sosial müəssisələrin inkişafına neqativ təsir edən bir sıra amillər mövcuddur. Bunlar aşağıdakılardır:

[1] Leadership in Social Enterprise How to Manage Yourself and the Team // Schawb Foundation for social entrepreneurhip May 2014, pp. 49-50

- ✓ Qeyri-kommersiya təşkilatlarının menecerlərinin sahibkarlıq və biznes bacarıqlarının kifayət qədər inkişaf etməməsi;
- ✓ Qeyri-kommersiya təşkilatlarının cəmiyyət və maraqlı qruplar qarşısında hesabatlarının qeyri-şəffaflığı, onların legitimliyinə kölgə salır, cəmiyyət tərəfindən dəstəklənməsini əngəlləyir, xüsusən də maliyyə dəstəklərini azaldır;
- ✓ Sosial sahibkarlıq sahəsində vətəndaş təşəbbüslərinin dövlət tərəfindən zəif dəstəklənməsi (xüsusən də hüquqi və vergi rejimlərinin daha əlverişli olması sosial müəssisələrin yaradılması və fəaliyyətləri üçün münbit zəmin yaradar).
- ✓ Sosial müəssisələr rəqabətə davamlı olmurlar.

## 2.2. Azərbaycanda sosial müəssisələrin yaranması və inkişafı perspektivləri *(nəzəriyyə və təcrübə)*

Sosial müəssisələrin yaranması praktikası postsovet məkanında demək olar ki, son illərdə, bazar iqtisadiyyatına keçid prosesinin sona çatmasının rəsmi və akademik səviyyədə bəyan edilməsi ilə əlaqədar diqqəti cəlb edir. Müvafiq olaraq postsovet ölkərinin bəzisində sosial müəssisələrlə əlaqədar reallıqlara diqqət yetirilməsi yerinə düşərdi.

**Estoniya** – sosial müəssisə və sosial sahibkarlıq institutlarının Estoniyada yaranması tarixi 2005-ci ildə «Heategu Sihtastus» («Xeyirxah iş») fondunun sosial sahibkarlıq ideyası ilə bağlı müsabiqə təşkil etməsi ilə əlaqələndirilir. Hal-hazırda Estoniyada sosial müəssisələr şəbəkəsi fəaliyyət göstərir. Sözügedən şəbəkəyə daxil olan müəssisələr insanlara təhsil almaq imkanı yaratmaqla yanaşı, sağlam həyat tərzinin, daha təmiz ekoloji mühit və cəmiyyətin formalaşması, əlil insanlar üçün iş yerlərinin yaradılması və s. ilə əlaqədar məqsədyönlü fəaliyyət göstərirlər. Hüquqi baxımdan həmin

müəssisələrin əksəriyyəti qeyri-kommersiya təşkilatları və yaxud fondlardır. Lakin sosial müəssisələr arasında bəzən kommersiya birliklərinə də rast gəlmək mümkündür. Qeyd etmək lazımdır ki, Estoniyada da dünyanın bir çox ölkələrində olduğu kimi sosial müəssisələrin dəqiq sayının göstərilməsi qeyri-mümkündür. Lakin təxmini hesablamalara görə Estoniyada 100-ə yaxın belə müəssisə vardır, həmin müəssisələr çox zaman adi müəssisə statusu ilə çalışsalar da sosial müəssisələrin funksiyalarını daşıyırlar. 2012-ci ilin yaz mövsümündə yeni 19 sosial müəssisə Sosial Müəssisələr Şəbəkəsi (SEV) yaradıldı və burada əsas məqsəd Estoniyada sosial sahibkarlığın daha da inkişaf etdirilməsi idi.

Nümunə olaraq, Estoniyada aşağıdakı sosial müəssisələri xüsusi ilə qeyd etmək olar.

***MTÜ Abikäsi*** (Yardım əli) – iş yerləri yaradır, insanların işə qəbul olunmasında, xüsusən də əlillərin işlə təmin olunmasında xeyli işlər görmüşdür.

***MTÜ Tagurpidi*** – (Piştaxta) kənd yerlərindən birbaşa olaraq şəhər yerlərinə ekoloji cəhətdən təmiz məhsulların gətirilməsini təşkil edir.

***Terve Eesti Sihtasutus*** – (Estoniyanın sağlamlıq fondu)- iş yerləri təklif edən şirkətlərə sağlam həyat tərzi və işçilərin öz həyatlarından məmnun qalmaları üçün kurslar təşkil edir.[1]

**Latviyada** sosial problemlərin həlli üçün qeyri-kommersiya müəssisələrinin yaradılması məsələsi 2014-cü ilin dekabrında xüsusi olaraq gündəmə gətirildi. Dienas Bizness qəzetinin verdiyi məlumatlara görə Latviyada hökumətin sosial sahibkarlıq konsepsiyası təsdiq olundu. Yeni konsepsiyada 2016-2018-ci illərdə Avropa İttifaqı ilə birlikdə müştərək maliyyələşdirmə əsasında, xüsusən də kəndli tə-

---

[1] The social economy in the EU. // R. Chavez, J.L. Monzon. 05/2005

sərrüfatlarını əhatə edən pilot layihələrin reallaşdırılması nəzərdə tutulur.[1]

**Rusiyada** isə sosial sahibkarlıq forması və sosial müəssisə nümunəsi kimi «Bizim gələcək» regional sosial proqramlar Fondu göstərilə bilər. Adı çəkilən Fond 2007-ci ildə Vahid Ələkbərov tərəfindən yaradılmış və sosial müəssisələrin təsis olunması və sosial sahibkarlığı dəstəkləyir. «Bizim gələcək» Fondu sosial sahibkarlıq layihələrinin müsabiqələrini təşkil edir. Fəaliyyətinin 7 ili ərzində Fond 130 sosial müəssisəyə köməklik göstərmişdir. 2011-ci ildən isə Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyi sosial təyinatlı kommersiya və qeyri-kommersiya təşkilatları üçün subsidiya və qrantların verilməsi sistemini işləyib hazırlayır və reallaşdırır.[2]

2010-cu ilin oktyabrından **Ukraynada** SESP Assosiasiyasının bazasında sosial sahibkarlığın və sosial müəssisələrin dəstəklənməsi Mərkəzi yaradıldı. Sözügedən mərkəz «Şərqi Avropa» fondu tərəfindən maliyyələşdirilir. Eyni zamanda Odessada «Evə aparan yol» ictimai təşkilat fəaliyyət göstərir. Təşkilat yoxsullar üçün qəzet nəşr etdirir, həmçinin toxuculuq sexi fəaliyyət göstərməyə başlamışdır. Qeyd etmək lazımdır ki, Ukraynada bütünlükdə 700-dən yuxarı sosial müəssisə fəaliyyət göstərir.

2012-ci il iyunun 14-də Ukraynanın Ali Radasında sosial sahibkarlıq fəaliyyətini əsaslandıran layihə qeydiyyatdan keçmişdir.[3]

**Özbəkistanda** 2009-cu ildə BMT-nin İnkişaf Proqramına əsasən sosial müəssisələr ideyasının tətbiqi və inkişafına cəhdlər edilməyə başlandı. Hökumət və qeyri-hökumət təşkilatlarının birgə əməkdaşlığı çərçivəsində pilot layihələrin həyata keçirilməsi üçün 10 sosial müəssisə yaradılaraq avadanlıqlarla təmin olundular. Bunlar aşağıda-

---

[1] http://rus.db.lv/nachalo/obschestvo/v-latvii-mogut-pojavit-sja-bespribyl-nye-social-nye-predprijatija-6

[2] Зверева Н., Создание успешного социального предприятия / М.: Альпина Паблишер, 2015

[3] http://fidemmoris.ua/ru/publication/view/vse-novosti/poyavyatsya-li-sotsialnyie-predpriyatiya-v-ukraine.html

kılardır: Cizakda süd və çörək bişirmə sexi, Səmərqənddə ayaqqabı müəssisəsi, Şəhrisəbz, Daşkənd, Nukusda toxuculuq və tikiş müəssisələri. Eyni zamanda həmin müəssisələrə hüquqi, vergi və bir sıra digər yardımlar göstərilir. 2012-ci ildə BMT-nin İnkişaf proqramına uyğun olaraq «sosial məhsul» mqsabiqəsinin loqotipi hazırlanmışdır.[1]

Azərbaycan iqtisadi ədəbiyyatlarında həm akademik səviyyədə, həm də rəsmi səviyyədə sosial müəssisə anlayışına çox az yer verilir. Təbiidir ki, respublikada bazar iqtisadiyyatı münasibətləri şəraitində, iqtisadiyyatın sosial yönümlülüyünün təmin olunması üçün sosial müəssisələrin funksiyalarını öz üzərinə götürən təsisatlar mövcuddur. Onlardan biri kimi Heydər Əliyev Fondu göstərilə bilər. Fondun əsas məqsədi mənfəətin əldə olunması deyil, respublikada geniş spekterli ən aktual iqtisadi və sosial problemlərin həllidir. 2004-cü ildən fəaliyyətə başlamış Heydər Əliyev Fondu elm, təhsil, səhiyyə, mədəniyyət, idman, ekologiya, sosial sahələrdə, həmçinin Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, mədəni irsimizin qorunması sahəsində xeyli işlər görmüşdür. Heydər Əliyev Fondu nəinki Azərbaycanda, eyni zamanda bütün dünyada sosial iqtisadi problemlərin həlli istiqamətində məqsədyönlü fəaliyyət göstərməkdədir. Nümunə üçün 2005-ci ildə Pakistanın Müzəffərabad şəhərində baş vermiş güclü zəlzələ nəticəsində yararsız hala düşmüş məktəb binasının fondun vəsaitləri hesabına bərpası qeyd oluna bilər.[2]

Digər diqqətəlayiq fakt kimi göstərilməlidir ki, hal-hazırda Azərbaycan Respublikasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Dünya Bankı tərəfindən Beynalxalq İnkişaf Assosiasiyasının xətti ilə «Sosial Müdafiənin İnkişafı» layihəsi çərçivəsində «Təkmilləşdirilmiş məşğulluq xidmətlərinin inkişafı» layihəsi həyata keçirilir: «Həmin layihədə əlilliyi olan şəxslərin məşğulluğu ilə bağlı əmək bazarına inteqrasiyası üzrə proqramların hazırlanması, kiçik biznes sahə-

---

[1] http://dasturxon.com/forum/51-314-1
[2] http://sia.az/ru/news/social/353599-heyder-eliyev-fondunun-fealiyyeti-haqqinda-genis-meqale

ləri üzrə məsləhət xidmətlərinin göstərilməsi, iş və biznes klublarının təşkili, əlillər üçün sosial müəssisələrin yaradılması, onların məşğulluq səviyyəsinin yüksəldilməsi və əmək bazarına səmərəli inteqrasiyası üzrə 2012-2015-ci illər üçün fəaliyyət planının hazırlanması reallaşdırılmışdır».[1]

Sosial müəssisələrin əhəmiyyətinin cəmiyyətə çatdırılması istiqamətində də respublikada məqsədyönlü işlər görülməkdədir. Bu xüsusda qeyd etmək lazımdır ki, 2009-cu il oktyabrın 27-də Bakıda Sosial müəssisələrin təşkili ilə bağlı hazırlanan layihələrlə əlaqədar seminar keçirilmişdir. Seminar Avrasiya Fondu (EPF) və Amerikanın Azərbaycandakı Ticarət Platası və Lodestar fondu tərəfindən təşkil olunmuşdur. ABŞ-ın və Böyük Britaniyanın xeyriyyəçilik təşkilatlarının ekspertləri sosial sahibkarlıq və korporativ xeyriyyəçilik ilə əlaqədar öz təcrübələrini dinləyicilərlə bölüşdülər. Eyni zamanda Lodestar (ABŞ) Fondunun sədri və qurucusu Cerom Xriş korporativ xeyriyyəçilik barəsində mühazirə oxumuş, sosial müəssisələrin yaradılmasında iştirak edən digər təşkilatlarla «Aşoka» və Network Foundation cəmiyyəti və xeyriyyəçilik İnstitutu ilə danışıqlar aparılmışdır. Seminarda ölkə və xarici dövlətlərin aparıcı şirkətləri, biznes assosiasiyaları və ictimai təşkilatları iştirak edirdilər.[2]

Daha sonra diqqəti cəlb edən faktlar qismində 2015-ci il iyunun 4-də Gəncədə təşkil edilən «İnnovativ inkişafın yeni mərhələsində sosial müəssisələrin potensialı» mövzusunda seminar göstərilə bilər. Seminar Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Gəncə Şəhər İcra Hakimiyyəti ilə birgə təşkil olunmuşdu.[3] Seminarda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərovun «Azərbaycan Respublikasının iqtisadi və sosial inkişafı beynəlxalq təşkilatların sənədlərində», Azərbaycan Milli Elmlər Akade-

[1] http://hafta.az/index2.php?m=yazi&id=78564
[2] http://www.news.az/articles/society/646
[3] http://azertag.az/xeber/860868

miyasının Gəncə bölməsinin akademik katibi, akademik Fuad Əliyevin «Gəncə regionunda sosial sahibkarlığın potensialı», Dövlət İdarəçilik Akademiyasının Elmi-təşkilat şöbəsinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru Rəcəb Rəhimlinin «Azərbaycanın innovativ inkişafında kadr potensialının təkmilləşdirilməsi» mövzularında məruzələri dinlənilib.

Hazırda gündəmdə digər tədbirlər qismində «Kamil Vətəndaş» Maarifləndirmə Mərkəzi İctimai Birliyi Böyük Britaniyanın Azərbaycan səfirliyinin maliyyə dəstəyi ilə **»Azərbaycanın Qərb bölgəsində QHT-lərin davamlılığının əsas konsepsiyası kimi sosial sahibkarlığın təbliği»** layihəsinin həyata keçirilməsi göstərilə bilər. Layihə çərçivəsində Azərbaycanın qərb bölgəsində fəaliyyət göstərən Qeyri-Hökumət təşkilatları üçün **sosial sahibkarlıq, biznes planın təşkili, sahibkarlıq və sosial sahibkarlıq** kimi mövzularda təlimlər, ictimai dinləmələr və dəyirmi masaların təşkil olunması nəzərdə tutulub. Təlim kursunu bitirənlərə sertifikatlar təqdim olunması planlaşdırılmışdır.

Eyni zamanda «Kamil Vətəndaş» MM İB-də «Azərbaycanın Qərb bölgəsində QHT-lərin davamlılığının əsas konsepsiyası kimi sosial sahibkarlığın təbliği» layihəsi çərçivəsində QHT-lər üçün «Biznes planlaşdırılması və Marketinq», »Sosial Sahibkarlıq» və «Fandreyzinq» mövzularında təlim sessiyaları həyata keçirilmişdir.[1]

---

[1] http://www.kamilv.az/az/current

***Cədvəl 8. Azərbaycanda sosial müəssisələrin əsas xüsusiyyətləri***

| | ***Azərbaycan*** |
|---|---|
| ***Fəaliyyətinin əsas məqsədi*** | *Cəmiyyət üçün fayda* |
| ***Geniş yayılmış təşkilat tipi*** | *Qeyri-kommersiya təşkilatı* |
| ***Fəaliyyət növü*** | *Xidmət sferası* |
| ***Sosial müəssisələrin növlərinin rəngarəngliyi*** | *az* |
| ***İstifadəçinin fəaliyyətə cəlb olunması*** | *Məhdud* |
| ***Strateji inkişaf*** | *Fond* |
| ***Araşdırmalar*** | - |
| ***Kontekst*** | *Sosial iqtisadiyyat* |
| *Hüquqi baza* | - |

Yuxarıda qeyd edilən faktlar əsasında bütün postsovet məkanında olduğu kimi Azərbaycanda da formalaşma prosesi keçirən sosial müəssisələrin əsas xüsusiyyətləri kimi aşağıdakıları göstərmək olar. Azərbaycanda sosial müəssisələr əsasən qeyri-kommersiya təşkilatlarıdır, fəaliyyət növləri xidmət sferasına aid olub əsas məqsədləri cəmiyyət üçün faydalı işlərin təşkil olunmasıdır (*bax:* cədvəl 8). Eyni zamanda respublikada sosial müəssisə və sahibkarlıq institutlarının əhəmiyyətinin təbliği istiqamətində də məqsədyönlü işlər görülməkdədir.

Nəticə etibarilə sosial müəssisə və sahibkarlıq institutları cəmiyyətdə sosial və iqtisadi problemlərin həllinin real mexanizmi kimi dəyərləndirilə bilər. Xüsusən də məşğulluq, sosial reabilitasiya və bir sıra digər həlli vacib problemlərin çözülməsində müstəsna rol oynayır. Azərbaycan Respublikasında sosial müəssisə və sahibkarlıq institutları bütün postsovet məkanında olduğu kimi formalaşma mərhələsindədir.

## 2.2. Azərbaycanın sosial-iqtisadi inkişafı sosial müəssisələrin yaranmasının zəmini kimi

Azərbaycan Respublikası 2016-cı ildə müstəqilliyinin bərpasının 25-ci ildönümünü qeyd edir. Ölkə Prezidenti İlham Əliyevin bu hadisəyə həsr olunmuş xüsusi sərəncamında və keçirilən rəsmi qəbuldakı çıxışında Azərbaycan Respublikasının qısa zaman kəsiyində qazandığı yüksək nəticələr barədə məlumatlar ölkə əhalisinin və dünya ictimaiyyətinin diqqətinə çatdırılmışdır. Bu uğurlar bir çox istiqamətlərdə, o cümlədən iqtisadiyyat və sosial sahə, daxili və xarici siyasətdə qeydə alınmışdır. Paytaxt Bakı, Vətənin bütün güşələri, ümumiyyətlə ölkə bütövlükdə inanılmaz dərəcədə dəyişmiş və müasirləşmişdir. Azərbaycanın dünyada və beynəlxalq təşkilatlarda nüfuzu artmış və daim yüksəlməkdədir.[1]

Tarixi baxımdan 25 il çox qısa bir zamandır. Bu dövrdə Azərbaycan bir sıra çağırış və təzyiqlərlə üz-üzə qalıb. Ölkənin müstəqilliyin ilk illəri çox çətin bir şəraitdə keçib, parçalanmaq və müstəqilliyin itirilməsi təhlükəsi çox yüksək olub. Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının tələbi və təkidi ilə ölkə rəhbərliyinə gə-

[1] İlham Əliyev. Azərbaycan Respublikasının 25 illiyinə həsr olunmuş sərəncam. http://fins.az/senedler/907953/musteqilliyin-25-illiyi-ile-bagli-serencam-tam-matn.html. 11 oktyabr 2016; İlhan Əliyev. Azərbaycan Respublikasının 25 illiyinə həsr olunan rəsmi qabulda çıxışı. http://www.avropa.info/az/post/118888.html. 17 oktyabr 2016.

tirilməsi bu risklərin aradan qaldırılmasını təmin edib, ölkənin hazırki inkişafı üçün zəmin yaradıb.

Qeyd etmək lazımdır ki, müstəqilliyin bərpasından sonrakı bütün dövrlərdə ölkə Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin təsiri altında olub. Ölkə ərazisinin 20 faizinin işğal altında olması, bir milyona yaxın, yəni ölkə əhalisinin təxminən 13 faizinin, qaçqın və məcburi köçkünün olması ölkənin inkişafını əngəlləyən çox ciddi siyasi, iqtisadi və sosial amillər kimi çıxış ediblər. Bütün bunlara baxmayaraq, Ümummili lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyevin uğurla inkişaf etdirdiyi innovativ idarəetmə texnologiyalarının nəzəri əsaslarının işlənilməsi, onların təcrübədə tətbiqi nəticəsində ölkə bu illərdə çox surətlə inkişaf etmişdir. Bunun nəticəsi kimi bir sıra iqtisadi və sosial göstəricilərinə görə, bu gün müstəqilliyinin bərpasının 25-ci ildönümünü qeyd edən müasir Azərbaycan Respublikası yüz illik tarixi olan və dünya liderləri sayılan ölkələrlə rəqabət aparmaq iqtidarındadır. Bir çox beynəlxalq təşkilatların rəsmi hesabatları bunu sübut edir.[1]

Azərbaycan Respublikasının tarixi baxımdan qısa bir müddətdə – 25 il ərzində qazandığı nailiyyətlərin əsasında dərin düşünülmüş strategiya, ilk növbədə ölkə Prezidenti İlham Əliyev tərəfindən tətbiq edilən innovativ idarəetmə texnologiyaları durur (Şəkil 9).

Şəkildən göründüyü kimi, ölkənin innovativ inkişaf strategiyasının əsas və həlledici amili kimi insan potensialının formalaşdırılması çıxış edir. Dünya ölkələrinin inkişaf səviyyəsinin müqayisəli təhlili də göstərir ki, bilikli, bacarıqlı və yüksək sosial məsuliyyət daşıyıcısı olan insan inkişafın təmin olunması baxımından həlledici əhəmiyyət daşıyır. Ölkələrin tarixi nailiyyətlərinin və yaxud keçmişdə qazanılmış zəngin təcrübənin mövcudluğu, yaxud təbii ehtiyatların zənginliyi yalnız onları səmərəli idarə edən insan potensialının mövcudluğu şəraitində öz nəticəsini göstərə bilir. Uğurlu inkişafın

[1] www.worldbank.org/indicator, 08.11.2016

əsas amili kimi insanın bilik və bacarıqları çıxış edir.[1] Bu səbəbdən Azərbaycan Respublikasında kreativ millətin formalaşması inkişafın əsas amili sayılmalıdır.[2]




***Şəkil 9. Azərbaycan Respublikasının innovativ inkişaf strategiyasının əsas amilləri***

Qeyd etmək lazımdır ki, ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə insan potensialının formalaşmasına böyük önəm verirdi və bu sahədə ardıcıl tədbirlər həyata keçirirdi. Müstəqilliyinin bərpasının son onilliyində bu siyasət ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Prezident İlham Əliyevin «qara qızılın insan qızılına», yəni neft gəlirlərinin insan potensialının formalaşmasına, iqtisadiyyatın diversifikasiyasına yönəldilməsi konsepsiyası uğurla həyata keçirilməkdədir.[3] Bu siyasətin həyata keçirilməsinin əsas strateji istiqamətləri kimi aşağıdakılar nəzərə alınmalıdır:

[1] Human Development Report, 2015. UNDP, New York, 2015, 227 p.
[2] Mekhtiyev R.E. Creative generation: future is today. Baku, SAM, 2012, July 5.
[3] İlham Əliyev. Speech at the opening ceremony of the 5th Baku International Humanitarian Forum, September 29, 2016. (en.president.az/articles/21234).

- *Təhsilin madii-texniki bazasının köklü surətdə yeniləşdirilməsi.* Müstəqilliyin hazırki mərhələsində bu fəaliyyət çərçivəsində ölkədə yüzlərlə yeni müasir tədris ocaqları tikilmiş və ya köklü surətdə yenidən qurulmuşdur. Bu prosesdə dövlət strukturları ilə yanaşı, Heydər Əliyev Fondu, onun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban Əliyevanın fəaliyyəti xüsusi qeyd edilməlidir. Heydər Əliyev Fondunun «Yeniləşmiş Azərbaycana yeni məktəb» layihəsi bu fəaliyyətin nümunəsi kimi göstərilə bilər.
- *Təhsil və tədris proqramlarının yenilənməsi.* Təhsil müəssisələrinin yenilənməsi ilə yanaşı, tədris proqramlarının təkmilləşdirilməsi və müasirləşməsi prosesi həyata keçirilməkdədir. Bu sahədə milli siyasətin əsas istiqamətləri: (1) yeni ali, orta ixtisas və peşə məktəblərinin yaradılması; (2) yeni ixtisasların tədris proqramlarına daxil edilməsi (Davamlı inkişafın idarə edilməsi istiqamətlərinin bakalavr, magistratura və doktororantura səviyyələrində dünyada ilk dəfə Azərbaycanda ixtisaslar nomenkulaturasına daxil edilməsi bu istiqamətdəki fəaliyyətin nümunəsi kimi çıxış edə bilər); (3) tədris proqramların mütəmadi yenilənməsi və tədris texnologiyalarının təkmilləşdirilməsidir.
- *Sağlamlıq proqramlarının həyata keçirilməsi.* İnsan potensialının inkişafı sağlamlıq göstəricilərindən və bu sahədə həyata keçirilən siyasətdən asılıdır. Yeni müasir müalicə və profilaktika sahəsində ixtisaslaşmış tibb müəssisələrinin, idman obyektlərinin, o cümlədən olimpiya komplekslərinin bütün ölkə ərazisində inşası və fəaliyyəti bu siyasətin uğurlarının göstəricisi kimi qəbul edilə bilər.
- *Ümumdaxili məhsulun adambaşına artımı.* İnsan potensialının inkişafı üçün əhəmiyyətli olan iqtisadi göstəricilərin yüksəlməsi bu sahədə ölkədə ardıcıl siyasətin reallaşdırılmasından xəbər verir.

- *Dövlət qulluqçularının hazırlanması və ixtisaslarının artırılması.* Göstərilən istiqamətdə nailiyyətlərin qazanılması yalnız optimal idarəetmə sahəsində yüksək peşəkar kadrların hazırlanması şəraitində mümkündür. Bütün təhlil edilən dövrlərdə bu sahəyə böyük diqqət ayrılmışdır.[1]

Müstəqilliyin yeni mərhələsində həyata keçirilən bu siyasət nəticəsində Azərbaycan Respublikasında İnsan İnkişafı Əmsalı daim artmaqdadır (Şəkil 10).




***Şəkil 10. İnsan inkişafı əmsalının artımı, 2000 – 2015. 1 – Azərbaycan Respublikası, 2 – dünya (orta), 3 – insan inkişafında yüksək nəticələr əldə etmiş ölkələr, orta (4).***

Şəkil 10-dan göründüyü kimi, son on beş ildə insan potensialının vəziyyətini səciyyələndirən İnsan İnkişafı əmsalı həm Azərbaycanda, həm də dünyada və ölkəmizin də aid olduğu inkişafda yüksək nəticələr əldə etmiş ölkələr qrupunda artmaqdadır. Lakin qeyd edilmə-

[1] http://www.un.org/sustainabledevelopment/sustainable-development-goals; https://unfccc.int/resource/docs/2015/cop21/eng/109.pdf, November 15, 2016.

lidir ki, əgər Azərbaycanda 2000-ci il üçün bu göstərici dünyanın orta və eləcə də yüksək nəticələr əldə etmiş ölkələr qrupunun otra rəqəmindən aşağı idisə, hazırda Azərbaycanda insan inkişafı əmsalı müqayisə edilən qruplar arasında ən yüksəkdir. Bu səbədən BMT-nin qiymətləndirmələrinə görə, Azərbaycan Respublikası 2010-cu ildən insan inkişafı sahəsində yüksək nəticələr əldə etmiş ölkələr qrupuna daxil olmuşdur.[1]

Müstəqilliyin ilk illərindən başlayaraq, inkişaf strategiyası iqtisadi göstəricilərin yaxşılaşdırılmasına yönəldilmişdir. Bu strategiya eyni zamanda sosial göstəricilərin yaxşılaşdırılması sahəsində tədbirlərin gerçəkləşdirilməsi üçün şərait yaradırdı, təhlükəsizliyi təmin edirdi. Azərbaycan Respublikasında adambaşına ümumdaxili məhsul müstəqillik illərində surətlə artmaqdadır (Şəkil 11).




***Şəkil 11. Azərbaycan Respublikası adambaşına ÜDM, ABŞ dolları x 1000, alıcılıq qabiliyyəti pariteti ilə (10).***

---

[1] Алакбаров У.К. Кадровая политика в целях устойчивого развития как приоритет государственной политики Азербайджанской Республики. Ж. «Проблемы Управления» (Минск) 2016, № 1 (58), с. 40-42.

Şəkil 11-dən göründüyü kimi, Azərbaycan Respublikasında müstəqilliyin bərpasından sonra adambaşına gəlirlər artmaqdadır və bu əhalinin sayının artımı şəraitində müşahidə olunur.

Optimal idarəetmə texnologiyalarının tətbiqi nəticəsində ÜDM-nin adambaşına artım tempinə görə, Azərbaycan Respublikası dünya liderləri sırasındadır (Şəkil 12).




***Şəkil 12. Surətlə inkişaf edən G 20 ölkələri və Azərbaycan Respublikası: adambaşına ÜDM-in artımı, dəfə (müqayisəli təhlil), 2003-2014 (3).***

Dünya Bankının rəsmi hesabatlarına əsasən tərtib edilmiş Şəkil 12-də «böyük iyirmiliyə» daxil olan və adambaşına ÜDM-ni təhlil edilən dövrdə 1,5 dəfədən çox artıran ölkələrə aid məlumatlar təqdim edilmiş və bu ölkələrin göstəriciləri Azərbaycan Respublikasında əldə edilən nəticələrlə müqayisə edilmişdir. Şəkildən göründüyü kimi, bu ölkələr arasında təhlil edilən illər ərzində üç dəfədən çox adambaşına gəlirlərin artımı yalnız Çində və Azərbaycan Respublikasında müşahidə edilmişdir. Şübhəsiz ki, bu çox yüksək nəticədir və onun qazanıl-

masında ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi innovativ və surətli inkişaf strategiyası durur.

Müstəqilliyin bərpa olunduğu 25 ildə ölkənin inkişafında həm kəmiyyət, həm də keyfiyyət göstəricilərinin yüksəldilməsi müşahidə edilməkdədir. Bu gün Azərbaycan Respublikası dünya üçün prioritet kimi müəyyənləşdirilmiş istiqamətlərdə yüksək nailiyyətlər əldə edib və ölkənin bu sahədə qazandığı uğurlar beynəlxalq təşkilatlar və müstəqil ekspertlər tərəfindən hazırlanan hesabatlarda öz əksini tapıb (3). Məsələn, Birləşmiş Millətlər Təşkilatının 2015-ci ilin sentyabr ayının 16-30 tarixlərində Nyu-Yorkda keçirilən 70-ci Yubiley sessiyasında bəşəriyyətin XXI əsrdə üzləşdiyi əsas problemlər müzakirə edilib və hazırkı dönəmdə onların qarşısının alınması üçün təcili tədbirlər müəyyənləşdirilib. İndiki nəsillərin rifahının yüksəldilməsini təmin edən və eyni zamanda gələcək nəsillərin tərəqqisi üçün şərait yaratmalı olan davamlı inkişafın XXI əsr və üçüncü minilliyin başlıca prioriteti olması faktı bir daha təsdiqlənib. Eyni zamanda Nyu-Yorkda BMT-nin təşəbbüsü ilə keçirilən Dünya sammiti də davamlı inkişafı üçüncü minilliyin başlıca prioriteti kimi müəyyənləşdirib və «Davamlı İnkişaf Sammiti» kimi tarixə düşüb. Bu ümumdünya forumlarının nəticəsi olaraq xüsusi sənəd – «Davamlı İnkişaf məqsədləri» qəbul edilib. Sənəddə 2015-2030-cu illərdə bütövlükdə dünya və ayrı-ayrı dövlətlərin dünyanın inkişafı prosesinin davamlılığını təmin etmək və hazırda bəşəriyyətin üzləşdiyi çağırışlara cavab məqsədilə atacaqları addımlar da əksini tapıb. Ümumiyyətlə, bu sənəddə 2030-cu ilədək yoxsulluq və qeyri-bərabərliyin ləğvi, təbii ehtiyatlardan səmərəli istifadə və ətraf mühitin mühafizəsi kimi problemlərin həlli, bunun üçün insan potensialının formalaşdırılması və biliklərin, texnologiyaların intensiv ötürülməsinə dair və digər 17 məqsəd müəyyən edilib.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası 25 ildə keçirilən innovativ inkişaf strategiyasına əsasən, 2015-2030-cu illər üçün BMT tərəfindən qlobal prioritet kimi planlaşdırılan hədəflərə yüksək səviyyədə hazırlıqlıdır. Ümummilli lider Heydər Əliyev tərəfindən

əsası qoyulan və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yaradıcılıqla inkişaf etdirdiyi uğurlu iqtisadi və sosial siyasət sayəsində «Davamlı İnkişaf məqsədləri»ndə yer alan və 2030-cu ilə kimi dünyada həlli planlaşdırılan bir çox məsələlər müəyyən dərəcədə bizim ölkəmizdə artıq yerinə yetirilib. BMT, Dünya Bankının dərc etdirdikləri məlumatlara görə, Azərbaycan Respublikası bir çox davamlı inkişaf göstəriciləri üzrə hazırda «böyük iyirmilik» (G 20) və «böyük yeddilik» (G 7) qruplarına üzv olan bir çox dövlətləri üstələyib. 2016-cı ilin dekabrında Dünya Bankının rəsmi saytında yerləşdirilən, BMT və digər beynəlxalq qurumların sənədlərinin təhlili də bundan xəbər verir. Belə ki, davamlı inkişafın önəmli indikatoru bir enerji vahidinin istifadəsi hesabına istehsal olunmuş Ümumi Daxili Məhsulun (ölkə iqtisadiyyatında istehsal olunmuş məhsul və xidmətlərin) dəyəridir. Bu sahədə dövlət siyasətinin uğuru və innovativliyi beynəlxalq qurumlar tərəfindən işlənmiş metodika əsasında müxtəlif ölkələrdə 1000 ABŞ dolları dəyərində ÜDM-in, alıcılıq qabiliyyəti pariteti (AQP) nəzərə alınmaqla, istehsalına sərf edilən enerjinin həcminin ölçülməsi ilə müəyyən edilir. Bu ondan irəli gəlir ki, eyni həcmdə ÜDM istehsalı üçün daha az enerji sərfi səmərəli iqtisadiyyat üçün çox önəmlidir. Az enerji sərfi həmçinin gələcək nəsillərin maraqları çərçivəsində təbii ehtiyatların səmərəli istifadəsi deməkdir. Bu da özlüyündə davamlı inkişafın vacib şərtidir. Nəhayət, daha az enerji eyni zamanda lokal və qlobal ekologiya sahəsində bir sıra məsələlərin həllinə xidmət edir. Belə ki, atmosferə istixana qazlarının atılmasının qarşısının alınması vasitəsilə bəşəriyyət üçün aktual problem olan qlobal iqlim dəyişikliklərinə təsirləri azaldır. 2015-ci ilin sonunda Qlobal iqlim dəyişikliklərinə dair Paris Sammiti bu problemin aktuallığını bir daha təsdiqləyib.

İqtisadiyyatın idarə edilməsinin davamlı inkişaf məqsədlərinə uyğunluğunun beynəlxalq səviyyədə müqayisəli qiymətləndirməsi üçün enerji vahidi kimi bir kiloqram neftdə olan enerji miqdarı götürülür (3). Enerji müxtəlif mənşəli ola bilər: atom, istilik, hidro, günəş enerjisi və

s. Lakin, enerji səmərəliliyinin qiymətləndirilməsi zamanı ekvivalent kimi onun bir kiloqram neftdə olan miqdarından istifadə edilir. Bu ondan irəli gəlir ki, müəyyən zaman kəsiyində neftin qiyməti bütün dünyada eynidir. Ona görə də sözügedən ekvivalentin tətbiqi nəticəsində müxtəlif ölkələrdə sərfiyyat – məhsul nisbətinin beynəlxalq təhlilini aparmaq mümkün olur. Bir enerji vahidinin istifadəsi nəticəsində istehsal olunmuş ÜDM-in dəyəri, alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla, ABŞ dolları ilə müəyyən edilir. Bu fakt da özlüyündə müxtəlif ölkələrdə davamlı inkişaf proseslərinin planlaşdırılması və idarə edilməsi sahəsində əldə edilmiş nəticələrin müqayisəsinə yol açır.

Beynəlxalq statistikanın təhlilindən aydın olur ki, 2003-cü illə müqayisədə 2014-cü ildə (Dünya Bankının 2016-cı ilin dekabrında yaydığı ən son məlumatlardır) Azərbaycan Respublikasında innovativ idarəetmə texnologiyalarının tətbiqi nəticəsində ÜDM istehsalı üçün enerji sərfi 2,8 dəfə azalıb. Beynəlxalq təşkilat tərəfindən dərc edilmiş bu məlumat ölkənin uğurlu inkişafından xəbər verir. Dünya Bankının hesabatlarına görə, 2001-ci ildə Azərbaycanda 1000 ABŞ dolları dəyərində ÜDM istehsalına 292,7 kq neftdəkinə ekvivalent enerji sərf edilirdi. Hazırda ölkədə analoji iqtisadi effektin əldə olunması üçün bundan 3,3 dəfə az, yəni 88,8 kq neftdəkinə ekvivalent enerji «xərclənir». Dünyada müşahidə edilən tendensiyalar ilə müqayisə etdikdə aydın olur ki, 1994-ci ildə davamlı inkişafın vacib göstəricisi olan olan enerji səmərliliyi Azərbaycan Respublikasında orta dünya göstəricisindən 2,9 dəfə aşağı idi. Azərbaycanın müstəqilliyinin 25 illiyinin hazırki mərhələsində bu nisbət dəyişmişdir. Azərbaycanda 1000 ABŞ dolları dəyərində ümumdaxili məhsul istehsal etmək üçün 88,8 kq neftdə olan qədər enerji sərf edilir və bu orta dünya göstəricisindən 1,4 dəfə azdır (Şəkil 13).




***Şəkil 13. Azərbaycan Respublikası (1) və dünyada (2, orta) 1000 ABŞ dolları dəyərində ÜDM istehsalı üçün enerji (1 kq neftdəki ekvivalenti) sərfiyyatı, alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla (3).***

Müstəqillik illərində Azərbaycan Respublikasında davamlı inkişaf naminə təbii ehtiyatların idarəedilməsi sahəsində qazanılmış nəticələr postsovet ölkələri, o cümlədən, indi Avropa İttifaqına üzv olan keçmiş sovet respublikaları arasında ən yüksək göstəricidir (Şəkil 14). Dünya Bankının 2016-cı ilin noyabr ayında dərc olunan məlumatları əsasında tərtib olunan Şəkil 14-dən göründüyü kimi, bu qrupa daxil olan bütün ölkələrdə eyni iqtisadi effektə nail olmaq üçün Azərbaycandakından daha çox enerji sərf edilir. Göstərilən nailiyyət ölkədə dövlət idarəçiliyi sahəsində Prezident cənab İlham Əliyev tərəfindən gerçəkləşdirilən uğurlu siyasətin parlaq təcəssümüdür. Eyni zamanda bu, Azərbaycan Respublikasının ekoloji təhlükəsizliyin təmin olunması və qlobal iqlim dəyişmələrinə təsirlərin azaldılmasına dair beynəlxalq öhdəliklərinə məsuliyyətlə yanaşmasından xəbər verir. Daha az

enerji sərfi həm də iqlim dəyişikliklərinə səbəb olan qazların atmosferə atılmasının azalması deməkdir.




***Şəkil 14. Postsovet ölkələri: 1000 ABŞ dolları dəyərində ÜDM istehsalı üçün enerji (1 kq neftdəki ekvivalenti) sərfiyyatı, alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla***

ÜDM-nin istehsalı üçün enerji sərfinin azaldılması əsasən yeni yüksək texnologiyaların tətbiqi və iqtisadi inkişaf proseslərinin idarəedilməsi sistemlərinin optimallaşdırılması hesabına mümkündür. Davamlı inkişafın bu tələbinin ödənilməsində Azərbaycanın dövlət siyasətinin uğuru həmçinin bu sahədə Xəzəryanı ölkələrdəki durumun müqayisəli təhlili ilə də təsdiqlənir. Aşağıdakı cədvəldə verilən təhlil nəticələrindən bəlli olur ki, Dünya Bankının məlumatlarına əsasən 2001-ci illə müqayisədə Azərbaycan Respublikasında enerji istifadəsi səmərəliliyinin artımı 329 faiz təşkil edib ki, bu olduqca yüksək göstəricidir. Digər region ölkələrində dəyişikliklər ya çox gözəçarpan deyil, ya da ümumiyyətlə yoxdur. Azərbaycandan sonra ən yüksək

göstərici Türkmənistanda qeydə alınıb. Dünya Bankının hesabatlarına əsasən, Türkmənistanda enerji istifadəsi səmərəliliyi göstərilən zaman kəsiyində 169 faiz artıb. Buna baxmayaraq, Azərbaycanda enerji istifadəsi səmərəliliyi region ölkələri ilə müqayisədə bir neçə dəfə yüksəkdir.

***Cədvəl 9. Azərbaycan Respublikası və digər Xəzəryanı ölkələr: 1000 ABŞ dolları dəyərində ÜDM istehsalı üçün enerji (1 kq neftdəki ekvivalenti) sərfiyyatı, alıcılıq qabiliyyəti pariteti (AQP) nəzərə alınmaqla***

| **Ölkə** | **1000 ABŞ dolları dəyərində ÜDM istehsalı üçün enerji (kq neftdəki ekvivalenti) sərfiyyatı** | | **2001-ci illə müqayisədə enerji istifadəsi səmərəliliyinin artımı, %** |
|---|---|---|---|
| | 01.01 2001-ci il üçün məlumatlar | 08.09. 2016-cı il üçün məlumatlar | |
| **Azərbaycan Respublikası** | 290,2 | 88,8 | 329 |
| **İran İslam Respublikası** | 166,3 | 184,8 | - |
| **Qazaxıstan** | 210,7 | 213,0 | - |
| **Rusiya Federasiyası** | 250,8 | 216,2 | 120 |
| **Türkmənistan** | 620,9 | 369,7 | 168 |

Müstəqilliyinin 25 ili dövründə ölkəmizdə dövlət idarəçiliyi sahəsində uğurlu siyasət nəticəsində Azərbaycan Respublikasının uzunmüddətli tərəqqinin əsas şərti olan davamlı inkişafı hədəfləyən nailiyyətləri «böyük yeddilik» dövlətləri ilə müqayisə olunacaq səviyyədədir, bəzi hallarda isə onların göstəricilərindən üstündür. Şəkil 15-

də Azərbaycan Respublikasının davamlı inkişaf göstəriciləri G 7 dövlətlərininkilərlə müqayisə və təhlil edilib. Təhlil 2016-cı il noyabr ayında Dünya Bankının yaydığı bilgilərə əsasən aparılıb. Şəkildən göründüyü kimi, Azərbaycan Respublikasının davamlı inkişafın qeyd olunan indikatoru üzrə göstəriciləri «böyük yeddilik» ölkələrinin orta göstəricisindən 15 faiz, həmçinin ABŞ, Kanada, Fransa və Yaponiya kimi dövlətlərinkindən yüksəkdir.




***Şəkil 15. 1000 ABŞ dolları dəyərində ÜDM istehsalı üçün enerji (1 kq neftdəki ekvivalenti) sərfiyyatı, alıcılıq qabiliyyəti pariteti (AQP) nəzərə alınmaqla: G7 ölkələri və Azərbaycan Respublikası***

Ehtimal oluna bilərdi ki, Azərbaycan Respublikasının davamlı inkişaf indikatorlarının bu qədər sürətli artımı ölkə iqtisadiyyatının özəllikləri, əsas etibarilə neft faktorundan qaynaqlanır. Bu halda digər neft və qaz ixrac edən ölkələrdə də analoji tendensiyalar izlənilməlidi. Şəkil 16-də bununla bağlı təhlilin nəticələri əksini tapıb.




A)




B)

***Şəkil 16. Azərbaycan Respublikası və digər neft və qaz ixrac edən ölkələr: 1000 ABŞ dolları dəyərində ÜDM istehsalı üçün enerji (1 kq neftdəki ekvivalenti) sərfiyyatı, alıcılıq qabiliyyəti pariteti (AQP) nəzərə alınmaqla. A – 1990, B – 2016***

Şəkil 16-da həm Neft İxrac edən ölkələr Birliyinə (OPEC) üzv olan, həm də bu təşkilat çərçivəsində fəaliyyət göstərməyən dövlətləri xarakterizə edən göstəricilər əksini tapıb. Azərbaycan Respublikası davamlı inkişafın sözügedən göstəricisinə görə bu qrupda da liderdir. Beynəlxalq statistikaya əsasən, 1990-cı ildə Azərbaycan bu göstəriciyə görə, Meksika, Küveyt, Birləşmiş Ərəb Əmirlikləri, Venesuela, Qazaxıstandan xeyli geridə qalaraq sonuncu yerlərdən birini tuturdu (Şəkil 16 A). Son 10 ildə Azərbaycan Respublikası əhəmiyyətli dərəcədə irəliləyərək bu qrupun liderinə çevrilib (Şəkil 16 B). Qeyd etmək lazımdır ki, 3 il öncə sözügedən qrupun lideri statusuna Ekvador yiyələnmişdi. Xüsusi qeyd edilməlidir ki, neft amilinin iqtidadiyyatda payı müqayisə edilən ölkələr arasında fərqlidir. Onların arasında elə ölkələr mövcuddur ki, onlarda neft və qaz amilinin iqtisadiyyatdakı payı Azərbaycan Respublikasından daha yüksəkdir. Belə ölkələrə, məsələn Küveyt, İran İslam Respublikası və digərləri aiddirlər. Lakin Azərbaycanda müstəqilliyin bərpa olunduğu dövrdə gerçəkləşdirilən innovativ inkişaf siyasəti ölkəni neft və qaz ixrac edən ölkələr sırasında davamlı inkişaf indikatoruna görə, şərtsiz liderə çevirib. Bu isə o deməkdir ki, davamlı inkişaf cəmiyyətinə keçid prosesində ölkəmiz tərəfindən qazanılan mövqelər birbaşa karbohidrogen istehsalı və ixracı ilə bağlı deyil. Bu faktı təsdiqləyən başqa məlumatlar da var. Məsələn, 1000 ABŞ dollarlıq ÜDM istehsalı üçün (alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla) sərf olunan enerjinin dəyəri Azərbaycanda 32,8 ABŞ dolları təşkil edib. Kanadada bu rəqəm 62,6, Yaponiyada 36,1, Küveytdə 48, Rusiya Federasiyasında 79,9 ABŞ dollarına bərabər olub. Bu məlumatlar Dünya Bankının 18 noyabr 2016-cı il üçün hesabatlarına dayanaraq və neftin bir barrelinin qiymətinin 50 dollar olması şəraitində hesablanıb. Göründüyü kimi, bu indikatora görə də Azərbaycan Respublikası bir çox dövlətləri, o cümlədən G 7 ölkələrini üstələyib. Bu isə artıq təkcə iqtisadi deyil, eyni zamanda

qlobal iqlim dəyişikliklərinə təsirlə bağlı problemlər və digər ekoloji və sosial məsələlərin uğurlu həlli deməkdir.[1]

Artıq qeyd edildiyi kimi, Azərbaycan Respublikasının son onillikdə qazandığı nailiyyətlər Prezident cənab İlham Əliyevin tətbiq etdiyi unikal idarəetmə texnologiyalarının nəticəsidir. Dövlət inkişaf proqramlarının milli proqramlara transformasiyası, onların reallaşdırılmasında dövlət qurumları ilə yanaşı, vətəndaş cəmiyyətinin və özəl sektorun fəal iştirakı bu texnologiyaların vacib elementləridir.

Bu yanaşma, ilk növbədə, insan potensialının formalaşdırılması sahəsində önləyici siyasətə şamil edilə bilər. Bunu bir neçə məlumatlar sübut edə bilir. Məsələn, davamlı inkişaf sahəsində bilik və bacarıqların formalaşdırılmasının önəmini nəzərə alaraq, BMT və YUNESKO 2005-2014-cü illəri qlobal miqyasda davamlı inkişaf üzrə tədris onilliyi elan edib. Bununla bağlı sənəd 2005-ci ilin martında Nyu-Yorkda BMT-nin baş katibi Kofi Annan və YUNESKO-nun Baş Direktoru Koişiro Matsuura tərəfindən imzalanıb.[2] Ümummilli lider Heydər Əliyev tərəfindən təsdiqlənən təhsil konsepsiyasına görə, Azərbaycanda bu proses bundan 5 il öncə başladılıb. 2001-ci ildə davamlı insan inkişafı fənni orta ümumtəhsil məktəblərinin proqramına salınıb, 2003-cü ildə isə həmin fənn üzrə dünyada orta məktəblər üçün ilk dərslik işıq üzü görüb. Azərbaycanla bağlı bu informasiya BMT tərəfindən «innovativ ideya və fəaliyyət» kimi bütün dünyaya yayılıb.[3]

Hazırda bu siyasət Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2003-cü ildə irəli sürülən «qara qızılın» «insan qızılına» transformasiyası konsepsiyası çərçivəsində uğurla inkişaf etdirilir. Məsələn, əgər 2001-ci ildə ölkəmizdə dünyada ilk dəfə olaraq orta ümumi təhsil səviyyəsində yeni davamlı insan inkişafı

---

[1] Alakbarov U., Lawrence J.E.S. Towards Ecological Civilization: ideas from Azerbaijan. Journal of Human Resource and Sustainability Studies, 2015, 3, 93-100. http://dx.doi.org/10.4236/jhrss.

[2] UNİS/UNF, February 28, 2005.

[3] http://hdr.undp.org/nhdr/impact, December 19, 2005.

fənni tədris prosesinə daxil edilibsə, artıq 2015-ci ilin iyununda isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları ilə bakalavriatura, magistratura və doktarantura pillələrində ixtisaslar nomenklaturasına yeni – «davamlı inkişafın idarəedilməsi» ixtisası əlavə olunub.[1] Bu proses davamlı inkişafı XXI əsr və üçüncü minilliyin prioriteti kimi müəyyənləşdirən 2015-ci il BMT Sessiyası və Dünya Sammitindən öncəyə təsadüf edir. Ali təhsilin hər üç səviyyəsində yeni ixtisasın tətbiqi Azərbaycanın dünya tendensiyalarını qabaqlayan növbəti təşəbbüsüdür.

Xüsusi vurğulamaq lazımdır ki, ölkənin innovativ tərəqqisinin əsası kimi insan potensialının formalaşdırılması konsepsiyasının reallaşdırılmasında Heydər Əliyev Fondunun rolu əvəzsizdir. Fondun gerçəkləşdirdiyi proqramlar, qurumun Azərbaycan Respublikası müstəqilliyinin yeni mərhələsində həyata keçirtdiyi xarici və daxili siyasət əsasən ölkə vətəndaşlarının rifahının yüksəldilməsi və təhlükəsizliyinin təmininə yönəldilmişdir. Ölkə Prezidenti cənab İlham Əliyev daim vurğulayır ki, iqtisadi inkişaf məqsəd deyil, sosial problemlərin həlli və təhlükəsizliyin təmin olunması üçün vasitədir. 25 illik tarixi olan müstəqilliyin bərpasının ilk mərhələlərində ölkədə əsas sosial məqsəd kimi yoxsulluğun azaldılması məsələsi gündəmdə idi. Ölkədə uğurla həyata keçirilən siyasətin nəticəsi olaraq yoxsulluq ilə mübarizədə qısa bir zaman kəsiyində yüksək və səmərəli nəticələr əldə edilmisdir (Şəkil 17). Qeyd etmək lazımdır ki, hazırda da yoxsulluq bəşəriyyət qarşısında duran ən böyük problemlərdən, onun aradan qaldırılması isə ən aktual məsələlərdəndir. Təsadüfi deyil ki, yoxsulluğun ləğvi, kəskin qeyri-bərabərliyin aradan qaldırılması 2030-ci il üçün hədəflənən məqsədlər sırasındadır.[2]

---

[1] Сборники законодательных актов Азербайджанской Республики, Издательство «Азербайджан», Баку, 2015, № 6, с. 1316 – 1317; № 8, с. 1779 – 1780.
[2] Statistical Yearbook of Azerbaijan. State Statistical Committee of the Republic of Azerbaijan. Baku, 2016, 824 p.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında yoxsulluğun səviyyəsi dünyada müşahidə edilən ən aşağı göstəricilərindəndir.




***Şəkil 17. Azərbaycan Respublikasında yoxsulluğun azalma dinamikası 2001-2015, əhalinin faizi***

Beynəlxalq qurumların hesabatlarından bəlli olur ki, çox qısa zamanda Azərbaycan Respublikası yoxsuluğun azaldılması ilə yanaşı, digər sosial problemlərin həllində də xeyli irəliləyişə nail olub. Beynəlxalq standartlara uyğun olaraq, sosial siyasətin uğuru xüsusi indikatorlarla müəyyən edilir. Onların arasında ən çox yayılmışı və geniş tətbiq olunanları ölkənin sosial siyasətini xarakterizə edən Cini göstəricisi və Kvintil gəlir göstəricisidir. Cini göstəricisi gəlirin bölgüsündə bərabərlik dərəcəsini miqdarca qiymətləndirməyə imkan verən statistik göstəricidir və 0-100 arası dəyişir. 0 – tam bərabər, 100 mütləq qeyri-bərabər bölgüdür. Dünyanın heç bir ölkəsində tam bərabərlik və ya tam qeyri-bərabərlik yoxdur. Bu da tam ədalətlidir. Belə ki, tam bərabərlik motivasiya etmir, qeyri-bərabərlik isə fərdi

potensialın təkmilləşdirilməsini mənasızlaşdırır. Bu üzdən də ölkədə Cini göstəricisi nə qədər aşağıdırsa, həyata keçirilən sosial siyasət bir o qədər uğurlu hesab edilir. Şəkil 18-də Cini göstəricisinin Azərbaycan Respublikası və «böyük yeddilik» ölkələrində müqayisəli təhlili təqdim olunub.




***Şəkil 18. G 7 ölkələri və Azərbaycan Respublikasında Cini göstəricisinə görə sosial siyasətin müqayisəli təhlili***

Şəkil 18-də təqdim olunan məlumatlar bir daha vurğulamağa əsas verir ki, Azərbaycan Respublikasının sosial inkişaf göstəriciləri «böyük yeddilik» qrupunun orta göstəricilərindən və bu quruma üzv Kanada, İtaliya, Böyük Britaniya və ABŞ-dan yüksəkdir.

Azərbaycanın sosial siyasətinin uğurunun daha bir sübutu Kvintil təhlili nəticələridir (Şəkil 19). Kvintil təhlili əhalinin 20 % ən yüksək gəlirli təbəqəsinin orta gəlirləri ilə 20 % ən kasıb təbəqəsinin orta gəlirinin nisbəti əsasında aparılır. Göstəricinin aşağı olması beynəlxalq təşkilatlar tərəfindən ölkənin sosial siyasətinin uğuru kimi dəyərləndirilir.




***Şəkil 19. Müxtəlif ölkələrdə əhalinin gəlirlərinin bölünməsinin Kvintil təhlili***

Şəkil 19-da təqdim olunan bilgilər Azərbaycan Respublikasında sosial siyasətin prioritet olmasından xəbər verir. Bu gün ölkəmiz Kvintil təhlili göstəricilərinə görə, bir sıra inkişaf etmiş ölkələri, o cümlədən «böyük yeddilik» və Avropa Birliyinə daxil olan dövlətləri üstələyir.

Azərbaycan Respublikası müstəqilliyini 25 il öncə bərpa edib. Ölkə müstəqilliyinin ilk illərini çox ağır durumda keçirib və bu gün də erməni silahlı qüvvələrinin aqressiyası, ərazilərinin 20 faizinin işğalı ilə bağlı olayların təsiri altındadır. Buna baxmayaraq, Azərbaycan Respublikası qısa dönəmdə innovativ davamlı inkişaf siyasəti reallaşdırmağa müvəffəq olub. Beynəlxalq qurumlar və müstəqil ekspertlərin sənədləri bu faktın aşkar təsdiqidir.

# III fəsil

# AZƏRBAYCANIN MÜXTƏLİF BÖLGƏLƏRİNDƏ SOSİAL MÜƏSSİSƏLƏRİN YARADILMASI VƏ İNKİŞAF ETDİRİLMƏSİ POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ, PROBLEMLƏRİN MÜƏYYƏN EDİLMƏSİ

## 3.1. Sosial müəssisələrin yaradılması və inkişaf etdirilməsi sahəsində normativ-hüquqi, təşkilati-idarəetmə, iqtisadi əsasların və mövcud problemlərin təhlili

Böyük çərçivəli sosial problemləri müəyyən etmək və həll etmək üçün sosial müəssisələrə ehtiyac yaranır, çünki sosial təşəbbüskar, bütöv bir sistem problemin mahiyyətini açana qədər daima fəaliyyət göstərəcək davamlılığa sahibdir. Ənənəvi həyat tərzindən müasir həyat tərzinə yönələn topluluqların peşə, təşkilati və s. məsələlərdəki tələb və gözləntiləri eyni zamanda siyasi, iqtisadi və sosial quruluşlara da öz təsirini göstərir. Bu təsirlərin nəticəsi olaraq ictimai, iqtisadi və mədəni dəyərlər öz yerini problemlərə daha yaxın olan və uzunmüddətli həlli yollarını da özüylə bərabər gətirən icmanın yaratdığı birliyə verir.

Sosial işgüzarlığın təşkilatlanmasında isə Villiam Draytonun 1980-ci ildə yaratdığı ASHOKA-nın böyük rolu olmuşdur. Yaradılış məqsədi «Sosial işgüzarlığı» dəstəkləmək və bu sektorun başa düşülməsini təmin edərək yeni dəstək mexanizmləri formalaşdırmaq olan ASHOKA-ya görə sosial dəyişikliklər kütlənin daxilindən başlamalı-

dır. Bu təşkilata görə kütlə içərisində hər kəs bir «dəyişiklik yaradıcı» potensialına sahibdir və sosial sahibkarlıq əslində hər kəsə onların da dəyişiklik və inkişafda pay sahibi ola biləcələklərini göstərən bir sosial mexanizmdir. Digər tərəfdən bu təşkilat içində olduğu kütləni sadəcə inkişaf etdirmək deyil, eyni zamanda kütlənin digər nümayəndələrinə də sivil şəkildə iştirak yolunu açmaqla investisiya qoymağı da hədəf seçmişdir. Yeniliklərə açıq olan sahibkarların, sadəcə iş dünyasında deyil, sosial sferada da rolunun artması, sosial sahibkarlığın bu gün daha da aktuallaşmasına səbəb olmuşdur.[1]

Hazırda dünyanın bir çox məşhur şirkətlərinin nüfuzu onların sosial məsuliyyətdə nə dərəcədə pay sahibi olmaları ilə müəyyən edilir. Böyük Britaniya, Fransa, Almaniya kimi ölkələrdə şirkətlərin təşkilati sosial məsuliyyəti əsas məsələ hesab olunur. Sosial məsuliyyətlə bağlı standartlar hər bir ölkənin qanunları və inkişaf səviyyəsinə görə fərqli ola bilir.[2]

Təşkilati sosial məsuliyyət şirkətlər və QHT-lər üçün inam və hörmətin təmin edilməsində ən önəmli vasitədir. Düzgün aparılan sosial siyasət həm də gələcək mümkün risklərdən sığorta deməkdir. Əgər şirkət və ya QHT sosial məsuliyyətlilik nümayiş etdirərək hər hansı problemin həllində insanların yanında olursa, həmin insanların inamının qazanılması və gün gəldiyində çətin situasiyalarda həmin insanların da şirkətin yanında olması deməkdir. Sosial işgüzarlıq çərçivəsində görülən işlər heç bir qanun tərəfindən nizamlanmır və hər hansı dövlət qurumundan asılı olmur. Sosial işgüzarlıq və sosial məsuliyyət təşkilatın kütləyə olan bağlılığını və ticarət gəlirləri ilə birlikdə sosial məsələlərin də onun üçün önəmli olduğunu göstərir.[3]

Təbii ki, sosial fəaliyyət həm də sosial problemin həlli deməkdir. Bütün bu fəaliyyət isə həm kütlə, həm də şirkətin işçiləri və şirkə-

---

[1] http://www.siviltoplumakademisi.org.tr/index.php?option=com_content&id=573:sosyal-girisimcilik-nedir&Itemid=113
[2] http://www.kas.de/wf/doc/kas_35218-1522-1-30.pdf?13082115095902
[3] http://www.fhajiyev.com/korporativ-sosial-m%C9%99suliyy%C9%99t-n%C9%99dir/

tin özü üçün fayda gətirir. Bu həm şirkət və təşkilatların fəaliyyətinin kütlə və dövlətə açıq olduğunu göstərir, həm də həmin şirkətlər üçün göstərdiyi xidmət və ya istehsal etdiyi məhsulun reklamı deməkdir.

Bu günədək təşkilati sosial məsuliyyətə müxtəlif cür təriflər verilmişdir. Bu anlayışa daha dəqiq və geniş tərif isə Avropa Komissiyasının sənədlərində verilmişdir: «Təşkilati sosial məsuliyyət, mahiyyət etibarı ilə şirkətlərin kütlələrin həyat səviyyəsinin yaxşılaşmasında və ətraf mühitin mühafizəsində iştirakı məsələsində könüllü qərarını təmsil edir». Onun köməyi ilə qurumlar kütlənin mənafeyini göz önündə saxlayaraq, fəaliyyətlərinin tədarükçülərə, ortaqlara, yerli cəmiyyətlərə, işçilərə və sosial sferanın digər nümayəndələrinə təsirinin məsuliyyətini öz üzərlərinə alarlar.[1]

Sosial müəssisələr yanaşması sosial problemlərin həllində «sistemli dəyişmə»ni hədəfləyir. Sosial təşəbbüskarlar ələ aldıqları sahələrdəki mövcud hadisə və problemləri tək-tək həll etməkdənsə sistemli dəyişmə yaratmağı, həll yollarını yaymaqla toplumun da dəstəyini uzun müddətli bir zamanda qazanaraq problemin həllini qarşılarına məqsəd qoyarlar. Beləcə sosial müəssisə fəaliyyəti, sosial problemlərin həllində sərbəst bazar əsaslı üsullarla sistematik dəyişməni hədəfləyən quruluşlar formasında ortaya çıxar. Bu quruluşlar heç bir maddi məqsəd güdməyən, könüllü qeyri-hökumət təşkilatları forması ilə yanaşı, fəaliyyətlərini korporativ formada həyata keçirə bilərlər. Sosial müəssisədən fərqli olaraq sosial sahibkarlığın əsas özəlliyi isə missiyalarını mərkəzə qoyarkən, ticarət fəaliyyətindən əldə edilən gəlirlərin bu missiyaların həyata keçirilməsində vasitə kimi istifadə edilməsidir. Sosial sahibkarlıq müəssisələri də sosial məsuliyyətli şirkətlərdən bu nöqtədə ayrılırlar. Belə ki, sosial sahibkarlıq müəssisələrinin əsas məqsədi əldə edilən gəlir deyil, kütlə üzərində məqsədli təsirdir. Sərbəst bazar şərtləri ilə istehsal etdikləri mal və ya xidmət-

[1] http://sia.az/az/news/economy/406477-biznesin-korporativ-sosial-mesuliyyeti

lərdən əldə etdikləri gəlirləri sosial sahibkarlıq müəssisələri yenidən sosial problemlərin həllinə cəlb edirlər. Sosial sahibkarlıq fəaliyyəti :

1. Keyfiyyətli sosial xidmətlər göstərməklə ictimaiyyət üzərindən yükü götürmüş olur.
2. Məşğulluq imkanları yaradır.
3. Bazar fiqurları olaraq iqtisadiyyatın inkişafında pay sahibi olur.
4. Aşağı gəlirli qrupların məşğulluğu probleminin həllində önəmli rol alaraq cəmiyyətə inteqrasiyasında böyük pay sahibi olur.
5. Fərdləri bir araya gətirərək sosial sərmayə səviyyəsini yüksəldir.
6. Qeyri-hökumət təşkilatları üçün maliyyə mənbələri yaradaraq sosial kütlələrin inkişafında önəmli paya sahib olaraq, eyni zamanda ölkənin inkişafı üçün böyük əhəmiyyətə malikdir.[1]

Sosial işgüzarlıq hər bir ölkənin özünəxas mədəni, iqtisadi, siyasi şərtlərinə uyğun formada mənimsənərək dünyaya yayılmaqdadır. Bu səbəbdən heç bir ölkənin sahibkarlıq modeli digərininki ilə eyni deyildir. Ancaq buna baxmayaraq, dünyada qəbul edilmiş bəzi sosial sahibkarlıq modelləri mövcuddur:

1) Sərbəst bazar iqtisadiyyatı şəraitində mal və xidmət istehsal edərək ticarət fəaliyyəti göstərən sosial sahibkarlar. Bu modeldə ticarət fəaliyyəti sosial sahibkarlıqla həm əlaqəli ola bilər, həm də olmaya bilər.
2) Evdar qadınlar, gənclər, qüsurlu insanlar kimi gəlir səviyyəsi az və ya ümumiyyətlə olmayan insanların məşğulluq və gəlir məsələsinin həlli yönündə sosial fəaliyyət. Bu modeldə ticarət fəaliyyəti sosial sahibkarlıqla birbaşa bağlıdır.

---

[1] http://www.sosyalgirisim.org//content/detail.aspx?cid=10

3) Mikro-kredit tətbiq edilmələri, iş qurmaq və ya layihəsi üçün kiçik sərmayəyə ehtiyacı olan azgəlirli insanlara yeni imkanlar yaratmaq. Bu strategiyanın məqsədi yoxsullara özlərini yoxsulluqdan xilas etmək imkanını təmin etmək məqsədi güdür və Muhammed Yunusun yaratdığı Grameen Bankı da daxil olmaqla bir çox təşkilatlar tərəfindən istifadə olunmaqdadır.[1]

Bu gün Böyük Britaniyada mövcud olan 62.000 sosial sahibkarlıq təşkilatları 800.000 insanın məşğulluq problemini həll etməklə yanaşı, ildə 24 milyard funt sterlinq məbləğində gəlir gətirir. Ən təsirli olduqları sahələr səhiyyə, təhsil, enerji sahələridir. Ölkənin yüksək tirajlı jurnallarından biri olan Big İssue evsizlərin məşğulluq və gəlir kimi məsələlərini həll etməklə yanaşı onların cəmiyyətə inteqrasiyasında bir körpü rolunu oynamasını buna misal göstərmək olar.[2]

Türkiyədə də fərqli quruluş və sahələrdə fəaliyyət göstərən sosial sahibkarlıq nümunələri mövcuddur. Məsələn, vəqf modelində işləyən bir ictimai fəaliyyət nümunəsi olaraq Qadın Mərkəzi Vəqfi (KAMER), 1997-ci ildə Nebahat Akkoç tərəfindən qurulmuş, qadınların təcili və kritik ehtiyaclarına cavab verməklə yanaşı, eyni zamanda bir vətəndaş, yoldaş, ana olaraq hüquqlarının müdafiəsi ilə əlaqədar məsələləri məqsəd qoymuşdur. Dərnək modelində işləyən Buğda Ekoloji Həyatı Dəstəkləmə Dərnəyi, Victor Ananias tərəfindən qurulmuş və Türkiyədə ilk dəfə daxili bazara istiqamətli ekoloji kənd təsərrüfatı tətbiqlərini, alternativ marketinq və təqdimat strategiyaları ilə ekoloji həyat mədəniyyətini təmin etməyə çalışmışdır. Kooperativlər səviyyəsində araşdırıldığında, Qadın Əməyinin Dəyərləndirilməsi Vəqfi (KEDV) və İstanbul, Marmara Zəlzələ bölgəsi, Diyarbakır və Mardində birlikdə çalışdığı qadın qrupları yoxsul qadınların ehtiyac mərkəzli təşkilatlanması üçün model inkişaf etdirmək üzrə iş başlat-

[1] http://www.sosyalgirisim.org//content/detail.aspx?cid=12
[2] http://www.sosyalgirisim.org//content/detail.aspx?cid=13

mış və bu iş nəticəsində yerli qadın qruplarının təşkilatlanması üçün uyğun qanuni quruluş kimi «kooperativ» təyin olunmuşdur. Ayrıca Türkiyədə qeyri-kommersiya şirkət nümunələri də var. Mikado Danışmanlık, Gençtürk və Çöp (m)Adam, ictimai missiyalarını şirkət vasitəsilə həyata keçirən təşkilatlar buna nümunə ola bilər.[1]

Azərbaycanda sosial məsuliyyət fəaliyyətlərinin müəssisəyə təmin edəcəyi faydalar belə sıralana bilər:[2]

1) Müəssisə özünə ictimai bir ətraf yaradaraq,cəmiyyət tərəfindən qəbul edilməsini təmin edər.
2) Xərc kimi görünən əsas tənzimləmələr gəlir olaraq geri dönə bilər.
3) İctimai problemlərin müzakirə olunaraq həll edilməsində yer alaraq kütlənin önəmli bir hissəsi halına gələ bilər.
4) Ekoloji quruluşa həsas,ətraf mühitin mühafizəsi müəssisələri ilə əlaqələr yaradıla bilər.
5) Yeni bazarlara girmə və müştəri sədaqəti təmin olunmasında vacib üstünlüklər əldə edə bilər.
6) Çox istiqamətli fəaliyyət göstərən işçilərin təşkilata olan bağlılığının artmasına səbəb olar.
7) Daha geniş maliyyə qaynaqlarını təmin edər.
8) Çalışanlar və müştərilər, təşkilata daha çox inam hissi duymağa və dəyər verməyə başlayarlar.
9) Təşkilatın cəmiyyətlə, yerli və mərkəzi dövlət orqanlarıyla olan əlaqələri inkişaf edər və güclənər.

Azərbaycanda sosial müəssisələr; fəal, yaradıcı, yenilikçi və obyektiv bir yanaşmadır. İctimai fayda yaratmaq prioritet məqsədlər arasındadır. Hal-hazırda sosial təşəbbüskarlıq tətbiqlərinin, müəssisələrə təmin etdiyi faydalar araşdırıldığında ictimai şəxsiyyət meydana

---

[1] http://www.sosyalgirisim.org//content/detail.aspx?cid=14
[2] Z.E. Nalbant Z.E., "İşletmelerde Sosyal sorumluluk ve İş Ahlakı", Celal Bayar Üniversitesi İ.İ.B.F.
Dergisi, Vol:12, No:1, 2000, s. 197

gətirmə, rəqabət üstünlüyü əldə etmə, etibar təmin etmək və s. başda gəldiyi görülməkdədir.

Sosial işgüzarlıq:[1]

1) Müəssisələrin gücünü sosial məsuliyyətlə tarazlayar.
2) Satışlarda, bazar payında və gəlirlərdə davamlı artımı təmin edər.
3) Müəssisənin ictimai imicini yüksəldər.
4) Xüsusi qabiliyyətli işçiləri özünə çəkmə və əldə tutma imkanı verər.
5) Müəssisəyə investorlar və maliyyə analiz mütəxəssislərinin simpatiyasını və marağını artırar.

Sosial işgüzarlıq iki kateqoriyaya görə qiymətləndirilir:[2]

1) Mövcud sosial xidmətlərin zəmanəti altında xalqa göstərilən xidmətlərin yeni və yaradıcı bir şəkildə təmin edilməsi.
2) Spesifik ictimai problemlərə yeni və yaradıcı yanaşmaları təmin edəcək təşkilatların yaradılması.

Qloballaşmanın yol açdığı ictimai problemlərə həssaslığın artması şəraitində Birləşmiş Millətlər Təşkilatı 2000-ci ildə müəssisələri, qeyri-hökumət təşkilatlarını və agentlikləri əhatə edən və on qanundan ibarət «Qlobal prinsiplər Müqaviləsi»ni qəbul etmişdir. Bu prinsiplər aşağıdakılardır:

1) İş dünyası elan edilmiş insan haqqlarını dəstəkləməli və bu hüquqlara hörmət etməlidir.
2) İş dünyası insan hüquqları pozuntularının cinayət ortağı olmamalıdır.
3) İş dünyası işçilərin birləşmə və toplu müzakirə azadlığını dəstəkləməlidir.
4) Hər cür zorla və məcburi işlətməyə son verilməlidir.
5) Hər cür uşaq işə cəlb olunmalarına son verilməlidir.

[1] Haluk Gürgen, "Kurumsal İtibar Yönetimi ve Sosyal Sorumluluk", 7.Sanayi Kongresi'nde Sunulan Bildiri, Ankara, 2014

[2] Edwin D. Davison., "Social Entrepreneurship", Research Starters Business, 2008.

6) İş dünyası ətraf mühit problemlərinə qarşı müsbət yanaşmaları dəstəkləməlidir.
7) İş dünyası ətraf mühitə istiqamətli məsuliyyəti artıracaq hər cür fəaliyyətə dəstək verməlidir.
8) Ətraf mühit dostu texnologiyaların inkişafı və yayılması həvəsləndirilməlidir.
9) İş dünyası rüşvət də daxil hər cür korrupsiya faktlarına qarşı mübarizə aparmalıdır.[1]

Avropada sosial müəssisə mədəniyyəti deyə bir anlayış olmasa da, Avropa sosial innovasiyanın həyat tapdığı bir bədən kimidir. Avropa Komissiyasının sosial sahibkarlıq mövzusuna marağını görmək üçün ötən illərdə yaşanan hadisələrə baxmaq lazımdır. 2008-ci ildə Komissiya sədri Barroso tərəfindən sosial innovasiyalı ilk iş çalışması təşkil olundu. 2011-ci ildə isə Sosial Müəssisələr Təşəbbüsü (Social Business Initiative) Single Market Act'a daxil edilmişdir. Sosial Müəssisələr Təşəbbüsündə görülən işlər 3 hissəyə bölünür:

1) Qanuni çərçivə;
2) Fond mexanizmi;
3) Görünmə dərəcəsi.

Bu üç ünsürün ortaq məqsədi sosial təşəbbüsləri tanıtmaq və bilinmələrini təmin etməkdir. Azərbaycanda formalaşdırılmağa çalışılan sosial müəssisələrlə əlaqədar müzakirələrin ortaq nöqtələri aşağıdakı mövzulara toxunur:

- **Qanuni təsvir/Sosial təsir:** Qanuni təsvir etmələr çərçivəsində hərəkət edən hökumətlər, sosial sahibkarlıqla əlaqədar bir tərif meydana gəlməsinə əhəmiyyət verir. Meydana gələcək tərifin istər, sosial təşəbbüslər, istərsə də, sosial innovasiya baxımından məhdud olması əsas məsələdir. Sərt təriflər yerinə, sosial təşəbbüslərin iqtisadi və ictimai təsiri üzərində dayanılması daha faydalı nəticələr yarada bilər.

[1] Mustafa Kesim "Girişimcilik" dərs kitabı,Ankara 2011,s.25-26

- **Sosial təsirin ölçülməsi:** Sosial təsir ölçülməsi sosial təşəbbüslər üçün nə qədər əhəmiyyətli olarsa olsun diqqətlə qiymətləndirilməlidir. Sosial təsir statistik məlumatlardan meydana gəlmir; bu səbəblə insanların riyazi qiymətləndirmələr aparıb, sərmayələrini də buna görə yatırmaları çox vaxt doğru nəticələr verməyə bilər. Ədədi məlumatların yanında ictimai təsirin ölçülməsinə fayda verəcək başqa məlumatlar da inkişaf etdirilməlidir (bu çərçivədə «xəritəçəkmə» əməliyyatı da istifadə edilə bilər). Təşkilatlar təsirlərini göstərmə mövzusunda yenilikçi üsullardan istifadə edə bilərlər.
- **İnvestisiya gəlirliliyi:** «Gəlir məqsədi güdməmək» və «Gəlirlərin bölüşdürülməsi» arasındaki fərq: Sosial müəssisələr gəlir əldə edirlərsə, bu necə bölüşdürülməlidir? Gəlirin bölüşdürülməsində bir sərhəd olmalıdırmı? Olarsa bu necə həyata keçirilməlidir? Sosial təşəbbüskarlar bu sualların cavablarını öz modellərinə uyğun cavablandırmalıdırlar.[1]

Sosial müəssisələr ilə bağlı bu günə qədər edilən araşdırmalar və nəticələr şübhəsiz, anlayışla əlaqədar qayda yaratmaq səyləri kimi görülməkdədir. Bu məzmunda, sosial təşəbbüskarlığın konseptual başa düşülməsi adına edilən işlərin analizlərin üstündən keçildiyi və mövzu ilə əlaqədar müşahidələrin müqayisə ilə nəzəriyyə yaradılması yolunda irəlilədiyini görmək olar.

Azərbaycanda da sosial müəssisələrin formalaşdırılması və inkişafı məsələsi zamanla daha da aktuallaşmağa başlayır. Müxtəlif araşdırma mərkəzləri tərəfindən sosial fəaliyyətlə bağlı Azərbaycanda sosial təşəbbüskarlıq və sosial məsuliyyətin dəyərləndirilməsi araşdırması aparılmışdır. Araşdırmaya görə, Azərbaycanda şirkətlərin sosial sfera ilə bağlı fəaliyyətləri inkişaf etmiş ölkələrlə müqayisədə aşağı səviyyədədir. Sovetlər Birliyinin tərkibində olmuş digər dövlətlər kimi Azərbaycanda da kollektiv sistemin tətbiqi, dövlətin özəl müəssisələ-

[1] Sosyal Girişimlerin Geleceği: Sivil Toplum İlişkisi ve Sürdürülebilirlik seminarı, Türkiye 23.02.2013

rin fəaliyyətinə yaratdığı əngəllər və qadağalar sosial sferanın inkişafına, xüsusən sosial müəssisə tipli təşəbbüslərin formalaşmasına mənfi təsirlər göstərmişdir. Hal-hazırda dövlət sosial sferanının, sahibkarlıq və sosial sahibkarlığın inkişafı ilə bağlı müəyyən tədbirlər görsə də, bu sahədə olan problemlər hələ də qalmaqdadır.

Azərbaycanda sosial məsuliyyətin meydana gəlməsi 19-cu əsrin sonlarında, yəni ölkədə neft sektorunun genişlənməsi ilə başladı. O dövrün neft milyonerləri Hacı Zeynalabdin Tağıyev, Ağa Musa Nağıyev, Murtuza Muxtarov, Şəmsi Əsədullayev kimi sahibkarlar məktəb və xəstəxanaların, teatr və mədəniyyət mərkəzlərinin açılmasına hər cür yardım etmiş, insanların maariflənməsi, uşaqların təhsili, boş vaxtın səmərəli keçirilməsi, mədəni səviyyənin yüksəldilməsi, sənət və s. sahələrin inkişafı üçün böyük əmək sərf etmişlər. Edilən araşdırmalar onu göstərir ki, Azərbaycanda sosial təşəbbüskarlıq və məsuliyyətlə bağlı tarixi ənənələr olsa da, bu gün şirkətlər sosial sferada sadəcə özlərinin şirkətdaxili normativ-hüquqi sənədləri çərçivəsində fəaliyyət göstərməyi üstün tuturlar. Bu da ölkədə sosial sahibkarlıq və məsuliyyətin mövcudluğu və inkişafına problemlər yaradır. Azərbaycanda bir çox böyük şirkətlər vardır ki, onların sosial sferada fəaliyyətlərini qismən də olsa, görmək mümkündür, ancaq bununla belə onların fəaliyyəti məhdud çərçivədə həyata keçirilir. Bunun da əsas səbəblərindən biri kimi həmin böyük şirkət rəhbərlərinin xarici vətəndaşlar olması göstərilməkdədir.[1]

Ölkəmizdəki şirkətlərin sosial fəaliyyətləri mövcud 6 fəaliyyət növündən ikisi ilə məhdudlaşır ki, bunlar da sponsorluq və xeyriyyəçilikdir. Sosial fəaliyyət sahəsində digər şirkətlərdən hər zaman bir addım irəlidə olan dövlət neft şirkəti «SOCAR» bu məsələdə bir sıra önəmli layihələrə imza atmışdır. Şirkətin verdiyi sosial hesabata görə idmanın inkişafı və yayılmasında önəmli rolu olan «Neftçi» İdman Sağlamlıq Mərkəzi yaradılmış, insana yönəlik tədbirlər çərçivəsində

---

[1] http://modern.az/articles/21598/1/

Ağdam rayonundakı məcburi köçkünlərə qida yardımı edilmişdir.[1] Bundan başqa «Azercel»in «Hər uşağın ailəyə ehtiyacı vardır» layihəsi, «Muğam Festivalı 2011»-ə dəstəyi, Hyundai Azərbaycanın «Gələcəyimiz üçün əl-ələ» layihələri sosial layihələrdəndir.[2] Azerfon MMC-nin Eşitmə əngəlli insanların cəmiyyətə inteqrasiya olunması ilə də bağlı həmin insanlara müxtəlif kurslarla təhsil və tədrisdən sonra işə alınması kimi layihələri də göstərmək mümkündür.[3]

Aparılan araşdırmalar Azərbaycanda sosial məsuliyyət və sosial müəssisələrin inkişafı ilə bağlı əsas problemləri ortaya çıxarır:

1. Bu barədə məlumatın az olması.Təşkilati sosial müəssisə fəaliyyəti barədə məlumatı olmayan və ya az məlumatı olan icmalar və ya şirkətlər sosial fəaliyyətə haradan başlamaq lazım olduğunu bilmədikləri üçün bu məsələyə o qədər də önəm vermirlər.
2. Qanuni infrastrukturun olmaması və qanunlarda bununla bağlı xüsusi müddəaların olmamasından dolayı bir çox şirkətlər bu məsələdə özlərini məsuliyyətli hesab etmədikləri üçün sosial layihələrdə iştirak etmir.
3. Sosial məsuliyyət və sosial müəssisələrlə bağlı məlumatların az olmasından dolayı bir çox şirkətlər bu fəaliyyəti sadəcə sponsorluq kimi görürlər.
4. Kifayət qədər ixtisaslı kadrın olmaması və onların məşğulluq məsələsinin şirkətlər üçün çox xərc tələb etməsi.
5. Bu sahədə universitetlərdə ayrıca ixtisas sahələrinin olmaması və ya az önəm daşıması.
6. Bu sahədə bəlli bir standartların, xüsusilə də SA 8000 standartının Azərbaycan dilində tərcüməsinin olmaması.
7. Beynəlxalq təcrübənin öyrənilməməsi.

---

[1] http://www.kas.de/wf/doc/kas_35217-1522-1-30.pdf?130821124739

[2] http://www.fhajiyev.com/korporativ-sosial-m%C9%99suliyy%C9%99t-n%C9%99dir/

[3] https://www.nar.az/pages/default/pageName=Social_responsibility_strategy/

8. İnsanlar sosial məsuliyyət baxımından həyata keçirilən layihələrə o qədər də güvənmirlər. Sosial fəaliyyətləri olan bir çox şirkətlər olsa da, insanlar həmin yardım və layihələrin doğru insanlara ünvanlanması məsələsində şübhəli düşünə bilirlər ki, bu da sosial məsuliyyətlə bağlı məlumat azlığından irəli gəlir.

Şirkətlərin təşkilati sosial məsuliyyəti onların nə dərəcədə ictimaiyyəti və kütləni diqqət mərkəzində saxladığını müəyyən edən bir vasitədir. Azərbaycanda isə bu məsələdə problemlər yaşanır. Şirkətlərin böyük əksəriyyəti təşkilati sosial məsuliyyət strategiyasına laqeyd yanaşır.[1] Təşkilati sosial məsuliyyət və sahibkarlıq şirkətin dayanıqlı inkişaf strategiyası siyasəti və onun həyata keçirilməsidir. Şirkətin təşkilati sosial məsuliyyəti iqtisadi, ətraf mühit və sosial fəaliyyət sahəsində pay sahibi olması, həmçinin həm şirkətin özünün inkişafı və eyni zamanda onun yer aldığı bölgələrdəki insanların da inkişafı deməkdir.[2]

Ölkəmizdə təşkilati sosial məsuliyyət və sosial müəssisələr sahəsində mövcud problemləri aradan qaldırmaq üçün sistemli şəkildə bir sıra təkliflər irəli sürülə bilər:

1. İctimaiyyət sosial müəssisələr və sosial məsuliyyətin nə olduğu ilə bağlı məlumatlandırılmalıdır. Bu mövzuda seminarlar verilə bilər, tv və radio proqramlar hazırlana bilər.
2. Universitetlərdə bu mövzuda verilən dərslərin miqdarı və saatı artırılmalı, ayrıca fakültələr yaradılmalıdır.
3. Təşkilati sosial məsuliyyət ilə bağlı beynəlxalq standartlar Azərbaycan dilinə tərcümə edilməlidir. Bu gün sosial məsuliyyətlə bağlı bir çox beynəlxalq standartlar mövcuddur. Bunlardan SA 8000, Caux prinsipləri, Keidanren müqaviləsi, Qlobal Məsuliyyət Razılaşması və s. göstərmək olar. Ancaq

---

[1] http://oley.az/?p=69606
[2] http://sia.az/az/news/economy/406477-biznesin-korporativ-sosial-mesuliyyeti

bu müqavilələrin heç biri bizim dilə tərcümə edilməmişdir. Buna görə də müəssisələrin sosial sahibkarlıq sahəsində həyata keçirdiyi layihələrin standartlara uyğun olub olmadığını bilə bilmirik.

4. Sosial müəssisələr və sosial məsuliyyətlə bağlı hüquqi tənzimləmələr həyata keçirilməlidir. Əgər bu sahədə hüquqi tənzimləmələr həyata keçirilərsə, müəssisələr özlərini bu məsələdə daha məsuliyyətli hiss edəcəklər.
5. Sosial müəssisə formalaşdırma fəaliyyəti olan müəssisələrə vergi güzəştləri tətbiq edilməlidir. Hüquqi tənzimləmələrin tərkib hissəsi olmalı olan vergi endirimləri ilə şirkətlər sosial müəssisə formalaşdırma fəaliyyətinə daha da həvəsləndirilə bilər.
6. Şirkətlər sosial müəssisə və sosial sahibkarlıq fəaliyyətinə təşviq edilməlidir. Bu məsələdə dövlətin rolu ilə bərabər ictimaiyyətin rolu da ön plana keçirilməlidir. Belə ki, insanlar sosial müəssisələrlə bağlı təcrübəsi olan şirkətlərin məhsul və xidmətlərinə daha çox maraq göstərməklə digər şirkətləri də sosial müəssisə yaratma fəaliyyətinə cəlb edə bilərlər.
7. Sosial müəssisələr fəaliyyəti ilə məşğul olanlar hər ay hesabat verməlidir. Beləcə verilən hesabatlar vərdiş halını almaqla yanaşı, sosial məsuliyyəti və şəffaflığı artırmağa istiqamətlənməlidir.
8. Yerli müəssisələr bu sahədə dünya təcrübəsində sınaqdan keçirilmiş innovativ layihələrdən faydalanarlarsa, daha yaxşı nəticələr əldə edilər.

## 3.2. Azərbaycanın bölgələrində sosial inkişaf və sosial müəssisələrin yaradılması perspektivləri

### *3.2.1. Gəncə-Qazax iqtisadi rayonunda sosial inkişaf və sosial müəssisələrin yaradılması perspektivləri*

XX əsrin 70-80-ci illərindən etibarən ABŞ və Avropada eyni vaxtda sosial müəssisələrin inkişafı prosesi müşahidə olundu. Müvafiq olaraq, ABŞ və Qərbi Avropa ölkələrinin iqtisadi ədəbiyyatlarında sosial müəssisə, sosial sahibkarlıq anlayışıları ilə əlaqədar ilk və təfsilatlı araşdırmalar diqqəti cəlb edir. Azərbaycan Respublikasında sosial müəssisə, sosial sahibkarlıq anlayışları bütün postsovet məkanında olduğu kimi keçid dövrü başa çatdıqdan sonra aktuallıq qazanmağa başladı. Yəni, müstəqillik illərində bazar iqtisadiyyatı münasibətlərinin bərqərar olması şəraitində, sosial sahibkarlıq institutlarının da mövcud olması zərurəti getdikcə daha çox hiss olunmaqdadır. Lakin, araşdırmalar göstərir ki, Azərbaycan Respublikasında bu növ sosial yönümlü iqtisadi fəaliyyətə fərqli yanaşma nümayiş etdirilmişdir. Sosial müəssisələrin əsasına insan potensialının inkişafı qoyulmuşdur. Bu isə innovativ inkişafa dəstək kimi qəbul edilə bilər. Azərbaycanda bu sahədə fəaliyyət eyni zamanda gender xüsusiyyətləri nəzarə alınmaqla həyata keçirilmişdir.

Son illərdə sosial müəssisələrin və sosial sahibkarlıq institutlarının yaradılması bütün dünyada iqtisadi trendə çevrilmişdir. Bu baxımdan, Azərbaycanda da sosial müəssisələrə bütün dünyada olduğu kimi daha geniş diqqət yetirilməlidir. Günün tələbinə uyğun Azərbaycan regionlarında «sosial müəssisə» nümunələri, ya pilot-layihələri yaradılmalı, tələbələr üçün ixtisas kursları, mühazirələr, beynəlxalq konfranslar təşkil olunmalıdır.

Bu gün Azərbaycan dövləti sosialyönümlü siyasət aparır və ölkədə sosial təminatın, sosial infrastrukturun yaxşılaşdırılmasına yö-

nələn ardıcıl proqramlar həyata keçirir. Ölkədə sürətli iqtisadi inkişaf və büdcə gəlirlərinin davamlı artımı sosial xərcləri də müntəzəm artırmağa, yoxsulluğun səviyyəsini son 5-7 ildə dəfələrlə aşağı salmağa, sosial təminat sistemini möhkəmləndirməyə imkan yaradıb. Dövlət büdcəsinin xərclər hissəsində sosialyönümlü xərclər mühüm paya malikdir. Son 7-8 il ərzində ölkədə 11-dən artıq sosial təyinatlı dövlət proqramları həyata keçirilib, onların mühüm bir qismi regionların, digər qismi isə paytaxt Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafını əhatə edir.

Bu gün uğurlu sosial siyasətin nəticəsində ölkədə yoxsulluq səviyyəsi azalmaqdadır. Belə ki, XX əsrin 90-cı illərində Azərbaycanda yoxsulluq səviyyəsi 62% idi isə, bu gün o 5,7% -ə enmişdir (*bax:* şəkil 20).




***Şəkil № 20. Yoxsulluq səviyyəsi, %-lə***

Eyni zamanda sosial müəssisələrin inkişafı yoxsulluğun bu qədər azalmasına və əhalinin sosial müdafiəsi göstəricilərində pozitiv təmayüllərin müşahidə olunmasına da səbəb olmuşdur.

Təkcə gənclərlə bağlı 2005-2009 və 2011-2015-ci illəri əhatə edən iki Dövlət Proqramı qəbul olunub. Sonuncu proqramın icrasına dövlət tərəfindən 80 milyon manat vəsait ayrılıb. Bütövlükdə büdcədən hər il sosial yönümlü proqramlara ayrılan xərclər ümumilikdə milyardlarla manat həcmindədir.

Azərbaycanda sosial təminatın gücləndirilməsi və aztəminatlı sosial təbəqənin maddi vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən ən mühüm proqramlardan biri də *ünvanlı sosial yardım* mexanizminin yaradılmasıdır. Bu mexanizm Azərbaycan Prezidenti tərəfindən 2005-ci il oktyabrın 25-də imzalanmış qanunla tənzimlənir. Qanunun əsas məqsədi orta aylıq gəlirləri hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan ailələrə dövlət tərəfindən maliyyə yardımlarının ayrılmasını tənzimləməkdir.

İqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunda davamlı inkişaf və yüz minlərlə yeni iş yerlərinin yaradılması, nəticədə əhalinin orta aylıq gəlirlərinin ardıcıl şəkildə artması ilə paralel ünvanlı sosial yardım mexanizminin tətbiq olunması Azərbaycanda yoxsulluq səviyyəsinin ilbəil aşağı düşməsinə imkan verib. Dövlət Statistika Komitəsinin rəsmi statistikasına əsasən yoxsulluğun səviyyəsi 2003-cü ildən bu yana 5,2 dəfə azalıb.[1]

Bu gün sosial müəssisələrin yaradılmasını aktuallaşdıran müasir çağrışlar (iqtisadi, sosial, demoqrafik, humanitar, ekoloji, siyasi və s.) Azərbaycan Respublikası Prezidentinin bəyan olunmuş «Qara qızılın insan kapitalına» çevrilməsi konsepsiyasının daha sürətlə həyata keçirilməsinə təkan verir. Bu baxımdan Azərbaycanda yerli yaşayış məntəqəsinin və icmaların insan potensialı və dayanaqlı gəlirləri əsasında təşkilatların yaradılması (Community Based Organizations: Human Development and Sustainable İncome Generation Public Unions) öl-

[1] http://www.azerbaijans.com/content_1034_az.html

kəmizdə bir sıra sosial-iqtisadi problemlər – yoxsulluqla mübarizədə, iş yerlərinin yaradılmasında, gender bərabərliyinin təmin edilməsində, əmək miqrasiyasının qarşısının alınmasında, ailələrin tamlığının qorunmasında, əhalinin bilik və bacarıqlarının artırılmasında, yerli bərpa olunan resursların səfərbər edilməsində və bu yolla davamlı inkişafa təsirin təmin edilməsində, demokratiya və özünüidarəetmə prinsiplərinin qorunmasında və s. məsələlərin həllində əhəmiyyətli dərəcədə dəstək ola bilər.

Heç şübhəsiz ki, bu göstəricilərin yaxşılaşdırılmasında sosial müəssisələrin yaradılması və inkişafı da əhəmiyyətli rola malik ola bilər. Sosial müəssisələr insan potensialının istifadəsində əvəzsiz əhəmiyyət kəsb edir.

Sosial müəssisələrin əhəmiyyətinin cəmiyyətə çatdırılması istiqamətində də respublikada məqsədyönlü işlər görülməkdədir.

İnsan inkişafı baxımından təhsil prosesi insanın imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir. Təhsilin səviyyəsi insanların həyat fəaliyyətinin müxtəlif cəhətlərinə, məsələn, sağlamlığına, siyasi fəaliyyətinə, klassik musiqi qavrayışına, sosial bağlılıqlarına, intizamlılığına və s. təsir göstərir. Təhsil ev təsərrüfatlarının idarə olunmasında, uşaqların tərbiyəsində, onların qidalanmasının təşkilində, sağlamlığının və keyfiyyətli təhsilinin təmin edilməsində yeni bilik və texnologiyaların istifadə edilməsinə şərait yaradır. Ananın təhsil səviyyəsi yüksək olduqca, körpə və uşaq ölümü əmsalı aşağı düşür, belə ki, ailədə gəlir səviyyəsindən asılı olmayaraq, uşaqlara qulluğun, onların təlim--tərbiyəsinin və qidalanmasının keyfiyyəti yaxşılaşır. Təhsilli insanlar daha mürəkkəb və deməli daha yüksək ödənişli işlərin öhdəsindən gələ bilir. Onlar fiziki və təbii kapitaldan daha səmərəli istifadə edərək, son nəticədə məhsuldarlığı və iqtisadi kapitalı da artırmış olurlar. Azərbaycanda bu prosesin dövlət və qeyri-dövlət ümumi təhsil müəssisələrini bitirən və təhsil haqqında sənəd alan şagirdlərin sayının dinamikasında müşahidə etmək olar.

Təhsil müəssisələrinin – ilk növbədə universitet və institutların – yerinə yetirməli olduğu digər bir funksiya yeni biliklərin yaradılması

və sosial və iqtisadi həyatın bütün sahələrində tətbiq edilməsidir. Elmi-texniki kəşflərin sürətli artımı, texnika və səhiyyə xidmətləri sahəsində geniş istifadəsi elmi biliklərin rolunun radikal surətdə dəyişməsinin göstəricisidir. Yeni bilgilərin və yeni tətbiq metodlarının axtarışı («ixtiralar və innovasiyalar») müasir cəmiyyətlərdə fəaliyyətin mühüm bir sahəsinə çevrilmişdir. Külli miqdarda yatırımların edildiyi bu sahədə çalışan insanların sayı da az deyildir. Yüksək təhsilli insanlar yeniliklərin tətbiq edilməsinə, əldə etdikləri nəticələrini həmkarları ilə paylaşmağa və təcrübələrini gənclərlə bölüşməyə daha meyillidirlər. Beləliklə, təhsilin sayəsində nəinki elmi biliklər və sosial qaydalar toplanaraq gənc nəsillərə ötürülür, həm də bütün cəmiyyətin və dövlətin intellektual potensialı formalaşır.




***Şəkil 21. Dövlət və qeyri-dövlət ümumi təhsil müəssilərini bitirən və təhsil haqqında sənəd alan şagirdlərin sayı (nəfər).***
***Mənbə:** Azərbaycanın statistik göstəriciləri* [1]

[1] http://www.stat.gov.az/source/education/az/gr_education_az.xls

Eyni zamanda, insan inkişafının təmin olunmasında əsas rollardan birini oynayan – səhiyyə sahəsində – dövlət siyasətinin başlıca məqsədi əhalinin sağlamlığının yaxşılaşdırılmasından, orta ömür müddətinin uzadılmasından, əhalinin bütün təbəqələrinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsindən ibarətdir

Səhiyyədə son nail olunmuş göstəricilər şəkil 22-də əks etdirilib.




***Şəkil 22. 2014-ci ildə əhalinin yaş qrupları üzrə xəstələnməsi (%-lə)***
***Mənbə:*** *Azərbaycanın statistik göstəriciləri 2015*[1]

[1] http://www.stat.gov.az/source/healthcare/az/gr_health.xls

Eyni zamanda, qeyd etməliyik ki, bu gün Azərbaycanda ötən 10 ilə yaxın dövr ərzində iqtisadi irəliləyiş, dövlətin iqtisadi potensialının artması ölkədə səhiyyənin inkişafına və əhalinin sağlamlığının qorunması problemlərinin davamlı həllinə nail olmağa imkan yaradıb. Ölkə rəhbərliyi tərəfindən müəyyən edilən uzunmüddətli inkişaf strategiyasının mühüm istiqamətlərindən biri kimi səhiyyənin inkişafını, əhalinin dünya strandartlarına uyğun tibbi yardımla təmin olunmasını təmin etmək üçün genişmiqyaslı islahatlar həyata keçirilir. Bu sahəyə hər il böyük həcmdə investisiyalar yatırılmaqdadır. Səhiyyəyə ayrılan büdcə vəsaiti son 10 il ərzində 10 dəfədən çox artıb. Bu dövrdə böyük əksəriyyəti respublikanın bölgələrində olan 500-dən artıq tibb müəssisəsinin tikintisi və ya əsaslı təmiri həyata keçirilib, tibb müəssisələrinin hamısı müasir texnika və avadanlıqla təchiz olunub. Bu dövrdə səhiyyə sahəsinə dövlət tərəfindən ayrılan vəsaitin həcmi 11 dəfə artıb. Yoluxucu xəstəliklərlə mübarizə işində əhəmiyyətli nəticələr əldə olunub, bu sahə praktik səhiyyənin prioritet istiqaməti kimi daim diqqət mərkəzində saxlanılmaqdadır. Həyata keçirilən tədbirlər sayəsində Azərbaycanda uşaq ölümü kəskin şəkildə aşağı düşmüş, həmçinin ana və uşaq ölümünün səviyyəsi bir neçə dəfə aşağı salınıbdır.

Tədqiqatımızın birbaşa obyekti olan Gəncə-Qazax iqtisadi bölgəsində isə vəziyyət bir o qədər də qənaətbəxş deyil. Beləki son göstəriciyə görə, 2014-cü ildə bu indikator hər iki cins üzrə ən müsbət nəticə əldə olunduğuna baxmayaraq (*bax:* cədvəl 10), respublika göstəricisi ilə müqayisədə xeyli aşağıdır və 10.0 təşkil edir.

Bu da ona dəlalət edir ki, həmin bölgədə reproduktiv problemlər aktualdır və sosial və dayanaqlı inkişaf məsələlərin həllinə daha çox diqqət yetirilməlidir.

Qeyd etməliyik ki, bu gün müasir Azərbaycanda insan potensialının inkişafına yatırılan investisiyalar təkcə fərdlərin gəlirlərinin artmasına deyil, eyni zamanda onların əməyinin keyfiyyətinin də yüksəlməsinə səbəb olur.

***Cədvəl 10. Gəncə-Qazax iqtisadi bölgəsində körpə ölümün dinamikası***

| İllər | 5 yaşadək ölən uşaqların sayı, nəfər | | | hər 1000 diri doğulana düşən 5 yaşadək ölən uşaqların sayı | | |
|---|---|---|---|---|---|---|
| | Hər iki cins | o cümlədən | | Hər iki cins | o cümlədən | |
| | | qızlar | oğlanlar | | qızlar | oğlanlar |
| 2008 | 237 | 104 | 133 | 12,3 | 11,7 | 12,8 |
| 2009 | 266 | 120 | 146 | 13,2 | 12,8 | 13,5 |
| 2010 | 277 | 128 | 149 | 13,8 | 13,9 | 13,8 |
| 2011 | 271 | 117 | 154 | 12,8 | 12,6 | 12,9 |
| 2012 | 234 | 116 | 118 | 11,9 | 12,1 | 11,7 |
| 2013 | 218 | 81 | 137 | 11,1 | 10,6 | 11,6 |
| 2014 | 205 | 117 | 88 | 10,0 | 10,2 | 9,9 |

***Mənbə:*** *Azərbaycanın statistik göstəriciləri*[1]

Dövlət xərcləri hesablanarkən, nəzərə alınmalıdır ki, insan kapitalına sərf edilən vəsaitlər gələcəkdə gəlir axınının dəfələrlə artması ilə kompensasiya edilə bilər. Təhsil insanı daha məhsuldar, daha səriştəli edir, işçidə sahibkarlıq qabiliyyətlərini inkişaf etdirir, onu bacarıqlı təşkilatçıya, problemlərdən səmərəli çıxış yolu tapan mütəxəssisə çevirir. Digər tərəfdən sağlamlıq problemlərinin həlli insanları fiziki cəhətdən daha sağlam və işgüzar edir. Odur ki, dövlətin sosial siyasətinin optimal qurulması cəmiyyətin mütərəqqi inkişafına zəmanət verir və insan potensialının gerçəkləşdirilməsinə şərait yaradır.

Hal-hazırda Azərbaycanın Qərb bölgəsi Gəncə-Qazax iqtisadi rayonunu əhatə edir. Bu iqtisadi rayon Ağstafa, Daşkəsan, Gədəbəy, Goranboy, Xanlar, Qazax, Samux, Tovuz inzibati rayonlarını, Gəncə və Naftalan kimi şəhərləri əhatə etməklə Azərbaycanın qərbində yerləşir. İqtisadi rayon əlverişli iqtisadi-coğrafi mövqeyə malikdir. Onun ərazisinin ümumi sahəsi 12,5 min kv.km olmaqla ölkə ərazisinin 14,4 %-nə bərabərdir. Relyef xüsusiyyətlərinə görə rayonun ərazisi 4 zonaya: maili düzənliklər, dağətəyi, orta dağlıq (dəniz səviyyəsindən 1000-

[1] http://www.stat.gov.az/source/millennium/source/MDG_az-14.08.2015.pdf

2000 metr yüksəklikdə), yüksək dağlıq (dəniz səviyyəsindən 2000 m yüksəklikdə) zonalara ayrılır. Rayonun iqlim şəraiti də bu zonalara müvafiq olaraq müxtəlifdir.

İqtisadi rayonun əlverişli təbii şəraiti və iqtisadi-coğrafi mövqeyi əhalinin məskunlaşmasında mühüm rol oynamışdır. Əhalinin ümumi sayı 1103,3 min nəfər olmaqla ölkə əhalisinin 13,6 %- ni təşkil edir.

Gəncə-Qazax iqtisadi rayonu iqtisadi əhəmiyyətinə görə ölkədə ikinci yeri tutur. Azərbaycanın ikinci sənaye rayonu ölkənin sənaye məhsulunun 12-13%-ni verir. İqtisadi rayonun sənayesi hasiledici və emaledici sahələrdən ibarətdir. Gəncədə və Daşkəsəndə qara və əlvan metallurgiya xammalının hasilatı, onların ilkin emalı müəssisələri yerləşir. Ağır sənaye rayonun iqtisadiyyatında mühüm yer tutur. Maşınqayırma sənaye sahəsi üzrə iqtisadi rayonda cihazqayırma, rabitə avadanlığı istehsalı, avtomobillərin və kənd təsərrüfatı maşınlarının təmiri müəssisələri fəaliyyət göstərir. Gəncə-Qazax iqtisadi rayonunun kompleks inkişafında nəqliyyat sistemi əhəmiyyətli rol oynayır. Rayon Azərbaycanı Gürcüstan və Qara dənizin sahilləri ilə birləşdirən dəmir və avtomobil yolları üzərində yerləşir. Gəncə, Qazax və Ağstafa – əsas nəqliyyat qovşaqlarıdır. Gəncə şəhərində respublika əhəmiyyətli hava limanı yerləşir. Xəzər dənizindən hasil edilən neftin və qazın dünya bazarına çıxarılması üçün çəkilən boru kəməri iqtisadi rayonun ərazisindən keçir. Rayonun əlverişli təbii şəraiti, saf iqlimi, mənzərəli dağ-meşə landşaftı, müalicəvi təsirli mineral suları beynəlxalq əhəmiyyətli istirahət-müalicə müəssisələrinin yaradılmasına imkan verir. Dəniz səviyyəsindən 1566 m yüksəklikdə Göy-Göl və Hacıkənd istirahət guşələri salınmışdır. Naftalan istirahət-müalicə kompleksi ümümdünya əhəmiyyətlidir.

Azərbaycanın şimal-qərb bölgəsinin sosial-iqtisadi inkişafında, bu ərazilərdə məskunlaşan əhalinin bir çox sosial-mədəni tələbatlarının (səhiyyə, elmi-mədəni, təhsil) ödənilməsində rayonun sosial infrastrukturu mühüm rol oynayır. Gəncədə Azərbaycan Milli Elmlər

Akademiyasının Elm Mərkəzi, elmi-tədqiqat müəssisələri fəaliyyət göstərir.

Bu gün həmin bölgədə kifayət qədər ardıcıl və səmərəli sosial siyasət aparılır.

2012-2014-ci illər ərzində Gəncə-Qazax iqtisadi rayonunda 50 yeni mədəni-sosial obyekt tikilmiş, 16-sı əsaslı təmir edilmiş, 94 obyektin isə tikintisi və əsaslı təmiri işləri davam etdirilmişdir. Ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı həmin dövr ərzində Samux rayonunda «Quşçuluq» istehsalı və emalı fabrikinin, Gəncə şəhərində «Elba kəsim və emal fabriki»nin (ət məhsullarının istehsalı), «Gəncə-Dəyirman» MMC-də 2 ədəd 5000 tonluq taxıl anbarının, Qazax rayonunda «Carcı» şirkətinə məxsus sutkada istehsal gücü 50-100 ton olan yeni çörək zavodunun, Göygöl rayonunda «ASR» şirkətinin 2 ha ərazidə yerləşən müasir tipli istixanasının, Tovuz rayonu Aşağı Quşçu kəndində 0,3 tonluq, Şəmkir rayonu Posanlı kəndində 1000 tonluq soyuducu anbarlarının tikintisi davam etdirilmişdir.

Gəncə-Qazax iqtisadi rayonunda son yeddi ildə yoxsulluğun səviyyəsi 49 faizdən 9,1 faizə düşmüş, 900 mindən çox iş yeri açılmışdır. Onu da diqqətə çatdıraq ki, Prezident İlham Əliyevin sərhəd bölgələrimizin inkişafına xüsusi diqqətlə yanaşması təsadüfi deyil. Çünki dövlət başçısının dəfələrlə qeyd etdiyi kimi, hər şey sərhəddən başlayır. Digər tərəfdən Gəncə-Qazax iqtisadi rayonunun düşmənlə sərhəddə yerləşməsini nəzərə alsaq, o zaman bu bölgənin strateji əhəmiyyəti daha aydın hiss olunar. 2004-2014-cü illərin müqayisəli təhlilini aparsaq, görərik ki, bu dövrdə rayonda ümumi məhsul istehsalı 3,7 dəfə, sənaye məhsulu 8,1 dəfə, kənd təsərrüfatı məhsulları 2,5 dəfə artıb. Əsas kapitala yönəldilən investisiyaların həcmi 19,5 dəfə çoxalıb. 2004-2014-cü illərdə, bu bölgədə 150 dən çox müəssisə yaradılıb, 4126-sı daimi olmaqla 6226-dan çox yeni iş yeri açılıb. Bu dövrdə rayonda tikinti-quruculuq işlərinin aparılması da diqqətdə saxlanılıb. Yeni sosial obyektləri, səhiyyə və təhsil müəssisələri tikilib istifadəyə verilib. Rayonda, ümumilikdə, 3380 yerlik 9 yeni məktəb inşa

olunub. Heydər Əliyev Fondu da bu prosesdə yaxından iştirak edib. Məsələn, Fondun təşəbbüsü ilə Qazaxda 4 məktəb tikilib. Rayonda mədəniyyətin inkişafı, yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması, kənd təsərrüfatı sistemində köklü islahatların həyata keçirilməsi də əldə olunan nailiyyətlər sırasındadır.

Eyni zamanda, qeyd etmək lazımdır ki, Gəncə-Qazax iqtisadi rayonunda Minilliyin məqsədlərinə uyğun olaraq daha sürətli insan inkişafı üçün müəyyən hədəflər mövcuddur (*bax: cədvəl* 11 və 12-yə).

***Cədvəl 11. Əhalinin hər 100 nəfərinə düşən kompyuter istifadəçilərinin sayı (nəfər).***

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Bakı şəhəri | 29 | 38 | 52 | 58 | 67 | 80 | 78 | 81 | 83 | 86 |
| Abşeron iqtisadi rayonu | 17 | 20 | 25 | 32 | 32 | 48 | 62 | 64 | 71 | 75 |
| Gəncə-Qazax iqtisadi rayonu | 14 | 15 | 19 | 27 | 28 | 35 | 46 | 52 | 58 | 66 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 5 | 5 | 6 | 8 | 16 | 20 | 39 | 48 | 55 | 63 |
| Lənkəran iqtisadi rayonu | 9 | 10 | 12 | 14 | 18 | 22 | 38 | 46 | 54 | 61 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 6 | 8 | 10 | 11 | 19 | 22 | 37 | 45 | 51 | 59 |
| Aran iqtisadi rayonu | 8 | 9 | 10 | 11 | 15 | 20 | 35 | 41 | 48 | 55 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 7 | 6 | 8 | 8 | 26 | 29 | 30 | 37 | 44 | 50 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | | | | | | | | | | |
| Dağlıq Şirvan iqtisadi rayonu | 12 | 15 | 20 | 22 | 29 | 36 | 39 | 43 | 61 | 65 |
| Naxçıvan iqtisadi rayonu | 23 | 26 | 29 | 31 | 34 | 42 | 59 | 63 | 70 | 72 |

***Mənbə:*** *Azərbaycanın statistik göstəriciləri*[1].

Cədvəllərdən göründüyü kimi, Gəncə-Qazax iqtisadi rayonu əhalinin hər 100 nəfərinə düşən kompyuter istifadəçilərinin sayına görə ancaq 3 iqtisadi bölgədən – Bakı, Abşeron və Naxçıvandan geri qalır. Lakin bu onu göstərir ki, İKT sahəsində inkişaf daha da intensivləşməlidir. Digər göstərici – iqtisadi rayonlar üzrə gənclərin işsizlik

[1] http://www.stat.gov.az/source/millennium/source/MDG_ir-14.08.2015.pdf

əmsalı üzrə vəziyyət o qədər də ürək açan deyil. Göründüyü kimi, Bakı və Abşeronu vahid iqtisadi məkan kimi götürmək mümkün olduğunu nəzərə alsaq, gənclərin işsizlik əmsalına görə, Gəncə-Qazax iqtisadi rayonu ikinci yerdədir.

***Cədvəl 12. İqtisadi rayonlar üzrə gənclərin (15-24 yaş) işsizlik əmsalı (faizlə).***

| | Bakı şəhəri | Abşeron iqtisadi rayonu | Gəncə-Qazax iqtisadi rayonu | Şəki-Zaqatala iqtisadi rayonu | Lənkəran iqtisadi rayonu | Quba-Xaçmaz iqtisadi rayonu | Aran iqtisadi rayonu | Yuxarı Qarabağ iqtisadi rayonu | Kəlbəcər-Laçın iqtisadi rayonu | Dağlıq Şirvan iqtisadi rayonu | Naxçıvan iqtisadi rayonu |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **2011** | | | | | | | | | | | |
| Cəmi | 15,1 | 21,9 | 18,5 | 12,8 | 12,9 | 14,0 | 14,4 | 21,3 | 6,8 | 21,4 | - |
| kişi | 14,5 | 24,5 | 15,6 | 11,3 | 18,8 | 16,9 | 14,0 | 13,9 | 5,7 | 20,5 | - |
| qadın | 15,6 | 20,2 | 22,9 | 15,3 | 6,9 | 11,1 | 14,7 | 28,3 | 7,9 | 22,5 | - |
| **2012** | | | | | | | | | | | |
| Cəmi | 14,5 | 17,4 | 16,5 | 9,0 | 12,0 | 14,8 | 14,4 | 15,3 | 10,1 | 16,2 | - |
| kişi | 13,3 | 18,1 | 15,1 | 8,1 | 11,5 | 15,3 | 14,4 | 12,4 | 9,0 | 13,4 | - |
| qadın | 14,7 | 17,6 | 17,9 | 10,0 | 12,5 | 13,2 | 14,5 | 18,3 | 11,3 | 19,5 | - |
| **2013** | | | | | | | | | | | |
| Cəmi | 14,7 | 16,8 | 16,9 | 9,5 | 11,9 | 14,5 | 14,7 | 18,7 | 10,7 | 17,2 | - |
| kişi | 12,8 | 17,6 | 15,2 | 8,7 | 11,3 | 15,2 | 12,3 | 13,0 | 9,2 | 15,2 | - |
| qadın | 16,3 | 16,1 | 19,6 | 10,4 | 12,6 | 13,9 | 17,7 | 22,2 | 12,4 | 19,8 | - |
| **2014** | | | | | | | | | | | |
| Cəmi | 14,6 | 16,3 | 16,7 | 9,4 | 11,8 | 14,4 | 14,2 | 18,6 | 10,8 | 17,1 | - |
| kişi | 12,7 | 16,8 | 15,0 | 8,6 | 11,1 | 15,0 | 11,8 | 12,8 | 9,5 | 15,4 | - |
| qadın | 16,2 | 15,8 | 19,5 | 10,3 | 12,5 | 13,8 | 16,9 | 22,1 | 12,5 | 19,9 | - |

***Mənbə:*** *Azərbaycanın statistik göstəriciləri*[1]

Bu və digər sosial problemlərin həllində, zənnimizcə, Azərbaycanda və xüsusən insan inkişafı baxımından böyük potensialı olan bölgələrdə, dünyada çoxdan müsbət nəticələr verən – *sosial müəssisələr* əhəmiyyətli rol oynamalıdır. Sosial müəssisələrin yaradılması heç şübhəsiz ki, kor-təbii yox, kompleks təhlil əsasında aparılmalıdır.Tədqiq olunan iqtisadi rayonun isə insan potensialı kifayət qədər təhlil

[1] http://www.stat.gov.az/source/millennium/source/MDG_ir-14.08.2015.pdf

olunub və bu bölgənin hətta özünəməxsus pasportu yaradılmışdır. Bu iş Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin İqtisadi islahatlar elmi-tədqiqat institutu tərəfindən aparılmışdır.[1]

Bu baxımdan, apardığımız tədqiqat nəticəsində, zənnimizcə, aşağıdakı sosial müəssisələrin yaradılmasını məqsədəuyğun saymaq olar:

**Xalçaçılıq müəssisələri.** Gəncə xalçaçılıq məktəbi Gəncə şəhəri və onun ətraf kəndlərini, Gədəbəy və Goranboy, Şəmkir, Samux rayonlarının ərazisini əhatə edir. Bu məktəbin mərkəzi Gəncə şəhəridir. Qədim şəhərlərdən olan Gəncə Azərbaycanın şimal qərbində yerləşir. Gəncə hələ X-XI yüzilliklərdə ipək, yun parçaların, ipək xalçaların istehsal mərkəzi kimi tanınmışdır. Əsrlər boyu yüksək keyfiyyətli xalça istehsalı mərkəzi olan Gəncədə xüsusi xalça emalatxanaları olmuşdur. Gəncə xalçaçılıq məktəbi Gəncə ətrafında olan rayonların xalçaçılığına müsbət təsir göstərmişdir. Gəncə xalça məktəbinə «Gəncə», «Qədim Gəncə», «Gölkənd», «Fəxralı», «Çaykənd», «Çaylı», «Şadılı», «Çıraqlı», «Samux» və s. kompozisiyalar daxildir. Gəncə qrupuna daxil olan «Fəxralı» namazlıq xalçası öz yüksək bədii xüsusiyyətinə, toxunuşuna görə digər xalça kompozisiyalarından fərqlənir. Bu məktəbin nümayəndələri və ənənələri hələ də yaşayır və işsizliyin, xüsusən qadınlar arasında, aradan qaldırılımasında bu tip sənətkarlıq müəssisələrinin rolu olduqca böyük ola bilər. Eyni sənət növü Qazaxda da inkişaf etmişdir, yəni xalçaçılıq fəaliyyəti tədqiq olunan iqtisadi rayon üçün doğma və ənənəvi sayıla bilər. Bu cür sosial müəssisələri öz spesifikasını (qadın əməyini) nəzərə alaraq, tək yaşayan, kamillik yaşına çatmamış çoxuşaqlı qadınların hesabına formalaşdırmaq olar.

İqtisadi rayonda digər potensial səmərəsi olan yaradılası sosial müəssisə – kənd turizmi müəssisələridir.

---

[1] http://www.ier.az/view.php?lang=az&menu=210&submenu=220

Qeyd etməliyik ki, şəhər həyatının yox etdiyi xoşluqları, təbiətiylə, insanı ilə, ənənələriylə təqdim edilən kənd turizmi (eko turizm) qarşıdakı illərin üstünlük veriləcək tətil keçirmə forması olacaq. Bu turizmin həyata keçirilməsində əsas məqsədlərdən biri şəhər insanına təbiəti xatırladarkən kənd qadınının və gənclərinin əməyini də qiymətləndirməkdir.

Kəndli qadın və gənclərimiz çox vaxt kəndlərinə, qəsəbələrinə gələn turistlərdən xəbərsiz qalır. Halbuki, xüsusilə xarici turistlərə yerli mədəniyyət və həyat tərzini ən yaxşı izah edəcək kəslər onlardır. Eyni zamanda bu arada onlar bazara çıxardıqları təbii, bölgəyə xas qidalar və əl işlərini satma imkanı qazanacaqlar. Bu qaynaqların qiymətləndirilməsi üçün təbii gözəllikləri və tarixi məkanları olan kəndlərdə yeni infrastrukturun qurulması lazımdır. Kəndlilərin məhsullarını sata biləcəkləri gigiyenik sahələr yaratmaq, ayrıca kəndin gənclərinə də xarici dil təhsili verilərək ünsiyyət qurmalarını təmin etmək, kəndin gənclərini xarici dil öyrənmələri mövzusunda yönləndirib onların dil kurslarına getmələrinə yardım göstərmək, beləliklə kəndlərə gələn turistlərlə tək-tək maraqlanma fürsətini tapacaqlar. Beləliklə, yerli əhali həm çıxardıqları məhsulları satıb gəlir əldə edəcək, həm də yerli mədəniyyəti, bilikləri təbliğ edib yaşadacaqlar. Beləliklə də bir başa bölgə əhalisi insan potensialının inkişafına və eyni zamanda səmərəli istifadəsinə böyük təkan verəcəkdir.

Gəncə–Qazax iqtisadi rayonun müasir şəraitinə uyğun başqa aradılacaq sosial müəssisə növü üzümçülük təsərrüfatları ilə bağlıdır.

Nəzərə çatdıraq ki, tədqiq olunan iqtisadi rayonunun Gəncə-Qazax maili düzənliyində və Ceyrançöl hissəsində yayı isti, quraq, qışı mülayim, yumşaq keçən yarımsəhra quru-çöl iqlimi hakimdir. Orta illik izotermlər +10ºC və +14ºC arasında dəyişir. Bu da suvarma əkinçiliyi, ümumiyyətlə, təsərrüfat fəaliyyəti üçün əlverişli şərait yaradır. Dağlıq ərazilərdə qışı quraq keçən mülayim isti iqlim üstünlük təşkil edir. Rütubətin kifayət qədər olması və yağıntının əsasən bitkilərin vegetasiya dövrünə düşməsi dəmyə əkinçiliyinə imkan verir.

Orta illik yağıntıların miqdarı 400-600 mm təşkil edir. Bu iqlim şəraiti xüsusən üzümçülük təsərrüfatlarının inkişafına münbit şərait yaradır.

Vaxtilə Azərbaycanda kənd təsərrüfatından əldə edilən ümumi mənfəətin 30 faizi üzümçülüyün payına düşürdü. Keçən əsrin 80-ci illərində üzümçülük iqtisadiyyatın aparıcı sahəsi olan neft sənayesi ilə rəqabət apararaq dövlət büdcəsinin formalaşmasında mühüm yer tuturdu. Şamaxı, Gəncə, Cəlilabad, Ağdam, Füzuli, Xanlar, Qazax, Tovuz, Şəmkir rayonlarının hər birində ildə 100 min tona qədər üzüm tədarük edilirdi. Üzümçülüyün respublika iqtisadiyyatı üçün böyük əhəmiyyətə malik olduğunu yüksək qiymətləndirən ulu öndər Heydər Əliyev 1970-ci ildən başlayaraq bu sahənin inkişafına xüsusi diqqət və qayğı göstərirdi. Azərbaycan Prezidenti cənab İlham Əliyevin imzaladığı «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafının (2004-2008-ci illər) Dövlət Proqramı» aqrar sahənin, o cümlədən üzümçülüyün inkişafı üçün geniş perspektivlər açmışdır. Üzümçülüyün inkişafı üzrə tədbirlərin də nəzərdə tutulduğu «Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı» və «2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı» kimi mühüm sənədlər təsdiq edilmişdir. Bununla yanaşı, ölkə Prezidenti bölgələrə etdiyi səfərlərdə üzümçülüyün prioritet sahə olduğunu dəfələrlə xatırlatmış və bu sahənin inkişafına xüsusi diqqət yetirmək zərurətini vurğulamışdır.

Bu baxımdan Gəncə-Qazax iqtisadi rayonunda üzümçülük sahəsində sosial müəssisələrin inkişafı yerli əhalinin insan potensialının istifadəsinə böyük yardım edə bilər. Gəncə şəhər Kəpəz Bələdiyəsi ərazisində qeyd olunan sahə üzrə icma əsaslı sosial müəssisənin yaradılması perspektivləri yüksəkdir. Sosial statusuna görə aztəminatlı ailələr, əlillər, təqaüdçülər, tənha qadınlar ilk növbədə bu sahədə əmək fəaliyyətinə cəlb olunmalıdırlar.

Rayonun əlverişli təbii şəraiti, saf iqlimi, mənzərəli dağ-meşə landşaftı, müalicəvi təsirli mineral suları beynəlxalq əhəmiyyətli isti-

rahət-müalicə müəssisələrinin yaradılmasına imkan verir. Bu baxımdan, məsələn, təbii qida məhsullarının (mineral içkilərin, balların, doşabların, meyvə qurularının, yerli süd və süd məhsullarının və s.) istehsalı ilə məşğul olan kiçik sosial müəssisələrin yaradılması bölgədə insan inkişafına böyük stimul verəcək. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş «2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair» Dövlət Proqramında arıçılığın da inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. Bu baxımdan, arıçılıq təsərrüfatlarının, xüsusən, Gədəbəy, Qazax, Daşkəsan rayonlarında inkişaf etdirilməsi çox əlverişlidir. Burada bir neçə bal növü əldə etmək üçün münasib iqlim və meşə şəraiti mövcuddur. Digər tərəfdən, regionda qida məhsullarını kiçik sahibkarlıq təsərrüfatlarında da inkişaf etdirmək olar. Belə ki, Ağstafa rayonunda süd məhsullarının istehsalı üçün heyvandarlıq və yaylaq potensialı mövcuddur.

Sosial müəssisələrin Gəncə-Qazax iqtisadi rayonun sənaye kompleksinin iri müəssisələrinin nəzdində də yaradılması məqsədəuyğun görünür. Məsələn, Gəncədə 2 saylı Şərab Zavodu, Göygöl Şərab Zavodunun nəzdində xüsusi qablaşdırma sexi açıla və orada yerli əhalinin ənənəvi məşğul olduğu fəaliyyətlərdən biri – zəmbiltikmədən bəhrələnərək, şərab məhsulları xüsusi milli dizaynda satışa buraxıla bilər. Bu işə qadınlar, əmək qabiliyyəti məhdud olan vətəndaşlar cəlb oluna bilər.

Eyni zamanda, Gəncə şəhərində ölkəni beynalxalq səviyyədə təqdim edən digər iri iqtisadi subyekt – Gəncə Avtomobil Zavodu öz fəaliyyətini davam etdirir. Bu zavodun təşkilati strukturunda böyük fiziki əmək tələb etməyən əlavə kuzovların boyanması sexi açıla bilər. Burada qadın və əlillərin potensialından geniş istifadə etmək olar.

Bu gün sosial məsələlərin həlli səviyyəsi iqtisadi inkişafın indikatoru olaraq, Azərbaycanda, həmçinin Gəncə-Qazax iqtisadi rayonunda özünü birmənalı müsbət tərəfdən biruzə verir. Ölkədə həyata keçirilən radikal sosial-iqtisadi islahatlar nəticəsində təhsil, səhiyyə,

məşğulluq və s. sosial sahələrdə önəmli nailiyyətlər əldə olunub. Belə ki, hazırda ölkədə tibbi xidmətlərinin 60%-dən çoxu qeyri-dövlət, 7,3% xarici və müştərək müəssisələr tərəfindən həyata keçirilir.

Azərbaycan təhsili son on bir ilin bütün dövrlərində olduğu kimi, bu ilə də kifayət qədər uğurlu addımlarla başlayıb. Prezident İlham Əliyevin 2015-ci ilin əvvəlində imzaladığı sərəncamlarla təsdiq olunmuş «Dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əməkhaqqının artırılması haqqında» sənəd və «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası»nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı» bu baxımdan mühüm əhəmiyyətə malikdir. Region ölkələrində büdcənin sosial xərclərinin azaldıldığı və dünya bazarında neftin qiymətinin endiyi bir vaxtda belə bir qərarın verilməsi, əlbəttə ki, Azərbaycan həqiqətlərini qiymətləndirə bilən adamlar üçün gözlənilməz deyildi.

Səhiyyədə də bu cür müsbət tendensiyalar müşahidə olunur. Son dövrdə 60-dan çox tibb müəssisəsi tikilmişdir. 2008-2015-ci illərdə Azərbaycanda reproduktiv sağlamlığa dair milli strategiya həyata keçirilir. 2007-ci ildən dövlət tibb müəssisələrində tibbi xidmət pulsuzdur. Azərbaycanda uşaq və böyüklərin kardiolojoi cərrahiyyə əməliyyatlarının pulsuz həyata keçirilməsi işinə başlanılması qərarı təsdiqlənmişdir. Azərbaycanda «Yoxsulluğun azaldılması və iqtisadi inkişaf» Dövlət Proqramının həyata keçirilməsində iqtisadi və sosial məsələlərlə yanaşı, səhiyyədə islahatlar əhəmiyyətli yer tutur. Azərbaycanda Səhiyyə sahəsində fəaliyyət göstərən Birləşmiş Millətlər Təşkilatı Uşaq və Əhali Fondunun, UNİCEF, Dünya Bankı, USAİD, WHO və digər beynəlxalq qurumların yardımını xüsusilə qeyd etmək lazımdır.

Tədqiq olunan iqtisadi rayonda səhiyyə inkişafının statistik məlumatları da kifayət qədər nikbin tendensiyalardan xəbər verir. Belə ki, 2015-ci ilin əvvəlində rayonda həkimlərin sayı 2789 nəfər, xəstəxanaların sayı 69, orta tibb işçilərinin sayı 7048 nəfər təşkil emişdir.

Bu göstəricilər isə respublikada Bakı-Abşeron və Aran iqtisadi rayonlarından sonra üçüncü yerdədir.

Lakin eyni zamanda, Gəncə-Qazax iqtisadi rayonun sosial inkişafında yeni, innovativ yolları da tətbiq etməyin zamanı çatıb. Bu baxımdan, dünyada geniş tətbiqini tapmış sosial müəssisələrin yaradılması da gündəmə gəlməlidir. Təbii ki, bu prosesi başlamaq və inkişaf etdirmək üçün müəyyən hüquqi-informativ baza olmalıdır. Odur ki, milli qanunvericilikdə bu növ müəssisələrin yaradılma prosedurlarına bir qədər fərqli yanaşma olmalıdır. Yəni bu müəssisələrlə bağlı sözsüz ki, Vergi Məcəlləsində və «Müəssisə haqqında» Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilməlidir. Bu növ müəssisələrin formalaşması və fəaliyyəti dövlət tərəfindən stimullaşdırılmalıdır. Məsələn, sosial müəssisələr ilk fəaliyyət ilində gəlir vergisindən və ya ƏDV-dən tam azad olunmalıdır. Bu müəssisələrin işçilərinə əmək haqqı minimumu bir qədər yuxarı dərəcə ilə hesablanmalıdır. Eyni zamanda milli qanunvericilikdə sosial müəssisələrin təşkili prosesində mütləq aşağıdakı meyar nəzərə alınmalıdır: sosial müəssisələrin işçi heyətinin azı 50%-ni məhdud əmək qabiliyyəti və ya aylıq gəlir həcmi rəsmi ehtiyac meyyarından aşağı olan vətəndaşlar təşkil etməlidir.

Tədqiqatımız nəticəsində məlum oldu ki, Gəncə-Qazax iqtisadi rayonunda sosial müəssisələrin ən perspektivli sahələri məhz xalçaçılıq, üzümçülük və kənd turizmidir. Bu sahələrdə sosial sahibkarlık yerli insan potensialı və ənənələri nəzərə alınaraq inkişaf etdirilməlidir. Zənnimizcə, «Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı»nın həyata keçirilməsi prosesində sosial müəssisələr əvəzolunmaz ictimai-iqtisadi mexanizm kimi çıxış edə bilər və bu respublikamızda aparılan innovativ islahatların mütərəqqi nümünəsi olacaqdır.

### *3.2.2. Qax, Zaqatala, Balakən rayonlarında sosial inkişaf və sosial müəssisələrin yaradılması perspektivləri*

Respublikanın digər regionlarında olduğu kimi Şəki-Zaqatala iqtisadi rayonunda da inzibati və idarəetmə quruluşu yerli icra hakimiyyəti və bələdiyyələrdən ibarətdir. Şəki-Zaqatala iqtisadi rayonu Şəki, Zaqatala, Balakən, Oğuz, Qax və Qəbələ inzibati rayonlarını əhatə edir. Bunlar da özləri inzibati ərazi vahidlərinə, şəhər, qəsəbə və kənd yaşayış məntəqəsinə bölünürlər. [1]

Layihə çərçivəsində Qax, Balakən, Zaqatala rayonlarında sosial müəssisələrin yaradılması imkanları araşdırılımış, mövcud etnik biliklərin istifadəsi sahəsində müzakirələr aparılmış, bu biliklərdən səmərəli istifadə olunması üçün yerli icra strukturları və icmalar ilə fikir mübadiləsi aparılmışdır. Xüsusən bu ərazilərdə xalçaçılıq, misgərlik, arıçılıq və dulusçuluqla məşğul olan şəxslərlə etnik biliklərdən səmərəli istifadə yolları müzakirə edilmişdir. Qax rayonunun Qum kəndində icmanın formalaşdırmaq ərəfəsində olduğu «Eko Kənd» və Qax rayon mərkəzində Qax bələdiyyəsinin təşkilatçılığı ilə yerli icmaya dəstək məqsədi ilə yaradılması nəzərdə tutulan «Tikiş sexi» əsasında sosial müəssisələrin formalaşdırılması ilə əlaqədar icma nümayəndələrinə təkliflər verilmiş və onlar dünyada mövcud olan bu tipli müəssələrin təcrübəsi haqqında məlumatlandırılmışdır.

Qax rayonu Azərbaycan Respublikasının şimal-qərbində yerləşir. Rayonun ərazisi 1494 km$^2$-dir. Şimal-şərqdən Dağıstan Respublikası, cənub-qərbdən Gürcüstan Respublikası, şimal-qərbdən Zaqatala və cənub-şərqdən Şəki inzibati rayonları ilə həmsərhəddir.[2] Əhalinin sayı – 55,2 min nəfər təşkil edir (1 yanvar 2015-ci il). Əhalinin sıxlığı – 1 km 2 37 nəfər (1 yanvar 2015-ci il). Rayonda 17 bələdiyyə fəaliyyət göstərir. İqtisadiyyatın əsasını kənd təsərrüfatı təşkil

---

[1] http://www.economy.gov.az/media/pdf/sheki-zaqatala-2012.pdf

[2] http://www.qax-ih.gov.az/page/13.html

edən Qax rayonunda ötən illər ərzində iqtisadiyyatın bütün sahələrində dinamik inkişafa nail olunmuşdur. 2014-cü ildə Qax rayonu üzrə pərakəndə əmtəə dövriyyəsi 75,5 mln. manat təşkil etmişdir ki, bu da ölkə üzrə ümumi pərakəndə ticarət dövriyyəsinin 0,34 faizinə bərabərdir.[1] Qax rayonu üzrə ümumi məhsul buraxılışında sənaye məhsulunun həcmi 5896 min manat təşkil etmişdir. 2013-cü illə müqayisədə 2014-cü ildə sənaye məhsulunun həcmi 1,17 dəfə artmışdır. 2014-cü ildə Qax rayonunda 479 yeni iş yerləri açılmışdır ki, onunda hamısı yəni açılmış 479 yer daimi iş yerləridir. Rayonda 2014-cü ildə əsas kapitala investisiyaların həcmi 11818,7 min manat olmuşdur. Əsas kapitala investisiyaların böyük hissəsi yəni 11301,5-i tikinti quraşdırma işlərinə sərf olunmuşdur. Son illərdə rayonda istifadəyə verilmiş əsas fondlarda xeyli artım olmuşdur. Bu da regionda tikinti müəssisələrinin sayının artması və onların fəaliyyəti nəticəsində mümkün olmuşdur. 2014-cü ildə rayonda 21,4 min kv.m yaşayış evləri (fərdi yaşayış evləri nəzərə alınmaqla) istifadəyə verilmişdir. 2014-cü ildə rayonda birdəfəlik yer tutumu 564 yer olan mehmanxana və mehmanxana tipli müəssisə fəaliyyət göstərmişdir. Bu müəssisələrdə nömrələrin sayı 225 nömrə təşkil edir. 2014-cü ildə Qax rayonunda mehmanxana və mehmanxana tipli müəssisələrdə gecələmələrin sayı 13587 vahid olmuşdur.

Qax rayonunda sosial müəssisələrin ən perspektivli sahələri məhz xalçaçılıq, arıçılıq, meyvəçilik və kənd turizmidir. Qax rayonunda turizm sahəsində sosial müəssisələrin yaradılması perspektivləri tədqiqatda əsas yerlərdən birini tutmuşdur. Cünki ekoturizm sahəsi Azərbaycan üçün xüsusi bir əhəmiyyət daşıyır. Ekoturizm və ya ekoloji turizm – təbiət turizminin bir forması kimi ətraf mühitə qayğı ilə bağlı turizm növüdür. Ekoturizmin bir neçə qaydası var. Ekoturizm turizm fəaliyyətinin yerli əhali ilə qarşılıqlı əlaqəsidir. Ekoturizm turizmin elə növüdür ki, orada:

---

[1] http://www.stat.gov.az/source/regions/

1. Turizmin digər növləri ilə müqayisədə insanlar tərəfindən daha az korlanmış təbii ərazilərdə həyata keçirilir.
2. Ekoturizm ətraf aləmin dağıdılmasına və onun keyfiyyətinin aşağı düşməsinə səbəb olmur.
3. Müvafiq etibarla və bacarıqla həyata keçirilməlidir.

Ekoturizm – məqsədyönlü şəkildə təbii ərazilərə ətraf mühitin və yerli təbiətin vəziyyəti ilə daha da dərindən maraqlanmaq, bütün bunların daha da dərindən öyrənilməsi və dərk edilməsi məqsədilə edilən səyahətdir. Belə səyahətlər zamanı ekosistemin bütövlüyü qorunmalıdır. Bununla yanaşı ekosistemin qorunması yerli əhaliyə sərf edəcək şəkildə həyata keçirilməlidir. Ekoturizm təbiətin qorunmasına səbəb olacaq.

Yuxarıda da qeyd olunduğu kimi layihə çərçivəsində Qax rayon və Qum kəndi bələdiyyələrində seminarlar təşkil olunaraq yerli potensial və tarixi yerli biliklərin imkanları çərçivəsində insan potensialına əsaslanan sosial müəssisələrin yaradılması perspektivləri müzakirə olunmuşdur. İcma əsaslı sosial müəssisə olaraq Qum kəndində «Eko Kənd» layihəsi ilə bağlı müzakirələr aparılmış və icmanın formalaşdırmaq istediyi bu layihəyə təkliflər verilmişdir. Min illərdir ki, insanlar təbiətlə iç-içə uyumlu bir şəkildə yaşayırlar. Lakin günbəgün artan, çoxalan ətraf mühitin kirlənməsi eko-kəndlərin yaranmasına əsas səbəbdir. Məqsəd kənddə mədəniyyət mirasımızı, tarixi əsərləri, keçmişdən gələn əl sənətkarlığını canlandırmaq, təbii gözəllikləri qorumaq, təmiz qida məhsullarının yetişdirilməsini çoxaltmaq, heyvandarlığın inkişafını təmin edəcək təşkilati və sosial-iqtisadi tədbirlər həyata keçirmək, kəndlərimizdə sosial-iqtisadi vəziyyəti yaxşılaşdırmaq baxımından aşağıdakı fəaliyyət növlərini inkişaf etdirməkdir:

- Ənənəvi suvenir istehsalatı və s. ilə məşğul olan ailə birliklərinin yaradılması.
- Arıçılığın inkişafı.
- Dağlarda şabalıd, qoz və s. meyvə ağaclarından ibarət meşələrin salınması.

- Meyvə emalı ilə məşğul olan kiçik müəssisələrin yaradılması.
- Təmiz qida məhsullarının yetişdirilməsini dəstəkləmək.
- Mümkün olduqca icmanın bioaləm içində yeyəcəklərimizi yetişdirmək.
- Tarixi və təbii gözəllikləri qorumaq.
- Evlərimizi yerli materiallardan tikmək.
- Bioloji çeşidliliyi qorumaq.
- Ekoloji iş prinsiplərinə sadiq qalmaq.
- Ekoloji kənddə işlənən hər cür məhsulu ekoloji tərəfdən dəyərləndirmək.
- Altenativ enerjidən istifadə və onun öyrənilməsi.
- Düzgün enerji və tullantı məhsulları ilə torpaq, su və havanı təmiz saxlamaq.
- Təbiəti qorumaq və vəhşi təbiəti mühafizə etmək.
- Mövcud mənzil ehtiyatlarının istifadəsi və artırılması.
- Qadınların (işsiz) sosial vəziyyətini yaxşılaşdırmaq.
- Xalçaçılığın canlandırılması.
- Düşərgə və sığınacaqların təşkili.
- Yerli icmaya ekoturizm haqqında biliklərin verilməsi.
- Duluzçuluğun yenidən bərpası
- Taxta oyma sənətinin inkişafı
- Dəmirçiliyin bərpası

Zaqatala rayonu Azərbaycan Respublikasının şimal-qərbində, Böyük Qafqaz sıra dağlarının cənub ətəklərində, Alazan-Əyriçay vadisində yerləşir. Əhalinin sayı – 124,7 min nəfər (1 yanvar 2015-ci il), Əhalinin sıxlığı – 1 km 292 nəfər (1 yanvar 2015-ci il). Rayonda 23 bələdiyyə fəaliyyət göstərir. Rayon iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Rayonda sənaye sektoru, o cümlədən emal sənayesi də kifayət qədər inkişaf etmişdir. Zaqatala rayonu zəngin təbii ehtiyatlara malikdir. Rayon turizmin, mebel sənayesinin, tikinti səna-

yesinin, ovçuluğun, dərman bitkiləri tədarükü və emalı sənayesinin inkişaf etdirilməsi üçün kifayət qədər potensial imkanlara malikdir. Tikinti materialları sənayesini inkişaf etdirmək üçün rayon əhəng daşı, qum, gil, çay daşı və s. ehtiyatlara malikdir ki, bu da rayonda asfalt, sement, silikat kərpic, dəmir beton məmulatlarının istehsalını inkişaf etdirməyə imkan verir. Ərazinin zəngin təbii landşaftı və toxunulmamış meşə sahələri turizmin inkişafı üçün əlverişli perspektivlər aça bilər. Ərazidə həm respublika vətəndaşlarının, həm də xarici vətəndaşların maraqlı istirahət mənbəyi ola biləcək əvəzsiz təbiət guşələri (Qəbizdərə, Honzoqor dağı, Xalaxı gölü, Moorcay, Malarasa aşırımı və s.) mövcuddur. Zaqafqaziyada təşkil edilmiş ilk qoruq sayılan (1929-cu il) və çox zəngin flora və faunaya malik olan Zaqatala Dövlət Qoruğu (ərazisi 47.4 min ha.) ekoturizmin inkişafı üçün əvəzsizdir.[1]

Balakən rayonu Azərbaycanın Şimal-Qərbində, Böyük Qafqazın cənub yamaclarında, Alazan Həftəran vadisində yerləşir. Təbii ehtiyat zənginliyinə, iqtisadi potensialına və mədəni irsinə görə fərqlənən Balakən rayonu Şimalda Rusiya Federasiyası (Dağıstan Muxtar Respublikası), Qərb və Cənub-Qərbdə Gürcüstan Respublikası, Şərqdə isə Zaqatala rayonu ilə həmsərhəddir.

Sahəsi 934 $km^2$ olan Balakən rayonunun ərazisinin 45,4 min hektarını meşələr, 32,8 min hektarını Dövlət qoruğu, 18,2 min hektarını əkin sahələri, 6,9 min hektarını bağlar təşkil edir[2]. Əhalisinin sayı – 94,9 min nəfər (1 yanvar 2015-ci il). Əhalinin sıxlığı – 1 km2 101 nəfər (1 yanvar 2015-ci il). Balakən rayonu olduqca zəngin faydalı qazıntı ehtiyatlarına malikdir. Filizçay, Tenros, Katsdağ və Katex kolçedan, polimetal yataqları, mis, qurğuşun, sink və kükürdlə zəngindir. Ehtiyatlarına görə Filizçay Avropada ən iri yataqlardan biri sayılır. Əlvan metallurgiya üçün qiymətli xammal mənbəyi olan bu yataqların

---

[1] http://zaqatala-ih.gov.az/page/14.html
[2] http://balaken-ih.gov.az/page/13.html

istismarı Respublikamızın iqtisadi inkişafında mühüm rol oynaya bilər.

Zəngin meşə ehtiyatlarına malik Balakəndə fıstıq, palıd, şabalıd, eldar şamı, ağ şam, qara şam, cökə, vələs, qoz, qızılağac, lapan, qovaq, yalanqoz, göyrüş, fındıq, Qafqaz xurması, dəmir ağac və s. ağaclar bitir. Dağ meşələrində bitən yabanı qida bitkilərindən armud, alma, fındıq, zoğal, nar, sumaq, əzgil, yemişan, alça kimi ağacları qeyd etmək olar. Balakən rayonunun meşələrində təbabət əhəmiyyətli 150 növ dərman bitkisi vardır ki, bunun da 80 növünün ehtiyatı külli miqdardadır. Bunlardan itburnu, altey (gülxətmi), dağ zanbağı, yemişan, kəndəlaş, su bibəri, yarpız, nanə, kar gicitkən, andız, qızılçətir, baldırğan, biyan, göyəm, dazı otu, kalina, üçyarpaq yonca, zirinc, çay tikanı, qaragilə, Qafqaz rododendronu (jenşen), moruq, böyürtkən, kəklik otu, çobanyastığı, bağayarpağı, əvəlik, razyana və s. bitkiləri göstərmək olar. Müalicə və süfrə suları istehsalı məqsədi ilə istifadə oluna biləcək təbii süfrə suları və kükürdlü sular da mövcuddur.

Rayonda xüsusi istedada malik sənətkarlar vardır. Bunları nəzərə alaraq rayon Heydər Əliyev adına mədəniyyət və istirahət parkında 2012-ci ildən sənətkarlar evi fəaliyyətə başlamışdır. Həmin sənətkarlar evində rayonun xüsusi əl qabiliyyətli insanlarının əl işləri toplanıb saxlanılır. Xüsusən yerli tarixi biliklərin qorunması üçün ağac üzərində oyma, ayna üzərində oyma, dəmirçi, misgər, toxucu, təkəlduzçuluq, həsirçilik, nalbənd, daş oyma sənətləri bu gündə davam etdirilməkdədir.

Qax, Zaqatala, Balakən rayonlarında müxtəlif sosial müəssisələrin yaradılması və inkişaf etdirilməsi potensialını qiymətləndirmək üçün aparılan araşdırmalardan görünür ki, yeni sosial müəssisələrin yaradılması, onlar üçün əlverişli investisiya mühiti formalaşdırmaq yolu ilə icmaların iqtisadi inkişafına, insan potensialına əsaslanan sosial müəssisələrin yaradılmasına yardım edə biləcək mexanizm kimi yerli özünüidarə qurumları olan bələdiyyələrin rolu artırılmalıdır.

### 3.2.3. Lənkəran iqtisadi rayonunda sosial inkişaf və sosial müəssisələrin yaradılması perspektivləri

Azərbaycan Respublikası regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına, nəticədə əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir. Ölkədə sahibkarlığın inkişafı məqsədilə biznes mühitinin daim yaxşılaşdırılması nəticəsində yüksək keyfiyyətli, ixracyönümlü və rəqabət qabiliyyətli məhsulların istehsal edilməsi dövlətin iqtisadi inkişaf strategiyasının əsas prioritetlərindəndir. Bu sahədə həyata keçirilən dövlət siyasəti sahibkarlığa yaradılmış fəaliyyət mühitinin daha da yaxşılaşdırılmasına, dövlət himayəsinin təkmilləşdirilməsinə və dövlət-sahibkar münasibətlərinin yaxşılaşdırılmasının təmin edilməsinə yönəldiləcəkdir.

Son zamanlar sosial müəssisələr dünyada ictimai marağa səbəb olmuşdur. Belə ki, vətəndaş cəmiyyətinin dəstəyi nəticəsində edilən təşəbbüslər yalnız iqtisadi xarakterə yox, o cümlədən həyat keyfiyyəti və ümumi maraqlara toxunan xidmətlərə malikdir. Sosial müəssisələr sosial missiya həvəsini biznes şəklində ehtiva edir. Belə ki, bir çox sosial sektor institutları öz işlərində tez-tez səmərəsiz olurlar və onların mütərəqqi menecment və marketinq üsullarına ehtiyacları böyükdür. Müasir dünyada sahibkarlığın sadəcə ticarət sektorunda ola biləcəyi düşüncəsi zəifləməkdədir. Sosial müəssisələrin dili yeni ola bilər, la-

kin bu fenomen yeni deyil. Sosial müəssisələr üçün sosial missiya vacib faktordur. Missiya ilə əlaqədar təsir əsas meyardır, lakin bu meyar mənfəət əldə etmək meyarı deyildir. Mənfəət sadəcə sosial sahibkarın və sosial müəssisənin məqsədi üçün bir vasitədir. Sosial müəssisələr isə daha çox vətəndaş cəmiyyətinin subyektləridir. Dünyada sosial problemlərin artdığı bir dövrdə sosial müəssisələrin yaradılması cəmiyyətin inkişafına əhəmiyyətli töhfə verir və onun inkişafını təmin edir. Sosial müəssisələr anlayışının ədəbiyyata daxil edilməsi üçün 1980-ci ildə Hindistanda vəzifədə olan Amerikalı William Draytona borcluyuq. Drayton Hindistanda əldə etdiyi təəssüratlar nəticəsində ictimai sahibkarlıq haqqında araşdırma aparmış və ədəbiyyata bu anlayışı qazandırmış olmaqla bu sahədəki məlumatlılığı artırmışdır. Bununla Drayton ictimai təşəbbüskarlığın bir sektor halına gəlməsinə qapı açmışdır. Bu da, özündə ictimai təşəbbüskarlıq potensialı görən kəslərin yolunu daha tez tapmasına və əməkdaşlıq imkanlarının artmasına gətirib çıxarmışdır. Bir ölkədən digərinə, sosial müsəssisələrin sayı gün keçdikcə artmaqdadır. Kiçik bir ölkə olan Slovakiya, 1989-cu ildə bir əlin barmağı qədər sosial müsəssisəyə malik idi, bu gün isə sosial müəssisələrin sayı on mindən çoxdur. Amerika Birləşmiş Ştatlarında vətəndaşların meydana gətirdiyi sosial müəssisələrin 70%-i son otuz ildə qurulmuş, təxminən iki milyon mənfəət məqsədi güdməyən sosial müəssisə fəaliyyət göstərməkdədir.

Sosial müəssisələrə ictimai məqsəd daşıyan biznes müəssisələri, o cümlədən inkişaf bankları, öz sakinlərini maarifləndirmək və məşğulluq dərəcəsini artırmaq məqsədi daşıyan ictimai təşkilatlar daxildir. Bu təşkilatların kökləri adət-ənənələrə bağlıdır və sosial müəssisələr oradan çıxaraq inkişaf edirlər. Təşkilatda əsas olan, ictimai bağlılıqdır və ictimai bağlılıq olmadan sosial müəssisə qurmaq olmaz. Bir cəmiyyətdən başqa bir cəmiyyətə sosial müəssisələrin köçürülməsi üçün çox güc lazımdır, hətta bəzi hallarda bu qeyri-mümkündür. Bunun baş verməsi üçün, sosial müsəssisələrdə əsaslı quruluş dəyişiklikləri olmalıdır.

Sosial müəssisələrin vəzifəsi ictimai sahədəki problemləri dərk etmək və bu problemlərin aradan qaldırma yollarını tapmaqdır. Sosial müəssisələr nəyin yolunda getmədiyini tapar və problemin aradan qalxmasını təmin edər. Sosial müəssisələr yalnız balıq vermək ya da balıq tutmağı öyrətməklə kifayətlənməz, balıq sənayesində bir inqilab yaradana qədər dincəlmədən çalışırlar.

Geniş çərçivəli ictimai problemləri diaqnoz etmək və həll etmək üçün ictimai sahibkarlara ehtiyac var. Çünki yalnız ictimai sahibkar, bütün problemlər aradan qalxanadək, qorxmadan işi davam etdirə bilər. Elm insanları fikirlərini dilə gətirdikdən sonra durur. Sosial sahibkarlar isə, birlikləri, cəmiyyətləri və dünyanı kökdən dəyişdirmək üçün böyük işlər görür, sosial müəssisələr yaradır, bütün problemlərin aradan qalxmasına nail olur.

Sosial müəssisələr, cəmiyyətin kompleks problemlərinə sistemli və davamlı həllər çıxarar və həll çıxararkən də daima hadisələrə müsbət yanaşır. Sahibkar ümumi mənada, istehsal üçün lazım olan resursları bir araya gətirən adamdır. Sahibkarlıq da, sərmayə risk alma, fürsətləri ələ alma, həyata keçirmə və yenilik etmə proseslərinin bütünüdür. Bu səbəbdəndir ki, həm şirkət qurma prosesi həm də yeniliklər etmə müddəti sahibkarlıq əhatəsindədir. Sosial müəssisələr isə, eynilə xüsusi sektorda olduğu kimi risk alaraq inkişaf edən adamdır. Risk alaraq fikrini reallaşdırmağa çalışır. Sosial müəssisələrin hədəfi, ictimai problemlərin cəmiyyətlə uyğunlaşan, yeni, orijinal yollarla həll edilməsidir. Çünki ticarət sahəsində sahibkar müvəffəqiyyətli ola bilmədiyində özü və yaxın ətrafı zərər görür, amma ictimai sahibkar səhv etdiyində cəmiyyət zərər görə bilər. Sosial sahibkar yaşadığı cəmiyyətdə ortaya çıxan ictimai problemləri dərk edərək o günə qədər ağlagəlməyən, ya da cəsarət edilməyən bir yanaşma göstərərək, problemlərin üzərinə gedən və cəmiyyətin etibarını qazanan şəxsdir.

Dövrümüzün ən böyük problemlərindən olan işsizliyin aradan qaldırılmasında insan kapitalının inkişafı əhəmiyyətli rol oynaya bilər. İnsan kapitalının ayrılmaz komponentlərindən biri, insanlara yeni bi-

lik, bacarıq və qabiliyyətlər qazandıran və ya bacarıqlarını daha da inkişaf etdirən, dolayısı ilə məhsuldarlığını və gəlir səviyyəsini yüksəldən ən əhəmiyyətli ünsür təhsildir.

Təhsilin iqtisadi inkişaf və işsizlik səviyyəsi üzərindəki təsirləri iqtisadçılar tərəfindən klassik istehsal amilləri ilə müqayisədə nisbətən daha gec öyrənilməyə başlanılmışdır. Təhsilin iqtisadi aspektlərinin daha ətraflı təhlili əmək bazarlarında gəlirlərin, şirkətlərin təşkilati strukturlarının və iqtisadi inkişafın daha yaxşı anlaşılmasına səbəb olmuşdur. Təhsillə birlikdə, cəmiyyətdəki fərdlərin sağlamlığı da insan kapitalı üzərində müsbət təsirə malikdir. Belə ki, fərdlərin sağlamlığı insan kapitalının inkişafı, məhsuldarlığın yüksəldilməsi və iqtisadi artım üçün başlıca amildir. Çünki fərdlərin təhsil ala bilmələri və insan kapitalından daha səmərəli istifadə etmələri üçün fiziki cəhətdən sağlam olmaları zəruridir.

Sosial müəssisələr üçün zəruri hüquqi, iqtisadi və sosial mühitin mövcudluğu mühüm şərtlərdəndir. Hüquqi mühit peşəkar sahibkarların fəaliyyəti üçün sahibkarın öz fəaliyyətində yüksək göstəricilər əldə etməsi üçün iqtisadi proseslərin əsas subyektlərinin işgüzar fəallığını tənzim edən qanunvericilik aktlarının mövcudluğudur. İqtisadi mühit hər şeydən əvvəl iqtisadi amillərin mövcudluğunu, seçilmiş sahibkarlıq fəaliyyəti dairəsində rəqabət və qiymətlərin yaranması şəraitini, sahibkarlıq fəaliyyətinin daha da faydalı aparılması üçün infrastrukturun səviyyəsini əks etdirir. Belə ki, dünyada 1980-ci illərdə iqtisadi böhranın dərinləşməsi, işsizliyin artması, ictimai təcrid və yoxsulluğun yayılması kimi problemlərin cəmiyyət faydasına yeni həll axtarışlarını ön plana çıxarmışdır. Qloballaşma prosesində inkişaflar, özəlləşdirmə ilə ictimai sektorunun kiçilməsi və ictimai sektorunun mövcud quruluşuyla artan ictimai problemləri həll edə bilməməsi, özəl sektorun strateji planlarına əsasən ictimai problemlərə yalnız mənfəət məqsədiylə yaxınlaşması, «İctimai iqtisadiyyat» və ya «üçüncü sistem» ya da «üçüncü sektor» olaraq adlandırılan yeni bir iqtisadi, ictimai və siyasi yanaşmanı gündəmə gətirmişdir. Bu çərçivədə inkişaf

etmiş ölkələrdə kooperativlər, digər bənzəri təşkilatlarla birlikdə «üçüncü sektor» olaraq təyin olunmuşdur. Hal-hazırda dövlətlərin funksiyalarının əhəmiyyətli bir hissəsini qeyri-hökumət təşkilatlarına təhvil meyili gedərək ağırlıq qazanmaqdadır və kooperativlərin daxil edildiyi üçüncü sektor bu sahədə əhəmiyyətli və yeni vəzifələr öh-dəsinə götürmüşdür.

